## Günün sözü

### Prezident İlham Əliyev:

**Gürcüstan ilə Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir, biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır. Müzakirə olunan bütün məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq.**


Səhifə ⇨ 10

**Bakı–Təl-Əviv: dostluğun yeni üfüqləri**

**“Əzilənlərin gur səsidir o…”**


Səhifə ⇨ 13


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 72 (30188) 8 aprel 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri

## Prezident İlham Əliyevlə Gürcüstanın Baş nazirinin təkbətək görüşü





**Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub.**

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qarşıladı.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin olduğu qeyd edildi.

Prezident İlham Əliyev keçən ilin oktyabrında Gürcüstana səfərini məmnunluqla xatırladı və səfər zamanı aparılmış müzakirələrin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Gürcüstanın Baş nazirinin bu səfəri zamanı aparılacaq müzakirələrin önəmini vurğuladı. Azərbaycan Prezidenti bu səfərlər çərçivəsində görüşlərin məhz regionlarda keçirilməsinin çox önəmli və vacib bir ənənə olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyəti vurğulandı. Bu xüsusda ölkələrimizin birlikdə reallaşdırdıqları enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığı və bu enerji resurslarına tələbatın artdığı qeyd olundu. Həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı və bu xüsusda Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin genişləndirilməsi, onun imkanlarının artırılması istiqamətində birgə aparılan fəaliyyət xüsusi vurğulandı. Azərbaycanın və Gürcüstanın Orta Dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyi qeyd olundu.

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı və bu istiqamətdə əlavə tədbirlərin görüldüyü bildirildi, Azərbaycanın SOCAR şirkətinin Gürcüstanda uğurlu fəaliyyəti xüsusi vurğulandı.

Söhbət zamanı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin əhəmiyyəti, həmçinin Qara dənizin dibi ilə kabelin çəkilməsinin, bu xüsusda Azərbaycanın və Gürcüstanın digər tərəfdaşlarla işbirliyinin önəmi qeyd edildi.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq məsələlərini müzakirə etdilər.

Gürcüstanın Baş naziri bu il Azərbaycanda ulu öndər Heydər Əliyevin 100 illiyinin qeyd olunduğunu vurğuladı, ümummilli liderin əziz xatirəsinin gürcü xalqı tərəfindən də böyük hörmət və ehtiramla anıldığını bildirərək, ulu öndərin Gürcüstanın və gürcü xalqının böyük dostu olduğunu qeyd etdi.

**AZƏRTAC**

## 4 min itkin soydaşımızın taleyinə aydınlıq gətirilməlidir

Səhifə ⇨ 6


Səhifə ⇨ 6

**Milli Məclisdə İran parlamentinə cavab bəyanatı qəbul edildi**

**ABŞ Azərbaycanda bərpaolunan enerji potensialına böyük maraq göstərir**


Səhifə ⇨ 9


Səhifə ⇨ 10

**TÜRKSOY-da UNESCO üzrə sədrlik Azərbaycana keçdi**

**Güneylilər Xudafərində mollakratiyanı vahiməyə saldılar**


Səhifə ⇨ 11

## Təbrizdə Füzulinin heykəlinə hücum çəkənlər kimlərdir?

Səhifə ⇨ 11


Səhifə ⇨ 10

**İrəvanda “Qarabağ Azərbaycandır!” həyəcanı**

**Etirazçılar həbs edilir, işgəncəyə məruz qalır və öldürülürlər**


Səhifə ⇨ 11


Səhifə ⇨ 13

**Çin seçim qarşısında: kollektiv Qərb, yoxsa Rusiya?!**

**Texnologiya Universiteti istehsalatla əlaqələri gücləndirir**


Səhifə ⇨ 14

# Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər

## Prezident İlham Əliyevin bəyanatı

**Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

**– Hörmətli cənab Baş nazir.**

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Altı ay bundan əvvəl biz Gürcüstanda Sizin qonağınız idik və bu gün Siz Azərbaycandasınız. Mən Gürcüstanda olarkən Mçxeta rayonunda olmuşdum. Bu gün Siz Qəbələ rayonundasınız. Hesab edirəm ki, bu, çox yaxşı bir ənənədir. Çünki beləliklə, biz həm Gürcüstanın, həm də Azərbaycanın maraqlı tarixi yerləri ilə tanış oluruq və bu, bizim dostluğumuzu daha da gücləndirir.

Gürcüstan ilə Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir, biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır. Müzakirə olunan bütün məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq.

Bu gün bir çox önəmli məsələlər müzakirə olunmuşdur və biz gələcək fəaliyyətimizi də əldə edilmiş razılaşmalar əsasında quracağıq.

Təbii ki, Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır. Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir. Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı ildən-ilə artmaqdadır. Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır.

Keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəqlini təmin etməliyik və əminəm ki, biz bu rəqəmə çatacağıq.

İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır. Uzun illərdir ki, Azərbaycan şirkəti SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir. Dünən mənə verilən məlumata görə, SOCAR Gürcüstanda 11 min kilometr uzunluğunda qaz xətləri çəkmişdir və beləliklə, 830 mindən çox abonenti təbii qazla təmin edir.

Biz gələcəkdə energetika sahəsində əməkdaşlığın yeni istiqamətləri üzrə fəal işləyəcəyik, daha doğrusu, bu iş artıq başlamışdır. Keçən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya önəmli Sazişə imza atmışlar. Bu ilin fevral ayında isə Bakıda yaşıl enerji layihəsinin birinci rəhbər komitəsinin iclası keçirilmişdir. Bu, genişmiqyaslı layihədir. Əlbəttə ki, bu layihənin uğurla həyata keçirilməsi həm dörd ölkənin birgə fəaliyyəti hesabına mümkün olacaqdır, eyni zamanda, bildiyiniz kimi, Avropa İttifaqı da bu layihəyə çox böyük önəm verir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti imzalanma mərasimində də iştirak etmişdir.

Təbii ki, ikitərəfli əlaqələrimizin önəmli hissəsi nəqliyyatla bağlıdır. Burada da bütün işlər uğurla gedir, plan üzrə gedir. Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərirlər. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımalarının həcminin artırılması istiqamətində əlavə addımlar atılacaqdır.

Mən keçən il və bu il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər etmişəm və bu il hələ edəcəyəm. Beləliklə, yeni yüklərin Orta Dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda, yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir. Təbii ki, bu gün bu məsələ də geniş müzakirə olunub və hələ olunacaq.

Bu, əsas fəaliyyət istiqamətləri idi. Amma təbii ki, Gürcüstan–Azərbaycan əlaqələri sadaladığım sahələrlə məhdudlaşmır. Bizim əlaqələrimiz bir çox sahələri əhatə edir – müdafiə sənayesi, təhsil, mədəniyyət, turizm, texnologiyalar, kənd təsərrüfatı. Əlbəttə ki, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır. Əminəm ki, cənab Baş nazirin bugünkü səfəri bizim əlaqələrimizə yeni təkan verəcəkdir.

Hörmətli Baş nazir, bir daha xoş gəlmisiniz.

*

Sonra Gürcüstanın Baş naziri bəyanatla çıxış etdi.







## Baş nazir İrakli Qaribaşvilinin bəyanatı

**– Cənab Prezident, əziz dostum, mən Sizi salamlayıram.**

Hörmətli İlham müəllim, mən bu gün ölkənizin bu füsunkar bölgəsində olmaqdan böyük şərəf duyuram. Mənim dostum Azərbaycan Prezidenti cənab İlham Əliyevə bizə göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Siz düz qeyd etdiniz ki, bir neçə ay öncə Gürcüstanda səfərdə oldunuz. Bu, artıq yeni bir ənənədir ki, biz yalnız paytaxtlara deyil, həm də bölgələrə səfər edirik. Bu, çox gözəl təşəbbüsdür və bu gün də bizim burada olmağımız bunun sübutudur.

Bir daha onu qeyd etmək istərdim ki, Azərbaycanla, Azərbaycan xalqı ilə bu sıx dostluq və qardaşlıq münasibətləri olduqca önəmlidir. Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik və o layihələr bizim xalqları, ölkələri daha da sıx birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illərdə də bu, belə olacaqdır. Biz dəfələrlə bu mühüm layihələri qeyd etmişik.

Məlumdur ki, Gürcüstan da etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşıdır. Cənab Prezidentin qeyd etdiyi kimi, biz bu fəaliyyətimizi davam etdiririk və dayanmırıq. Bildiyiniz kimi, biz Qara dənizin dibi ilə elektrik kabeli aparacağıq, Orta Dəhliz məsələsini inkişaf etdiririk. Yaşıl enerjini Avropaya nəql etmək üçün bizim nəhəng potensialımız mövcuddur, bunun çox böyük perspektivləri var. Bu, bir gələcəkdir. Hər iki ölkə bu sahəyə daha çox sərmayə qoyacaq. Biz bunu da müzakirə etdik.

Bundan əlavə, əlbəttə ki, biz regiondakı vəziyyəti müzakirə etdik. Hazırda Ukraynadakı vəziyyət müzakirə edildi, burada risklər, çağırışlar mövcuddur. Elə çağırışlar ki, onlar İkinci Dünya müharibəsindən sonra mövcud deyildi. Bizim başlıca amalımız sülh və sabitliyin təmin edilməsidir. Çünki bunlar olmasa, heç bir inkişaf və firavanlıqdan söhbət gedə bilməz.

Biz yeni iş yerləri açmalıyıq və xalqlarımızın firavanlığını təmin etməliyik. Biz bu sahədə eyni baxışa malikik. Ölkələrimiz arasında münasibətlərin daha sıx olmasını arzulayırıq.

Onu da əlavə etmək istəyirəm ki, biz Orta Dəhliz layihəsi üzrə birgə koordinasiyalı şəkildə çalışırıq. Bizim məqsədimiz də yaxın gələcəkdə bütün maneələri aradan qaldıraraq infrastrukturu – dəniz limanlarımızı, dəmir yollarımızı birgə inkişaf etdirməkdir. Bildiyiniz kimi, biz Gürcüstanda yeni limanın inşası üzərində çalışırıq. Bir ildən sonra biz dəmir yolunun genişləndirilməsi layihəsini həyata keçirəcəyik, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti genişləndiriləcək və biz Orta Dəhliz vasitəsilə daha çox yüklər cəlb edə biləcəyik.

Bunu bir daha qeyd etmək istərdim ki, bizim əsas məqsədimiz regionda sülhü və sabitliyi təmin etməkdir. Regionda daha çox layihələr həyata keçirməliyik və biz işimizi gözəl qardaşlıq mühitində irəli aparacağıq.

Cənab Prezident, bir daha Sizə hədsiz minnətdarlığımı bildirirəm. Bu il ölkənizdə Siz dahi atanız Heydər Əliyevin 100 illiyini qeyd edirsiniz. Siz bizim dostumuzsunuz və Heydər Əliyev də Gürcüstanın böyük dostu olub. Sizə və Azərbaycan xalqına sülh və sabitlik arzu edirəm. Təşəkkür edirəm diqqətinizə görə.

*

Sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ şəhəri ilə tanış edilib.

**AZƏRTAC**

# Qəbələ regional "ASAN xidmət" mərkəzi ilə tanışlıq





**Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ regional "ASAN xidmət" mərkəzində olublar.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəzin fəaliyyəti ilə bağlı məlumat verdi.

Prezident İlham Əliyevin iştirakı ilə 2016-cı il avqustun 10-da açılışı olan Mərkəz müvafiq sahələr üzrə qeydiyyat məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərir. Yeddi illik fəaliyyəti dövründə regional mərkəzə ümumilikdə bir milyona yaxın vətəndaş müraciəti daxil olub. Eyni zamanda, səyyar "ASAN xidmət" avtobusu vasitəsilə 220 mindən çox vətəndaş müraciəti qəbul edilib. Burada gündəlik orta müraciət sayı 1000-ə yaxındır.

Qəbələ regional "ASAN xidmət" mərkəzində indiyədək 673 könüllü fəaliyyət göstərib. Ötən dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, teatr tamaşaları, idman yarışları, intellektual oyunlar, xeyriyyə aksiyaları, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub.

Tanışlıq zamanı "ASAN xidmət" mərkəzlərinin fəaliyyətindən bəhs edən videoçarx göstərilib. Qeyd olunub ki, hazırda 24 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakıda, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.



"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq", "Azərsu" və "Azəriqaz" tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 624 mindən çox vətəndaşın 61 milyona yaxın müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faizdir.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyunundan bəri 2 milyon 773 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Məlumat verilib ki, könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 30 mindən çox könüllü gənc qoşulub. Bu günədək 3300-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Həmçinin bildirilib ki, Dövlət Agentliyi öz fəaliyyəti çərçivəsində 16 ölkə və 2 beynəlxalq təşkilatla müqavilə imzalayıb. Bundan başqa, bir neçə ölkədən "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə əlaqədar müraciətlər daxil olub. Hazırda danışıqlar davam etdirilir.

Sonda Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə "ABAD-çı ailə" tərəfindən hazırlanmış əl sənətkarlığı məhsulu hədiyyə olunub.

**AZƏRTAC**

# Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində olublar





**Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində də olublar.**

Qəbələ Qida Şəhərciyinin baş direktoru Fuad Babayev Azərbaycan Prezidentinə və Gürcüstanın Baş nazirinə məlumat verdi.

Qeyd olundu ki, 16 hektar ərazidə yerləşən Qəbələ Qida Şəhərciyinin nəzdindəki konserv zavodu qabaqcıl Avropa texnologiyaları ilə təchiz edilib. Zavod meyvə şirəsi, limonad, qazlı və qazsız içkilər, soyuq çay və konsentrat istehsalı sahələrindən ibarətdir. Buradakı 13 istehsal xəttində 6 növ qablaşdırmada 130 adda məhsul istehsal edilir. Müəssisə ildə 360 min ton hazır məhsul istehsalı gücünə malikdir.

Saatda 10 min litr dolum sistemi vasitəsilə plastik qablaşdırmada meyvə tərkibli içkilər və soyuq çay, şirə və nektar istehsalı xətti isə saatda 20 min litr meyvə şirəsi və konsentrat istehsal etmə imkanına malikdir. Digər xətdə isə saatda 35 min litr hazır limonad və digər qazlı sərinləşdirici içkilər, qazlı və qazsız su istehsal olunur.

Müəssisədə qablaşdırma mərhələsindən əvvəl müəyyən reseptlər əsasında hazırlanmış tərkiblər laboratoriyada yoxlanılır və təsdiqləndikdən sonra istehsala göndərilir. Burada bütün istehsal prosesi tam avtomatlaşdırılıb. Qəbələ konserv zavodunda istehsal olunan məhsullar bir çox xarici ölkələrə ixrac edilir.

Məlumat verildi ki, kartof emalı müəssisəsində iki istehsal xətti fəaliyyət göstərir. Burada yarımfabrikat dondurulmuş kartof və kartof çipsi istehsal olunur. Yarımfabrikat dondurulmuş kartof istehsalı xəttinin hazır məhsul buraxılışı gücü saatda 2 ton təşkil edir. Çips istehsalı xəttinin gücü isə saatda bir ton hazır məhsuldur. Hər iki istehsal xətti tam avtomatlaşdırılmış sistem üzrə çalışır. Qəbələ rayonunda şirkətə məxsus olan 200 hektar ərazidə ildə 10 min tondan çox kartof yetişdirilir ki, bu da istehsal müəssisəsinin illik xammal tələbatını tam ödəyir. Kartof emalı müəssisəsinin istehsal etdiyi məhsullar ölkəmizdə təqdim olunmaqla yanaşı, bir sıra xarici ölkələrə də ixrac edilir. Sahələrdən yığılan kartof 6 min kvadratmetrlik ilkin soyuducu anbara yerləşdirilir. Müəssisədə, həmçinin keyfiyyətə nəzarət laboratoriyaları fəaliyyət göstərir. İstehsala göndərilməzdən əvvəl məhsulun fiziki-kimyəvi göstəriciləri yoxlanılır.

**AZƏRTAC**

# Prezident İlham Əliyevin adından Gürcüstanın Baş nazirinin şərəfinə nahar verilib

Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin şərəfinə nahar verilib.

**AZƏRTAC**

# Qəbələ Beynəlxalq Hava Limanında qarşılanma



**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili aprelin 7-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

# R.K.Qurbanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ramil Kamil oğlu Qurbanov Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 aprel 2023-cü il**

# A.X.Hüseynovun Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Xeybər oğlu Hüseynov Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 aprel 2023-cü il**

# "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110; 2008, № 6, maddə 498; 2013, № 12, maddə 1508; 2014, № 9, maddə 1027; 2016, № 3, maddə 469, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1677; 2022, № 4, maddə 305, № 5, maddə 471, № 9, maddə 1028; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2050 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə" üzrə:

1.1. 4.1-ci bənddə "mərkəzi icra hakimiyyəti orqanlarının" sözləri "dövlət orqanlarının (qurumlarının)" sözləri ilə əvəz edilsin;

1.2. 4.5-ci bəndə "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin;

1.3. 4.10.1-ci yarımbənddə "səkkiz" sözü "doqquz" sözü ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının tərkibi"nin "Şuranın üzvləri" hissəsinə aşağıdakı məzmunda on birinci və on ikinci abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 aprel 2023-cü il**

# Baş nazir Əli Əsədov Qazaxıstan Baş nazirinin müavini ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 7-də Qazaxıstan Respublikası Baş nazirinin müavini – ticarət və inteqrasiya naziri Serik Jumanqarin ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Qazaxıstan arasında müxtəlif sahələrdə əlaqələrin uğurlu inkişafı qeyd olunub. Tərəflər ikitərəfli əmtəə dövriyyəsinin artım sürətini müsbət qiymətləndiriblər.

Görüşdə Bakıda keçirilən Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclasının gündəliyində duran məsələlərə toxunulub.

Tərəflər, həmçinin ticari-iqtisadi, investisiya, nəqliyyat-logistika, sənaye, mədəni-humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə gələcək perspektivləri müzakirə ediblər.

**AZƏRTAC**

# **Prezident:** Azərbaycan ÜST-lə səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək

**Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Qebreyesusun fəaliyyətini yüksək qiymətləndiririk. Azərbaycan təşkilatla səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək.**

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə paylaşımında əksini tapıb.

Paylaşımda qeyd edilib ki, Ümumdünya Səhiyyə Təşkilatı özünün 75 illiyini qeyd edir. Azərbaycan hər kəsin sağlamlığının təmin edilməsinə dair BMT-nin 3-cü Dayanıqlı İnkişaf Məqsədinin icrasına mühüm əhəmiyyət verir və bununla bağlı milli səviyyədə ardıcıl və məqsədyönlü fəaliyyət həyata keçirir: "Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə COVID-19 pandemiyası ilə mübarizədə qlobal liderlik nümayiş etdirmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Qebreyesusun fəaliyyətini yüksək qiymətləndiririk. Azərbaycan təşkilatla səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək".

**AZƏRTAC**



# Gürcüstan mediası Qəbələ görüşünə geniş yer verib

**Gürcüstanın aparıcı KİV-ləri bu ölkənin Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana səfərini və Prezident İlham Əliyev ilə görüşünü, Azərbaycan Prezidentinin və Gürcüstanın Baş nazirinin mətbuata bəyanatlarında söylədikləri fikirləri geniş işıqlandırıb.**




Qonşu ölkənin **GHN** xəbər portalında yayımlanan məqalədə Prezident İlham Əliyevin "Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır" fikri xüsusi vurğulanıb. Məqalədə dövlətimizin başçısının Gürcüstanın və Azərbaycanın bir-biri ilə sıx bağlı olan ölkələr olduğunu qeyd etməsi oxucuların diqqətinə çatdırılıb. Eyni zamanda, altı ay əvvəl Prezident İlham Əliyevin Gürcüstana səfəri zamanı Mçxeta bölgəsində, bu gün isə İrakli Qaribaşvili ilə Qəbələ rayonunda keçirilən görüşlərin hər iki ölkənin heyrətamiz tarixi və mədəni irsi ilə tanış olmağa imkan verdiyi xüsusi qeyd edilib.

Məqalədə dövlətimizin başçısının fikrinə istinadla bildirilib ki, ölkələrimiz arasındakı dostluq əlaqələri və əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün həlledici əhəmiyyətə malikdir. Azərbaycan Avropaya təbii qazın nəqlinin miqyasını və həcmini hər il artırır. Bu rəqəm artır və ötən il Avropa İttifaqı ilə imzalanan Anlaşma Memorandumuna əsasən, Azərbaycan 2027-ci ilədək təkcə Avropaya 20 milyard kubmetrdən çox təbii qaz tədarük edəcək.

**"1tv.ge"** televiziya kanalının yaydığı xəbərdə vurğulanıb ki, Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlıqda mühüm komponentlərdən biri də nəqliyyatdır. Bu istiqamətdə də işlər plan üzrə uğurla davam etdirilir. Məqalədə Azərbaycan Prezidentinin mətbuata bəyanatında ifadə etdiyi aşağıdakı fikirlər xüsusi vurğulanıb: "Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərirlər. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımalarının həcminin artırılması istiqamətində əlavə addımlar atılacaqdır. Mən keçən il və bu il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər etmişəm və bu il hələ edəcəyəm. Beləliklə, yeni yüklərin Orta Dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda, yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir".

**"Adjaratv.ge"nin** yaydığı materialda da Prezident İlham Əliyevin Gürcüstanın və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynaması və bu rolun hər gün daha da artması barədə fikrinə xüsusi yer verilib. "Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında bu dostluq əlaqələri və əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi baxımından həlledici əhəmiyyətə malikdir", – deyə məqalədə vurğulanıb.

**"Radiotavisupleba.ge"** portalında yayımlanan məqalədə isə Prezident İlham Əliyevin iştirakı ilə ötən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Ruminiyanın imzaladığı Sazişin əhəmiyyətinə toxulunub. Layihənin uğurla həyata keçirilməsi üçün birgə səylərin önəminin vurğulandığı yazıda bildirilib ki, Avropa İttifaqı artıq bu layihəyə böyük önəm verib. Yazıda Azərbaycan Prezidentindən bu sitat gətirilib. "Uzun illərdir ki, Azərbaycanın SOCAR şirkəti Gürcüstanda uğurla fəaliyyət göstərir və dünən aldığım məlumata görə, Gürcüstanda 800 min istehlakçı və abonenti qazla təmin edilir".

**"Resonansedaily.com"** saytında Azərbaycanın və Gürcüstanın dövlət və hökumət başçılarının ölkələrimiz arasında əməkdaşlıq və regional təhlükəsizlik məsələləri, Qafqaz regionu ilə Avropanı birləşdirən Qara dəniz sualtı elektrik kabeli layihəsi, eləcə də regionda sülh və sabitliyin vacibliyi barədə fikirlərinə geniş yer verib. Məqalədə bildirilib ki, Gürcüstan regionda sülhün və sabitliyin təmin olunmasına bundan sonra da töhfə verməyə hazırdır.

**"Ambebi.ge"** saytında dərc olunan məqalədə Prezident İlham Əliyevin mətbuata bəyanatında söylədiyi "Gürcüstan ilə Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir" fikri sərlövhəyə çıxarılıb. Yazıda Prezident İlham Əliyevin Gürcüstanın və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaması barədə sözləri də oxuculara təqdim olunub. Azərbaycanın Avropaya qaz ixracını ildən-ilə genişləndirməsinin qeyd olunduğu xəbərdə vurğulanıb ki, bu il beynəlxalq bazarlara 24,5 milyard kubmetr qaz ixrac ediləcək və bu rəqəm hər il artır. Yazıda bununla bağlı dövlətimizin başçısının çıxışından aşağıdakı fikirlər oxucuların diqqətinə çatdırılıb: "Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır. Keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəqlini təmin etməliyik və əminəm ki, biz bu rəqəmə çatacağıq. İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır".

**"Accentnews.ge"** və **"Europetime.ge"** nəşrlərinin yaydığı xəbərlərdə Gürcüstan–Azərbaycan dostluq əlaqələrinin Avropanın enerji təhlükəsizliyi üçün vacib rol oynadığı vurğulanıb.

Gürcüstanın **"Interpressnews.ge"**, **"24 news.ge"**, **"Apsny.ge"**, **"Qafqazturk.com"**, **"Newsday.ge"**, **"Dalgatv.ge"**, **"Interpress.ge"**, **"Aktual.ge"** xəbər portalları, **"Rustavi2"**, **"Maestro"** televiziya kanalları da səfər və mətbuata bəyanatlarda səsləndirilən fikirlər barədə Azərbaycan, gürcü, ingilis və rus dillərində silsilə materiallar dərc ediblər. Materiallarda Prezident İlham Əliyevin və İrakli Qaribaşvilinin ölkələrimiz arasında dostluq, müttəfiqlik münasibətləri, xalqlarımızın qardaşlıq əlaqələri, eləcə də belə yüksək səviyyəli görüşlərin bölgələrdə keçirilməsinin Azərbaycan-Gürcüstan dostluğunun möhkəmləndirilməsi ilə bağlı fikirlərinə xüsusi yer verib. Baş nazir İrakli Qaribaşvilinin "Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır" fikirləri bu baxımdan qeyd olunub. Xəbərlərdə, həmçinin Azərbaycanın və Gürcüstanın Orta Dəhlizin həyata keçirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında uğurla fəaliyyət göstərdikləri diqqətə çatdırılıb.

**Xətayi ƏZİZOV,**
**AZƏRTAC-ın xüsusi müxbiri**

**Tbilisi**

# Sahibə Qafarova Bob Bləkmənlə görüşüb

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Böyük Britaniya Birləşmiş Krallığı Parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



S.Qafqarova Birləşmiş Krallıq Parlamentinin nümayəndə heyətinin ölkəmizə səfərini yüksək qiymətləndirib. Qonaqlara Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən sonra bölgədə yaranmış yeni vəziyyət, ölkəmizin sülh təşəbbüsləri barədə danışıb. Ölkələrin parlamentlərarası əlaqələrinin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb və bu sahədə dostluq qruplarının rolunu vurğulayıb.

Bob Bləkmən ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərdən, aparılan danışıqlardan məmnunluğunu ifadə edib. Qonaq Ağdam şəhərinə səfəri barədə təəssüratlarını bölüşüb, işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işlərini yüksək qiymətləndirib və bölgədəki vəziyyət barədə fikirlərini səsləndirib.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 95** **Bakı şəhəri, 4 aprel 2023-cü il**

***"Qida təhlükəsizliyi nəzarətinə aid edilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı"nın təsdiq edilməsi barədə***

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qida təhlükəsizliyi nəzarətinə aid edilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan–Qazaxıstan Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclasının yekunlarına dair Protokol imzalanıb

**Bakıda Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclası keçirilib.**



İclasdan əvvəl Komissiyanın həmsədrləri, Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qazaxıstan Baş nazirinin müavini – ticarət və inteqrasiya naziri

Serik Jumanqarin arasında ikitərəfli görüş olub, iki ölkə arasında əməkdaşlığın mövcud vəziyyəti və yeni əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Komissiyanın iclasında Qazaxıstan və Azərbaycan arasında yüksək səviyyədə olan siyasi münasibətlərin ticari-iqtisadi tərəfdaşlığın inkişafı ilə möhkəmləndirilməsi istiqamətində atılan addımlar dəyərləndirilib.

Energetika naziri Pərviz Şahbazov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin siyasi iradələri sayəsində ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir. İki ölkə arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamənin imzalanması bunun parlaq təzahürüdür. Bildirilib ki, 2022-ci ildə qarşılıqlı ticarət dövriyyəsinin həcmi 2021-ci illə müqayisədə 4,4 dəfə artaraq 598 milyon 400 min ABŞ dolları təşkil edib. Bu göstəricilərin 2022–2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqramın icrası ilə daha da yüksələcəyinə inam ifadə edilib.

Nazir energetika sahəsində əməkdaşlığın inkişafından danışarkən deyib: "Ötən il SOCAR və "KazMunayQaz" şirkətləri arasında ildə 1,5 milyon ton Qazaxıstan mənşəli neftin nəqlinə dair imzalanmış 5 illik müqavilə enerji əməkdaşlığımızda mühüm irəliləyişdir. Cari ilin martından Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə Qazaxıstanın "Tengiz" yatağından hasil edilən neftin nəqlinə başlanılıb. Aprel ayında BTC ilə 125 min ton Qazaxıstan neftinin nəqli planlaşdırılır".

İclasda hər iki ölkənin "yaşıl enerji"yə keçid sahəsində ciddi səylər göstərdiyi vurğulanaraq, bərpa olunan enerji və enerji səmərəliliyi kimi sahələrdə Qazaxıstan şirkətləri ilə əməkdaşlıq niyyətləri ifadə olunub. Həmçinin nəqliyyat-logistika əlaqələrinin inkişafı, Çindən, Mərkəzi Asiya ölkələrindən Avropaya və əks istiqamətdə yük axınları məqsədilə ölkələrimizin tranzit potensialının artırılması üçün birgə fəaliyyətin əhəmiyyətindən danışılıb.

Qazaxıstanın Baş nazirinin müavini – ticarət və inteqrasiya naziri Serik Jumanqarin isə çıxışında deyib: "Azərbaycan Qazaxıstanın Cənubi Qafqazda əsas və perspektivli ticarət-iqtisadi tərəfdaşıdır. Bu gün ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclasında biz Qazaxıstan dəmir yolu maşınqayırmasının ixrac imkanlarını təqdim edirik. Bundan əlavə, biz Qazaxıstandan Azərbaycana 304 milyon ABŞ dollarından çox məbləğdə 100-dən çox növdə qeyri-xammal əmtəəsinin təchiz edilməsi üzərində işləyirik. Ölkələrimiz enerji, nəqliyyat, kənd təsərrüfatı mallarının ticarəti sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensiala malikdir. Biz mümkün olan çoxsaylı istiqamətlər üzrə qarşılıqlı faydalı və səmərəli əməkdaşlıq qurmağı hədəfləyirik və hər zaman yeni təkliflərə açığıq".

İclasda Hökumətlərarası Komissiyanın 18-ci iclasından sonra görülmüş işlər nəzərdən keçirilib, siyasi, ticarət-iqtisadi, energetika, nəqliyyat və logistika, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, media və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparılıb.

Sonda Azərbaycan–Qazaxıstan Birgə Hökumətlərarası Komissiyanın 19-cu iclasının yekunlarına dair Protokol imzalanıb. Komissiyanın 20-ci iclasının gələn il Qazaxıstanda keçirilməsi razılaşdırılıb.

**"Xalq qəzeti"**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 99** **Bakı şəhəri, 6 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 380 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin iş yerlərinin standartları"nda dəyişiklik edilməsi haqqında***

"Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə", "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlillərin hüquqları haqqında" Konvensiyanın Fakültativ Protokoluna qoşulmaq barəsində", "Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi"nə qoşulmaq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 11 oktyabr tarixli 608-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Hərbi qulluqçuların və onların ailələrinin sosial müdafiəsini gücləndirmək sahəsində əlavə tədbirlər haqqında" 1992-ci il 4 iyun tarixli 827 nömrəli, "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunmasının təmin edilməsi haqqında" 2001-ci il 26 dekabr tarixli 613 nömrəli fərmanlarında və "1941-1945-ci illər müharibəsində Qələbənin 60 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi üzrə Milli Proqram"ın təsdiq edilməsi haqqında" 2004-cü il 6 iyul tarixli 303 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 12 noyabr tarixli 1878 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 380 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1534; 2020, № 11, maddə 1398) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin iş yerlərinin standartları"nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.2.4-cü yarımbənddə "toxunulmaqla duyulan" sözləri "taktil" sözü ilə əvəz edilsin.

**2.** 4.10-cu bəndin beşinci cümləsində "toxunmaqla duyulan" sözləri "taktil" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# MN: Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

**Aprelin 7-si saat 13:20-dən 13:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qeyd olunan istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**"Xalq qəzeti"**

# İran, SEPAH, yakobinlər və Kərimin sarkazmı

## Yaxud molla rejimi barədə demək istədiklərim

**İllər öncə İranda söhbətləşdiyimiz restoran sahibi Kərim adlı şəxs ölkənin idarəçiliyi haqqında söz açarkən gözləmədiyimiz bir ifadə işlətmişdi – İranı Allahın özünün şəxsən yer üzünə göndərdiyi adam idarə edir. Açığı, həmin an Kərimin bu sözündən bir qədər təəccübləndik. Çünki fikrini son dərəcə ciddi formada bildirmişdi. Lakin Kərim emosiyamıza diqqət yetirəndə hiss etdi ki, onu qeyri-ciddi saydıq. Bir qədər gülümsədi və anladıq ki, restoran sahibinin belə danışması yalnız sarkazmdır. Adamda sarkazmını ciddi saydığımıza əminlik yarandıqda, o eyni tonda davam etmiş və rejimə etirazını məhz bu formada bildirmişdi.**



Beləcə o zaman sıravi restoran sahibinin şəxsində İrandakı quruluşun saxta mahiyyətinə şahidliyimiz başlamışdı. Yəni, Kərim tək deyildi. Taksi sürücülərindən tutmuş dönərçilərə qədər, demək olar, söhbətləşdiyimiz hər kəs İrandakı fars molla rejiminin saxta mahiyyətini qabardan fikirlər səsləndirirdi. İndi İran xalqı, məhz, o mahiyyətə qarşı etiraz edir. Halbuki, etirazlar olmaya bilərdi. Axı 1979-cu ilin İslam inqilabından insanlar başqa şeylər gözləyirdilər.

1979-cu ilə qədər İranda, inqilab zamanı devrilmiş, dünyəvi monarxiya mövcud idi. Həmin il hakimiyyət ruhanilərin əlinə keçdi və yeni rəhbərlik, guya, sosial ədalət cəmiyyəti qurmağa başladı. Hər halda, belə bəyan edilmişdi. Bildirilmişdi ki, başlıca vəzifə İslam dini prinsiplərinə əsaslanan, kommunist doktrinalarına və bazar demokratiyası təlimlərinə alternativ ola biləcək sosial-iqtisadi inkişaf nəzəriyyəsini yaratmaq və praktikada tətbiq etməkdir.

Lakin deyilənlər romantik inqilabi şüarlardan o yana getmədi. Yalnız, bir şey baş verdi ki, o da hakimiyyətin tamamilə ruhanilərin əlində cəmləşməsi. Hazırda ən böyük ruhani isə odur – ali dini rəhbər Əli Xameneyi. Yəqin, təxmin etdiniz ki, restoran sahibi Kərim Allahın yer üzünə göndərdiyi adam sarkazmını kimə ünvanlamışdı.

### Dövlət içində dövlət

Bəli, İranda dəyişən heç nə olmadı. Diqqət yetirək, ölkədə mövcud olan hüquq sistemi hələ də 1979-cu ildən əvvəl qəbul edilmiş dünyəvi məcəllələrə əsaslanır. Bu məcəllələr isə başlıca olaraq Fransa qanunvericiliyinə söykənir. Amma İslam inqilabından sonra İranın idarəçiliyində dəyişikliklər çoxdur. Bu baxımdan SEPAH, yəni İran İslam İnqilabı Keşikçiləri Korpusunu göstərmək mümkündür. Qurum dünyanın dörd bir yanında qətllər, adam oğurluqları və digər bu kimi əməllər törətməkdə ad çıxarıb. İslam inqilabını qorumaq düşüncəsi budurmu?..

Bir halda ki, ölkə hər şeyi Fransadan götürür, görünür ki, 1979-cu ildə hakimiyyətə gəlmiş mollalar şah rejimindəki kursu dəyişməyiblər. SEPAH da təxminən Fransa tarixindəki yakobinlərə bənzəyir. Nəzərə alaq ki, XVIII əsrin sonlarına doğru mövcud olmuş Yakobin diktaturası inqilabı kütləvi terrorlar gerçəkləşdirməklə qoruyurdu. Çox güman, bu diktaturanın ömrü uzun olsaydı, indi Fransanın da SEPAH-ı olardı. Hərçənd, ölkəyə belə bir struktur lazım deyil, onsuz da öz məkrini açıq-aşkar reallaşdırır. Sırf gizli fəaliyyətə ehtiyac duymur...

Əlqərəz, İran hakimiyyətində SEPAH çox geniş səlahiyyətlərə malikdir. Qurum ordunun, milli qvardiyanın funksiyalarını yerinə yetirir, ölkə daxilində müxalif fikirlərə, dissident hərəkatına və etirazçılara qarşı mübarizə aparır. Korpusun xaricdə də xüsusi əməliyyatlar keçirmək ixtiyarı var, həmçinin, özünü kəşfiyyat strukturlarına malikdir.

Bundan əlavə, fövqəladə hallarda korpusun komandanlığı Daxili İşlər Nazirliyinə tabe olan Hüquq-mühafizə qüvvələrinə (SOP) nəzarəti həyata keçirir. Eyni zamanda, xalq polisi, ideoloji rupor, əhalini ilkin hərbi təlimlərə öyrədən struktur və onlarla işləmək üçün təşkilat rolunu oynayan Bəsic müqavimət qüvvələri də SEPAH-ın hərbi rəhbərliyinin sərəncamındadır.

Maraqlıdır ki, "İnqilab keşikçiləri" ilə ordu arasındakı mühüm fərq birincinin üzvlərinin İranın iqtisadi və siyasi həyatında fəal iştirak edə bilmələridir. Korpusun İslam sistemini daxili və xarici təhdidlərdən qorumaq üçün yaradılmış hərbi təşkilatdan, ölkənin siyasi və iqtisadi həyatında mühüm oyunçuya çevrilməsinə bir sıra amillər şərait yaradıb.

Əvvəla, İran-İraq müharibəsi illərində (1980-1988) SEPAH-ın mühəndis bölmələri mühüm təcrübə topladılar ki, bu təcrübədən İran hakimiyyəti sülh dövründə iqtisadiyyatın yenidən qurulması və bərpası üçün yararlandı. Hazırda qurumun tikinti bölmələri əsasında yaradılmış "Xatəm-ül-Ənbiya" korporasiyası İranın iqtisadi infrastrukturunda da fəal iştirakçıdır. Nəticə etibarilə bütün bunlar SEPAH-la əlaqəli insanların ölkə iqtisadiyyatında da fəal mövcudluğu deməkdir.

Ehtimal edilir ki, "mühafizəçilərin" İran iqtisadiyyatına nüfuz etməsi 1989–1990-cı illərdə onların rəhbərliyi ilə ölkənin o vaxtkı prezidenti Əli Əkbər Haşimi-Rəfsəncani arasındakı sövdələşmənin nəticəsidir.

Nəzərə alaq ki, həmin sövdələşmə korpus zabitlərinə mühüm üstünlüklər qazandırmışdı. Rəfsəncaninin buna SEPAH-ın ölkənin siyasi həyatına müdaxilə etmək istəklərini cilovlamaq müqabilində getdiyi bildirilir. Çünki 1989-cu ilə qədər korpus siyasi təmizləmə və repressiyalar üçün güclü alətə çevrilmişdi. Rəfsəncani isə hər halda, SEPAH-ın özbaşınalığını görüb və istəyib ki, onu maliyyə müqabilində idarəçilikdən uzaqlaşdırsın. Ancaq prezidentin buna böyük ölçüdə müvəffəq ola bilmədiyi aşkardır. Çünki hazırda "İnqilab keşikçiləri", sanki, dövlət içində dövlətdir.

### Diktaturada fərqli məzmun

Bəzən İranın klassik diktatura olmasına dair fikirlər dolaşmaqdadır. Ancaq bu fikirləri bölüşməyənlər də var. İkincilərin arqumenti budur ki, ölkədə hakimiyyətin zirvəsində ömürlük seçilmiş ali liderin olmasına baxmayaraq, bu şəxsi diktator hesab etmək düzgün deyil. Çünki o, hakimiyyətin bütün qolları ilə əsas elit qruplar arasında tarazlığı saxlamağa, onların iş prosesinə, yalnız lazım gəldikdə müdaxilə etməyə borclu olan hakim funksiyasını yerinə yetirir.

1989-cu ildə ilk ali dini lider İmam Rohullah Xomeyninin vəfatından sonra İranın ən yüksək qüdrətli şəxsi, bir qayda olaraq, qanunvericilik təşəbbüsü göstərmir. Üstəlik, ali rəhbər vəzifəsi ömürlük də olsa, formal şəkildə hesabatlıdır. Hərçənd, bu vəzifəni tutan şəxsin hesabat verməsi görünməyib.

İranda seçki formal deyil. Ancaq proses bir sıra əsas parametrlər üzrə dövlət seçimindən keçən namizədlərlə məhdudlaşır. Yəni, namizədlər, belə demək mümkünsə, süzgəcdən süzülmüş şəxslər olur. Başlıca parametr isə İslam quruluşunun ideyalarına və ölkənin ali rəhbərliyinə sadiqlikdir. Mexanizm elə formalaşıb ki, xalqın seçdiyi insanlar rejimin qorunub saxlanması ideyasını şübhə altına ala bilməzlər. Lakin onların iqtisadi, sosial və xarici siyasət məsələlərində fərqli baxışları ola bilər ki, bu amillər dövlətin dünyəvi sisteminin "donmasına" və tamamilə teokratlaşmağa imkan vermir. Hərçənd, son sözü restoran sahibi Kərimin təbirincə desək, Allahın göndərdiyi adam deyirsə, oturuşmuş sistem təəssüratı yaradan həngaməyə əsas yoxmuş kimi görünür. Amma var, axı rejim saxtakarlığı sevir...

### İran və nüvə silahı

İran həqiqətənmi nüvə silahı hazırlayır? Sualın dəqiq cavabı yoxdur. Hərçənd, bununla bağlı ehtimallar var. Çünki ölkənin kütləvi qırğın silahları hazırlamaq planları olmuşdu. Lakin 2000-ci illərin ortalarına qədər bu planlardan imtina edilmiş və ya onlar dondurulmuşdu.

Hazırda İranın nüvə proqramının hərbi komponenti və Tehranın onun həyata keçirilməsində nə qədər irəliləyə gedə bildiyi ilə bağlı suallar cavabsızdır. Ölkə rəsmiləri bununla əlaqədar beynəlxalq ictimaiyyət qarşısında cavab verməyə tələsmir. Ancaq İslam respublikasının fəal şəkildə inkişaf edən raket və kosmik proqramları narahatlıq doğurur. İranda ballistik raketlərin dəqiqliyinin deyil, onlardan istifadə radiusunun artırılmasına diqqət yetirilir. Belə bir nəticə hasil olur ki, silahların effektivliyini onlara yalnız nüvə yükünün verilməsi ilə gücləndirmək mümkündür. Əlbəttə, bu, çox təhlükəlidir.

Daha bir sual yaranır. Tehran rejimi 2015-ci ildə özünün, Rusiyanın, ABŞ-ın, Böyük Britaniyanın, Fransanın, Çinin və Almaniyanın imzaladığı nüvə sazişi (JCPOA) çərçivəsində götürdüyü öhdəliklərə əməl edirmi? Nəzərə alaq ki, bu saziş İranın nüvə proqramının inkişafını məhdudlaşdırır və onu beynəlxalq ictimaiyyətin nəzarəti altına verir. Qeyd edək ki, 2006-2012-ci illərin sanksiyaları İranın danışıqlar masası arxasına əyləşməsində, JCPOA-nı imzalamasında mühüm rol oynamışdı. Sanksiyalar İran iqtisadiyyatını xeyli zəiflətmişdi. Bəs indi?

2023-cü ilin fevralında bildirildi ki, İran nüvə silahı hazırlamağa çox yaxındır. Bununla bağlı "Blomberg" Agentliyinin iki yüksək vəzifəli diplomata istinadən yaydığı məlumatda deyilirdi ki, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (MAQATE) müfəttişləri İranda nüvə silahı hazırlamaq üçün 84 faiz zənginləşdirilmiş uran aşkar ediblər.

Bundan öncə – 2022-ci ilin payızında İsrailin Müdafiə naziri Benni Qantz vurğulamışdı ki, İran nüvə silahı əldə etmək üçün nəinki imkanlar və infrastruktur, həm də bilik əldə edib. "Hesab edirik ki, İran bunu etmək istəsə, bir neçə həftə ərzində üç əhəmiyyətli miqdarda (nüvə materialı – red) və ya 90%-ə qədər zənginləşdirilmiş nüvə silahı üçün kifayət qədər parçalanan material əldə edə bilər" – deyən İsrailin Müdafiə nazirinin sölərinə görə, İranın nüvə silahına sahiblənməsi təkcə Yaxın Şərq deyil, bütün dünya üçün ciddi nəticələrə səbəb olacaq. B.Qantzın fikrincə, bu, Tehrana terrorçuluğun ixracı cəhdlərini reallaşdırmağa imkan yaradacaq. Söhbət terrorçuluqdan düşürsə, yenidən SEPAH-a qayıdaq. Əlbəttə, bilavasitə İran terrorunun özünə də nəzər salaq.

### İran və terror

İranın İŞİD-lə və digər radikal dini qruplaşmalarla qarşılıqlı əlaqəsinin olduğuna dair suallara sadə cavab yoxdur. Həm də ona görə ki, ölkə bir qədər əvvəl haqqında söz açdığımız SEPAH-ın timsalında ayrıca, belə demək mümkünsə, terror maşını kimi çıxış etməkdədir. Hərçənd, 1990-cı illərdə Tehran rejiminin Əl-Qaidə, habelə o zamankı Əl-Qaidə lideri Ayman əl-Zəvahirinin rəhbərlik etdiyi Misir İslami Cihadı ilə əlaqələri olub. 2000-ci illərdə İran Talibanın səhra komandirləri ilə fəal təmasda idi, baxmayaraq ki, Talibanı rəsmən düşmən hesab etdiyini açıqlamışdı.

Bundan başqa terrorçu Ben Ladenin gizləndiyi yerdən tapılan sənədlərin dərcindən sonra, amerikalı ekspertlər İranla "Əl-Qaidə" arasında əlaqələrin o qədər də yaxın olmadığını etiraf etsələr də, situativ-taktiki əməkdaşlığın mövcudluğunu önə çəkirlər. Belə ki, 2007-ci ildəki məktubunda Üsamə bin Laden "İran Əl-Qaidə üçün əsas arteriya idi" yazırdı. 2014-cü ildə isə İŞİD-in sözçüsü, xarici əməliyyatlar xidmətinin rəhbəri Əbu Məhəmməd əl-Adnani (hazırda məhv edilmiş) Əl-Qaidə lideri əl-Zəvahiriyə göndərdiyi mesajda onu İrana hücumdan çəkinməyə çağırır və bu tələbin yerinə yetiriləcəyi təqdirdə Tehranın Əl-Qaidəyə əvəzsiz borcunun yaranacağını vurğulayırdı.

Ümumən, onu da demək lazımdır ki, İran rejimi normal münasibətlər baxımından, demək olar, heç bir müsəlman dövləti ilə yaxın olmadığı kimi, terror fəaliyyəti nöqteyi-nəzərdən də hansısa qurumla tam ciddi yaxınlığa malik deyil. Buna ehtiyac duymur. Çünki özünün müstəqil terror sistemi var.

### Tehran niyə yola getmir?

Bəli, İranın normal, səmimi münasibətlərdə olduğu ölkələrin, xüsusən də müsəlman ölkələrinin sayı çox azdır. Lakin Tehranın beynəlxalq miqyaslı ədavətindən söz düşərkən, yada ilk növbədə İsrail, daha sonra Səudiyyə Ərəbistanı düşür. Əvvəlcə İsraillə bağlı məqamlara diqqət yetirək.

Sual olunur: İran və İsrail niyə bir-birinə bu qədər nifrət edirlər? Məlumdur ki, anti-İsrail mövqe Tehranın xarici siyasətinin və ideoloji doktrinasının təməl daşlarındandır. Bunun bəzi səbəbləri var. Birincisi, hazırkı molla rejimindən əvvəlki şah hakimiyyəti Təl-Əvivlə çox yaxşı əlaqələrdə idi və hazırkı anti-İsrail xətti şah hökumətinin xarici siyasət yanaşmalarının rədd təmayülü kimi meydana çıxdı. İkincisi, Tehran müsəlman icmasının maraqlarının müdafiəçisi imicini yaratmalı idi. Buna görə isə İsraili Fələstin məsələsinə görə fəal şəkildə tənqid etmək vacib sayılırdı.

Əlbəttə, İranın hazırkı hakimiyyəti üçün anti-Amerika xətti də var. Bu xətt İsraili ABŞ-ın Yaxın Şərqdəki forpostu olaraq qəbul etmə ritorikasına əsaslanır. Nəticə etibarı ilə Tehranın anti-İsrail hərəkətlərinin güclənməsi çox vaxt İran-Amerika münasibətlərinin növbəti kəskinləşməsi ilə üst-üstə düşür.

Daha bir məqam da var ki, bu, ideoloji motivlərə əsaslanır. İran rejimi özünün mövcudiyyəti üçün mütləq xarici düşmənə ehtiyac duyur. Hesab edilir ki, belə bir düşmənin olması əhalinin diqqətini daxili problemlərdən fəal şəkildə xarici çağırışlara yönəldəcək. Hər halda, İran rəhbərliyi belə düşünür. Çünki səhvlərini bu yolla sığortalayır. Əlbəttə, buna sığortalamaq demək mümkün deyil. Saxtalıq sığortalanmır, yalnız ört-basdır edilir, o da müəyyən müddətə…

Onu da demək lazımdır ki, İranda həmişə ideologiya ilə reallıq arasında fərq qoyulub. Yuxarıda qeyd etdiyimiz səbəblərə görə İran İslam Respublikasının rəhbərliyi anti-İsrail ritorikasından əl çəkə bilməz. Ancaq o, çətin ki, yəhudi dövləti ilə açıq qarşıdurmaya getsin. Digər tərəfdən, Tehran və onun Yaxın Şərqdəki siyasəti İsrail üçün problemdir, lakin ekzistensiallıq anlayışından uzaqdır.

Səudiyyə Ərəbistanına gəldikdə, İranın bu dövlətlə ziddiyyətləri ondan qaynaqlanır ki, birinci ikincini Körfəz ölkələrinin və bütün regionun sabitliyinə təhlükə görür. Çünki Tehran rejimi regional liderliyə iddialıdır. Buna görə Səudiyyənin Yaxın Şərqdəki mövqelərindən sıxışdırmağa çalışır.

### Kərimin təsəvvüründəki İran

Sonda bir daha restoran sahibi Kərimlə söhbətimizə qayıdaq. O, İran türkü idi. Özü də əslən Ərdəbildən. Restoranı Tehranda yerləşirdi. O zaman bizə elə gəlmişdi ki, adamın kiçik restoranı dünyanın ən hündür yerindədir və Kərim həmin zirvədən ətrafı və hamını gözəl görür. Çünki dünyadakı proseslərə bələdçiliyi vardı. Ən əsası isə maraqlı əsaslandırmalar aparır və proqnozlar verirdi.

Əsl Azərbaycan sevdalısı Kərimin fikirlərindən biri bu idi ki, İslam inqilabı ilə İranda hakimiyyətə gəlmiş mollalar, ən azı, keçmiş SSRİ-nin rəhbərliyi qədər saxtadır və saxtalıq onu məhvə aparacaqdır.

Həmin vaxt Kərimə İran hakimiyyətinin niyə səmimi ola bilməməsi ilə bağlı sual ünvanladıq. Cavabı bu oldu ki, rejimin səmimi davranışı məhvə məhkumluqdur. Maraqlı müqayisə apardı və dedi: təsəvvür edin, hündür mərtəbəli bina tikilib və onun tikintisində beton yerinə qum tərkibli daşa bənzər materiallardan istifadə edilib. Siz bunu bilirsiniz və istəyirsiniz ki, həmin materiallardan birini çıxarıb yerinə daş qoyasınız. Materialı çıxardığınız an bina uçacaq. Kərimin təsəvvüründəki İran bax belə idi.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# Dünya anti-İran aksiyaları ilə çalxalanır

**İranda mövcud fars-molla diktaturası, kütləvi hüquqsuzluq və anti-demokratiya bütün dünyada rəsmi Tehran əleyhinə aksiyalara səbəb olmaqdadır. İran hakimiyyətinin anti-insani mahiyyətini bütün dünyada ifşa edən aksiyaçılar, beynəlxalq təşkilatları və demokratik ölkələri Tehran rejiminə təzyiq göstərməyə səsləyir.**



Qeyd edək ki, Tehran rejimi ilə bağlı narazılıqlar əsasən iki amildən qaynaqlanır. Bunlardan birincisi molla rejiminin İranda – öz tarixi torpaqlarında yaşayan on milyonlarla azərbaycanlıya qarşı düşmən siyasəti yürütməsi, onları sıxışdırması ilə bağlıdır.

Narazılığa səbəb olan ikinci faktor isə İran hakimiyyətinin bütün xalqa, o cümlədən hakimiyyətin özünə sosial baza hesab etdiyi farslara qarşı amansız münasibəti, qorxunc idarəetmə sistemidir. İran hakimiyyətinin "özgə" hesab etdiyi xalqlarla yanaşı, "özününkü" saydığı da despotik idarəetmə sisteminin əsirinə çevirməkdədir. Bu isə onu göstərir ki, demokratiyaya, insan hüquq və azadlıqlarına düşmən olan hakimiyyətlər üçün, əslində, "özününkü" və "özgəninki" anlayışları bir o qədər də fərqlənmir. Bu cür hakimiyyətlər öz ömürlərini uzatmaq üçün etnik kimliyindən asılı olmayaraq, istənilən xalqa qarşı ən ağır cinayətə hazır olurlar.

"Ağ ev" qarşısında "Ədalət!" və "Azadlıq!" tələbi

İrandakı molla rejiminə qarşı etirazlar son bir neçə aydır ki, genişlənməkdə, dünyanın uzaq-yaxın bir çox ölkəsini əhatə etməkdədir. İran hakimiyyəti əleyhinə mütəmadi aksiyaların keçirildiyi ölkələrdən biri ABŞ-dır. Xatırladaq ki, hələ ötən ilin dekabr ayında bu ölkədə İran, Azərbaycan və Türkiyədən olan bir qrip şəxs etiraz aksiyası keçirib, Tehranı öz xalqına qarşı ədalətli davranmağa səsləyib. Aksiyada "Milli Hökumət", "Güney Azərbaycan İran deyil!" kimi şüarlar da səslənib ki, bu da İrandakı on milyonlarla soydaşımızın Tehranın zülmü ilə barışmaq istəmədiyini, öz milli müqəddəratı haqqında düşündüyünü göstərir.

2023-cü ilin əvvəllərində də ABŞ-da İran əleyhinə bir sıra aksiyalar keçirilib, Tehran rejiminin anti-insani mahiyyəti lənətlənib. Aksiyaçılar İran hakimiyyətinin dinc insanlara qarşı sərgilədikləri çoxsaylı cinayətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Onlar Tehran rejiminin xalqa qarşı yol verdiyi cinayətlərə görə cəzalandırılmasının vacibliyini bildiriblər.

### Brüsseldə Tehrana qarşı "daha çox sanksiya" tələbi

İran əleyhinə daha bir etiraz aksiyası cari ilin 23 mart tarixində Belçikanın paytaxtı Brüssel şəhərində baş tutub. İranlılardan ibarət olan etirazçılar Avropa Şurasının iclası ilə eyni vaxtda aksiya keçirərək Tehran rejiminə qarşı sanksiyaların genişləndirilməsini tələb ediblər. Onlar İran məsələsinin Avropa Şurasında müzakirəyə çıxarılmasının, Tehran hakimiyyətinə qarşı sərt addımların atılmasının vacibliyinə diqqət çəkiblər.

Etirazçılar İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) ilə bağlı da şüarlar səsləndiriblər. Onlar SEPAH-ın bütün dünyada terror təşkilatı kimi tanınmasını və bunun üçün kifayət qədər faktın mövcud olduğunu söyləyiblər.

Aksiyada Tehran rejimi tərəfindən qətlə yetirilən etirazçıların şəkilləri də nümayiş olunub.

### "Rədd olsun diktatura!"

İran əleyhinə aksiyaların mütəmadi şəkildə keçirildiyi ölkələrədn biri də Almaniyadır. 17 fevral 2023-cü il tarixində Almaniyanın Münxen şəhərində yüzlərlə insanın iştirakı ilə yürüş-aksiya keçirilib. "Rədd olsun diktatura!" şüarı ilə keçirilən aksiyada etirazçılar İrandakı mürtəce rejimin vəhşiliklərinə diqqət çəkib, bütün dünyanı baş verənlərə biganə qalmamağa səsləyiblər.

Aksiyada "Diktatora ölüm!", "Xamneyiyə ölüm!", "Qadınlara azadlıq!" şüarları da səslənib ki, bu da xalqın Tehran rejiminə olan nifrətinin böyüklüyünü göstərir.

Qeyd edək ki, Fransa, Avstriya və digər Avropa ölkələrində də İran əleyhinə aksiyalar getdikdə artmaqdadır. Bu isə Tehran rejiminə olan ümumdünya nifrətini, bəşəri ikrahı göstərir. Şübhəsiz ki, rəsmi Tehran gec-tez öz "zəhməti" ilə yetişdirdiyi bu nifrətin zəhərli meyvəsini dadacaqdır.

***Seymur ƏLİYEV***

# Milli Məclisdə İran parlamentinin əsassız iddiaları rədd edildi



**Aprelin 7-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi. Gündəliyə 20 məsələ daxil edildiyini bildirən parlamentin sədri birinci məsələnin Milli Məclisin bəyanatı olduğunu diqqətə çatdırdı. O, aprelin 5-də İran parlamentində Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil olunması, saxta və uydurma ittihamlar üzərində qurulan bir bəyanat qəbul edilməsi barədə məlumat verdi. S. Qafarova təəssüflə bildirdi ki, Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış, xalqımızın əsrlər boyu yaratdığı sərvətləri vəhşicəsinə talan etmiş Ermənistana bir dəfə də etiraz etməyən, hətta ona müxtəlif vasitələrlə dəstək verən İran bu gün Azərbaycanın İsrail Dövlətində Səfirliyinin açılmasından narahat olur.**

Sədr dedi ki, Azərbaycan müstəqil dövlətdir və hansı ölkə ilə necə münasibətlər qurması onun öz daxili işidir: "Azərbaycanın suveren hüquqlarına qarışmağa heç kəsin ixtiyarı yoxdur. Biz İran parlamenti tərəfindən ölkəmizə qarşı irəli sürülmüş əsassız ittihamları qətiyyətlə rədd edirik. İran parlamentini Azərbaycana qarşı bu cür təxribatlara son qoymağa və ikitərəfli münasibətlərə xələl gətirə bilən hərəkətlərdən çəkinməyə çağırırıq".

Parlamentin sədri bildirdi ki, bu gün bəzi ölkələrdə müəyyən qüvvələr Azərbaycan torpaqlarının düşmən tapdağından azad edilməsi, tarixi ədalətin bərpa olunması ilə heç cür barışa bilmirlər. Onlar ölkəmizə böhtanlar atır, bölgədə münaqişəni yenidən alovlandırmağa, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaradılması səylərini pozmağa çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri həmin qüvvələrə ən yaxşı cavabdır: "Erməni havadarları, Ermənistanın işğalçılıq siyasətinə şərik olan ölkələr bizə qarşı informasiya müharibəsi elan ediblər... Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir".

Sonra deputatlar İran parlamentinin əsassız iddiaları barədə fikirlərini bildirdilər. Qeyd edildi ki, İran açıq şəkildə İslam dünyasına xəyanət edir. Azərbaycanın İsraildə və ya hər hansı bir ölkədə səfirlik açması daxili işidir. Bugünədək bir neçə müsəlman ölkəsi İsraildə səfirlik açıb. Görəsən, Azərbaycanın İsraildə səfirlik açması İranı niyə özündən çıxarır?! Bu da azmış kimi, ölkəmizə qarşı təhdid, şantaj xarakterli bəyanat yayır. Utanmaz kimi bəyanatda qeyd edirlər ki, guya, Azərbaycan hökuməti İslam dünyasının tələblərinə zidd hərəkət edərək Qüdsdə səfirlik açıb. Məgər İranın açdığı səfirliklər İslam dünyasına zidd deyil? İran Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı susdu. Azərbaycan öz əzəli torpaqlarını işğaldan azad edəndən sonra maska cırıldı.

Deputatlar Azərbaycan Respublikasının İsrail Dövlətində Səfirliyinin açılması ilə bağlı İran İslam Respublikası parlamentinin aprelin 5-də bəyanat qəbul etməsini Azərbaycan dövlətinin daxili işlərinə müdaxilə cəhdi kimi qiymətləndirdilər. Azərbaycan Respublikasının suverenliyinə və müstəqilliyinə açıq hörmətsizliyin ifadəsi olan bu bəyanat İran tərəfinin ölkəmizə qarşı həyata keçirdiyi növbəti siyasi təxribatı hesab edildi.

Milli Məclis İran parlamentinin Azərbaycana qarşı qərəzli, saxta və yalan sənədi ilə bağlı bəyanat qəbul etdi.

Sonra S.Qafarova gündəlikdəki digər məsələni – "Heydər Əliyevin 100 illiyi (1923–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar " Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim etdi.

Milli Məclis sədrinin müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi barədə məlumat verdi. Qeyd etdi ki, birinci oxunuşda deputatlar çıxış edərək qanun layihəsinin vacibliyini qeyd ediblər. Qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq qəbul edildi.

S.Qafarova gündəlikdəki digər məsələləri də təqdim etdikdən sonra deputatlar rəy və təkliflərini bildirdilər. Sonra qanun layihələri səsə qoyularaq qəbul edildi.

Bununla da Milli Məclisin iclası başa çatdı.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Milli Məclisdə İran parlamentinə cavab bəyanatı qəbul edildi

**Milli Məclis İran parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qərəzli sənədlə bağlı bəyanat layihəsini hazırlayıb. Bəyanat parlamentin aprelin 7-də keçirilən plenar iclasında qəbul edilib. AZƏRTAC bəyanatı təqdim edir.**



Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılması ilə bağlı İran İslam Respublikası parlamentinin aprelin 5-də bəyanat qəbul etməsini Azərbaycan dövlətinin daxili işlərinə müdaxilə cəhdi kimi qiymətləndirir. Azərbaycan Respublikasının suverenliyinə və müstəqilliyinə açıq hörmətsizliyin ifadəsi olan bu bəyanat İran tərəfinin ölkəmizə qarşı həyata keçirdiyi növbəti siyasi təxribatdır.

Təəssüf ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanmasına, şəhər və kəndlərimizin viran qoyulmasına, milli sərvətlərimizin talan edilməsinə, tarix, mədəniyyət və din abidələrimizin, o cümlədən məscidlərimizin dağıdılmasına göz yuman, hətta təcavüzkara bir çox əməllərində dəstək verən İran İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımız düşmən əsarətindən azad edildikdən sonra Azərbaycana qarşı açıq fəaliyyətə keçmişdir. Belə görünür ki, İran silahlı qüvvələrinin Azərbaycan sərhədləri yaxınlığında müntəzəm hərbi təlimlər keçirməsi, Tehrandakı Azərbaycanın səfirliyinə qarşı terror aktı törədilməsi, on minlərcə azərbaycanlının zorla qovulduğu Ermənistanın Qafan şəhərində İran konsulluğunun açılması, Təbrizdə Ermənistanın baş konsulluğunun açılmasına razılıq verilməsi, Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə mane olmaq cəhdləri və digər bəd niyyətli hərəkətlər eyni bir zəncirin həlqələridir. Xüsusən, İranda Azərbaycan dövləti əleyhinə aparılan təhdid, böhtan və qarayaxma kampaniyasının son dövrdə geniş vüsət alması, İran xüsusi xidmət orqanlarının ölkəmizdə yaratdıqları casus şəbəkəsinin ifşa edilməsi, Azərbaycanda yalan təbliğatla aldadılmış insanların radikal dini ideyalar ətrafında birləşdirilməsi cəhdləri ciddi narahatlıq doğurur.

Azərbaycan Milli Məclisi bildirir ki, ölkəmizin İsrail Dövlətində Səfirliyinin açılması müstəqil dövlət kimi onun suveren hüququdur və bununla əlaqədar Azərbaycana qarşı irəli sürülən əsassız ittihamlar qəbuledilməzdir. Qeyd olunmalıdır ki, İsraildə Türkiyə, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Bosniya və Herseqovina, Albaniya, Misir, İordaniya, Qazaxıstan, Özbəkistan, Mərakeş, Nigeriya, Çad, Kot-d'İvuar kimi müsəlman ölkələrinin diplomatik nümayəndəlikləri fəaliyyət göstərir. Bu ölkələrin heç biri İranın Azərbaycana qarşı göstərdiyi qeyri-adekvat, qərəzli və radikal münasibətin şahidi olmayıb.

Azərbaycan xarici siyasət kursuna uyğun olaraq, Fələstin dövlətində də Nümayəndəliyini açıb. Bu, iki ölkə və xalq arasında möhkəm dostluq və qardaşlıq münasibətlərinin təzahürüdür və bu münasibətlərə hər hansı üçüncü tərəfin, o cümlədən İranın müdaxilə etməsi yolverilməzdir. Azərbaycanla Fələstin arasında münasibətlər həmişə yüksələn xətlə inkişaf edib. Azərbaycan Fələstin məsələsi ilə bağlı daim həmrəylik göstərib, BMT-nin müvafiq qətnamə və qərarlarına müvafiq surətdə İsrail–Fələstin münaqişəsinin iki dövlət prinsipi əsasında həllini davamlı olaraq dəstəkləyib və bu mövqeyini Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirib.

Şərh edilənlər özünü müsəlmanların müdafiəçisi və hamisi kimi qələmə verən İranın, əslində, ikiüzlü siyasət yeritdiyini və məkrli siyasi maraqlarını təmin etmək üçün hər bir vasitədən istifadə etməyə hazır olduğunu göstərir. Milli Məclis İran tərəfinin Azərbaycana qarşı müntəzəm xarakter alan təxribat əməllərini qətiyyətlə pisləyir və rədd edir, ölkəmizi hədəf alan qərəzli fəaliyyətdən əl çəkməsini tələb edir.

## Məxsusi "Xalq qəzeti" üçün

**Xəbər saytları və informasiya agentlikləri bu günlər belə bir məlumatı yaydılar ki, İran İslam Cümhuriyyətindən Azərbaycan Respublikasına ticarət məqsədilə gətirilmiş 24 ton kartof qəbul edilmiş qaydalar üzrə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən laboratoriya analizindən keçirilərkən bu məhsulu istifadə üçün yararsız edən biopatagen bakteriyalar aşkarlanıb. Bu, kartofun qonur çürüməsi deməkdir.**

# ÖZ YOLUMUZ

*Rafael HÜSEYNOV,*
*Milli Məclisin deputatı,*
*akademik*



Biz heç vəchlə istəməzdik ki, yaxın qonşumuz olan İrandan Azərbaycan Respublikasına gələn nə hansısa məhsulda, nə hansısa münasibətdə, nə də hansısa siyasətdə ölkəmizin və xalqımızın təhlükəsizliyi qeydinə qalan heç bir qurum heç vaxt zərərli və zəhərli bakteriyalarla rastlaşmasın, hansısa çürüklüyə şahid olmasın. Ancaq çox acınacaqlıdır ki, bizə yönələn zərərli bakteriyaları da, cürbəcür çürüklükləri də yalnız kartofda yox, münasibətlərin və siyasətin çox istiqamətlərində də əyani şəkildə görürük.

Ən dərin təəssüf hissi doğuran da budur ki, qarşı tərəf bunu nümayişkaranə edir və sanki, marağındadır ki, belə naxoş – bu sözün həm xoşa gəlməyən, həm də xəstə, məriz mənasında – təmayülləri biz tez-tez müşahidə edək.

Bizim – Azərbaycan Respublikasının, azərbaycanlıların İrana münasibətimiz həmişə məxsusi olub. Bunun bütün başqa səbəblərindən savayı, mühüm bir əsası da var. Bu da ondan ibarətdir ki, İran əhalisinin tən yarısı azərbaycanlılardan ibarətdir və azərbaycanlılar İranda milli çoxluqdur.

Ona görə də İran tərəfdən Azərbaycan Respublikasına qarşı istənilən yolverilməz addım atılarkən unudulmamalıdır ki, bu, ilk növbədə, İranın özünün ali dövlət maraqlarına ziddir və belə ziyankar hərəkətlərə rəvac verənlər, ən əvvəl, İran dövlətçiliyinə qarşı qəsd edirlər.

İranın bugünkü çöhrəsinin başlıca müəlliflərindən olan imam Xomeyni həm də şair idi və sözün peşəkar anlamında, yaxşı şair idi və onun məşhur qəzəllərindən biri bu mətlə ilə başlanır:

*Ma ze delbəstəgi-ye heyleqəran bixəbərim,*
*Əz pərişani-ye sahebnəzəran bixəbərim.*

*Hiyləgərlər bu cahanda nə sevir, bixəbərik,*
*Müstəqil fikri olanlar nə çəkir? – Bixəbərik.*

Biz, Azərbaycan, əksinə, hiyləgərlərin, məkri özünə adət edənlərin nələri istədiyindən, sətəlcəmli düşüncələrindən nələr keçdiyindən bixəbər yox, yaxşı xəbərdarıq.

Biz, Azərbaycan, müstəqil fikri olan, müstəqil siyasət aparan bir dövlət kimi bu xətti tutub gedənlərin nələr çəkdiyindən, yandan-yörədən hansı çirkin həmlələrə məruz qaldığından da yaxşı agahıq.

Biz heç istəməzdik ki, İranın da səsi o zümrədən olanların sırasından gəlsin. Biz istəməzdik, ancaq neyləməli ki, gəlir!

İran Milli Məclisinin deputatları – 210 vəkil məhz İran vətəndaşlarının vəkili olduqlarını unudaraq, bizə vəkillik eləmək, bizə yol göstərmək, bizə nəyin doğru olduğunu, guya, öz aləmlərində başa salmaq xülyasına düşərək 2023-cü il aprelin 5-də rişxənd, kinayəli təbəssüm doğuran şit, çiy, bəsit bəyanat veriblər.

Azərbaycan Respublikası İranın özünə qan qardaşı hesab etdiyi Ermənistandan fərqli olaraq bəlli dövlətçilik siması, öz sabit xətti, öz müstəqil siyasəti olan cümhuriyyətdir. Və heç bir yekəxana iddia, heç bir hikkəli tərpəniş, heç bir təməlindən puç olan bəyanat-filan onu aydın məqsədindən, ölçülü-biçili hədəflərindən, doğru seçimlərindən yayındıra bilməz.

Azərbaycan bu gün və bütün gələcəkdə hansı ölkədə hansı təsisatını yaratmasını, hansı ölkələrlə münasibətlərini qurmasını, kimi dost, kimi tərəfdaş, kimi müttəfiq saymasını qıraqdan kiminsə him-cimi, iddiası, təşviqi ilə deyil, öz ali dövlət və millət maraqlarını nəzərə alaraq gerçəkləşdirəcəkdir.

İran İslam Cümhuriyyəti dünyada İslamın – müqəddəs dinimizin bayraqdarı, müsəlmanların hamisi olmaq niyyətini ortaya qoyur. Ancaq sözdə çox şey demək mümükündür, əməldəsə bunun əksini görməkdəyik axı!

2016-cı ildə Təbrizə səfərdəykən, rəsmi görüşdə hər kəsin qarşısında ayətullah Şəbüstəriyə söylədim ki, işğal altındakı Azərbaycan ərazilərində ermənilər pak məscidlərimizdə donuz saxlayırlar. Bizə göstərilməyən dəstəyi, düşmənimizlə iş birliyini qoyuram bir kənara, bəs Allah qarşısında cavabdehlik? Özünü İslamın bayraqdarı elan edənlərdən, İslam dünyası adından danışmaq cəsarətini üstünə götürənlərdən həmin təhqir olunmuş məscid Pərvərdigarın dərgahında haqqını tələb edəndə nə cavab verəcəksiniz? İmanla riya heç vaxt bir yerdə ola bilməz.

Azərbaycanın onlarca ölkədə onillərdir ki, diplomatik missiyaları fəaliyyətdədir. Elçi qapısı sülh qapısıdır. Ən yaxın qonşumuz olan İran tək ölkə oldu ki, orada sülh qapımız silahla, qanla döyüldü.

Məntiqi pozuq bəyanatlar imzalayan iranlı məclis vəkilləri vicdan məsələsi olan bu qəziyyə barədə, Tehrandakı Azərbaycan səfirliyində törədilmiş terroru düşünsünlər!

Azərbaycan Respublikasındakı diplomatik missiyasının təmsilçilərinin üzünə biz həmişə qapımızı qonaqpərvərliklə açmış, onları arzuolunan saymışıq. Lakin indi bəd əməlləri onların bir dəstəsini ölkədə arzuolunmaz şəxslərə çevirirsə, yaxın qonşumuz yaxınlığı addım-addım uzaqlığa çevirən belə dövlət səviyyəli qəbahətlərin fikrini çəksin!

Həzrət Əlinin müdrik kəlamı Azərbaycana, onun getdiyi yola çox yaraşır.

Buyurmuş ki, biz düz yolumuzu gedirik. Bizdən geridə qalanlar özünü bizə çatdıracaq. Bizdən irəlidə olanlar, bizi gözləyəcək. Çünki bizim yolumuz haqq yoludur.

Və hər kəs bilsin, eşitsin, yadda saxlasın!

Nəyi necə etmək, hansı addımı nə cür atmaq barədə Azərbaycana ağıl vermək həvəsinə düşənlər birdəfəlik anlamalıdır ki, Azərbaycan dövlətdir, onun sarsılmaz iradəsi var və Azərbaycan dövlətinin bizə ağıl vermək istəyənlərin hamısına ağıl verməyə qətiyyəti və yüksək zəkası çatan qüdrətli rəhbəri var.

# 4 min itkin soydaşımızın taleyinə aydınlıq gətirilməlidir

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ağdam rayonunun "Ergi düzü" adlanan ərazisində tapılan məzarlıqla əlaqədar beynəlxalq ictimaiyyətə müraciət edib. Ombudsman Aparatının mətbuat xidmətindən aldığımız müraciətin mətnində deyilir: "Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında həyata keçirilən geniş bərpa və quruculuq işləri əsnasında aparılan qazıntı və tikinti işləri zamanı erməni vandalizminin qurbanı olmuş insanların qətlə yetirilərək basdırıldığı kütləvi məzarlıqlar aşkar edilməkdədir.**

Ağdam rayonunun "Ergi düzü" adlanan ərazidə aparılan qazıntı işləri zaman insan skeletinə bənzər sümüklərin tapılması işğal müddətində Ermənistanın törətmiş olduğu müharibə cinayətlərinin növbəti izlərini aşkara çıxarır.

Belə ki, bundan əvvəl də işğaldan azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlarda aparılan araşdırmalar nəticəsində həmin qalıqların Birinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən əsir və girov götürülərək müxtəlif işgəncələrə məruz qaldıqdan sonra amansızcasına qətlə yetirilən azərbaycanlılara aid olduğuna dair çoxsaylı faktlar əldə edilib.

Dəfələrlə müraciət edilməsinə baxmayaraq, Ermənistan itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirmir, işarələnməmiş minaların və kütləvi məzarlıqların yerləşdiyi ərazilərin dəqiq xəritələrini Azərbaycan tərəfinə təqdim etmir və bununla da beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini kobud şəkildə pozur.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq bir daha dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistan tərəfindən itkin düşmüş azərbaycanlıların taleyinə aydınlıq gətirilməsi, işarələnməmiş minaların və kütləvi məzarlıqların dəqiq xəritələrinin ölkəmizə təhvil verilməsi ilə bağlı qətiyyətli mövqe nümayiş etdirməyə çağırıram".



*"Xalq qəzeti"*

# Ulu öndər və hüquqi dövlət quruculuğu



**Böyük qarma-qarışıqlıqlarla başlayan XX əsr özünün 90-cı illərinə ciddi hərbi-siyasi qarşıdurmalarla, milli-mənəvi böhranlarla gəlib çıxdı. Dünyanın bir çox xalqları kimi Azərbaycan xalqı da tarixin ən sərt sınaqlarından keçmək məcburiyyətində qaldı. Millətin və dövlətin suveren hüquqları, ölkənin ərazi bütövlüyü, vətəndaş qarşıdurması, xaos və özbaşınalıqla müşayiət edilən müxtəlif təhdidlər müstəqil Azərbaycan Respublikasının varlığını, dövlətçiliyimizin mövcudluğunu çətin suallar qarşısında qoydu. Belə mürəkkəb və qarışıq dövrdə xalqa liderlik və millətə öndərlik edən şəxsiyyətə böyük ehtiyac var idi. Düz yüz il bundan əvvəl Naxçıvanda dünyaya gələn və əsrin təlatümlərindən keçib bərkiyə-bərkiyə XX əsrin zirvəsinə gəlib çatan ulu öndər Heydər Əliyev millətin ümidinə, dövlətin dayağına, xalqın ehtiyacına çevrildi.**

Respublikada 1990-cı ilin Yanvar faciəsi yaşanılarkən Moskvanın düz mərkəzində təqiblərə və təzyiqlərə baxmayaraq böyük siyasi səhnədə milli lider kimi görünən Heydər Əliyev inanılmaz cəsarətlə imperiya siyasətinin əleyhinə çıxaraq Bakıda qanlı hadisə törədənləri ifşa etdi, SSRİ rəhbərliyini kəskin tənqid edərək, doğma xalqı ilə bir yerdə olduğunu nümayiş etdirdi. Dünya məhz, onun dilindən əsl həqiqətləri eşitdi. Hadisələr məhz, onun dilindən özünün ilk siyasi qiymətini aldı. Həmin çətin anlarda Moskvadan Naxçıvana gələn ulu öndər Heydər Əliyev blokada şəraitində mövcudluğunu az qala itirmək təhlükəsi qarşısında qalan muxtar respublikaya yeni həyat verdi. Azərbaycanın azadlıq bayrağı ilk dəfə olaraq Naxçıvandan dünyaya açıldı.

Hərbi-iqtisadi, mənəvi-siyasi böhran bütün ölkəni bürümüşdü, ərazilər parça-parça qoparılırdı. Azərbaycan dövlətçiliyinin dağılmaq ərəfəsində olduğu bir vaxtda Heydər Əliyev xalqın israrlı tələbi ilə Bakıya gəlib məkrli qüvvələrin rəvac verdiyi separatizmin və vətəndaş qarşıdurmalarının önünə keçdi. Xalqı parçalanmaqdan, dövləti dağılmaqdan xilas etdi. Bu, sözün əsl mənasında, xalqın qurtuluşu, dövlətçiliyin xilası idi. Elə o zaman ulu öndər müstəqil Azərbaycan dövlətinin əsas prioritetlərini bir vəzifə kimi qarşıya qoydu: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Cəmiyyət quruculuğunun əsas prinsipləri bəyan edildikdən sonra qarşıda ölkənin uzunmüddətli strategiyasının müəyyənləşdirilməsi dayanırdı. Heydər Əliyevin genişmiqyaslı yorulmaz beynəlxalq fəaliyyəti nəticəsində 1994-cü ilin sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə tarixi müqavilə imzalandı.

Artıq cəmiyyətin ictimai-siyasi hədəfləri bəlli idi, ölkənin uzunmüddətli iqtisadi strategiyası da beynəlxalq hüquqi müqavilə və sazişlərlə yaradılmışdı. Lakin demokratik cəmiyyət quruculuğunda Əsas qanunun hazırlanması, mükəmməl hüquq sisteminin və səmərəli məhkəmə hakimiyyətinin yaradılması ən vacib məsələlərdən biri kimi gündəlikdə dururdu. Hüquqi cəmiyyət quruculuğunda Konstitusiya əsas hüquqi baza idi. Ona görə də yeni Konstitusiya layihəsinin hazırlanması kimi cox ciddi və məsuliyyətli vəzifəni bilavasitə üzərinə götürən ulu öndər Heydər Əliyev xüsusi yaradılmış Konstitusiya komissiyasına şəxsən özü rəhbərlik etdi. O, "Konstitusiya yaratmaq üçün, şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma, eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik" kimi müdrik tezisləri irəli sürdü və bu istiqamətdə bütün problemləri öyrənərək, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını yaratdı. Beləliklə, ümummilli liderimizin müəllifliyi ilə 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə ilk Konstitusiya qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında demokratik hüquqi dövlətin bütün prinsipləri – qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Konstitusiyanın demək olar ki, üçdəbir hissəsi məhz bu məsələlərə aid idi.

Yeni Konstitusiyaya əsaslanaraq, mükəmməl hüquq sistemi formalaşdırmaq üçün ulu öndər qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutaraq Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparmağa başladı və bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaratdı. Yaradılmış bu komissiyaya da şəxsən özü rəhbərlik etdi. "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar və hüquq sisteminin mahiyyətini müəyyən edən əsas məcəllələrin layihələri hazırlanaraq nüfuzlu beynəlxalq qurumlarda ciddi ekspertizadan sonra qəbul edildi.

İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ümummilli liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə bu sahənin istiqamət və konsepsiyası müəyyən edildi, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırıldı.

Ulu öndərin insan hüquqları sahəsində atdığı ən mühüm addımlardan biri də, heç şübhəsiz ki, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulması, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növünün tamamilə ləğv edilməsi ulu öndər Heydər Əliyevin nə qədər humanist olduğunu və onun mənəvi böyüklüyünü bir daha təsdiqləyirdi.

Gərgin və yorulmaz fəaliyyəti ilə gələcək nəsillərə güclü bir hüquqi dövlət qoyan ulu öndərin siyasi və mənəvi irsi bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük inam və uğurla davam etdirilir. Qlobal transmilli layihələrlə beynəlxalq əməkdaşlığın yeni səhifələrini yazan Prezident İlham Əliyev praqmatik siyasəti ilə Azərbaycanı həyatın bütün sahələrində yeni inkişaf mərhələlərinə çıxartdı. Ümummilli liderin böyük uzaqgörənliklə "Bizim görə bilmədiyimiz işləri bizdən sonra gələn nəsillər həyata keçirəcək, mən buna inanıram" dediyi dahiyanə fikirlər müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Şuşaya, Laçına və işğal olunmuş bütün digər ərazilərimizə sancdığı bayraqlarla özünü təsdiqlədi.

Ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu və fondun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı humanitar layihələr isə min illik yaşı olan Azərbaycanın maddi və mənəvi irsinə sığal çəkərək qədim və zəngin tarixi mədəniyyətimizin bərpasında və dünyada tanıdılmasında müstəsna rol oynayır. Ulu öndər cismən dünyadan köçsə də onun mənəvi irsi bu gün də xalqa öz dəyərli töhfəsini verməkdə davam edir.

Ümummilli lider Heydər Əliyevin tarixi öndərlik dövrü ilə bağlı müxtəlif məqalələr, cild-cild kitablar yazılsa da, mükəmməl araşdırmalar aparılsa da bu böyük şəxsiyyət dövlətçilik tariximizdə özündən sonra elə bir irs qoymuşdur ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir.

***Hikmət EYVAZOV,***
***Polis Akademiyasının şöbə rəisi,***
***hüquq üzrə fəlsəfə doktoru, dosent***

# Baş prokuror Ağcabədidə qəbul keçirib

**Aprelin 7-si Baş prokuror Kamran Əliyev Ağcabədi Rayon Prokurorluğunun inzibati binasında Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Xocavənd və Laçın, həmçinin digər rayonlardan olan vətəndaşlarla görüşüb.**



Görüş zamanı 46 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən, konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı və digər problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

**Q.QASIMOV, "Xalq qəzeti"**

# Bakı Mühəndislik Universitetində "YENİ Klub" təsis olunub



**Bakı Mühəndislik Universitetində (BMU) "YENİ Klub"un təsis toplantısı keçirilib.**

Klubun gənclərin inkişafına təkan verəcəyinə, onların həyatında mühüm mərhələ açacağına ümidvar olduğunu söyləyən BMU-nun rektoru, professor Havar Məmmədov Klubun fəaliyyətinə uğurlar arzulayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında ölkənin ali təhsil müəssisələrində təsis olunan "YENİ Klub"ların fəaliyyətinə diqqət çəkib. Sədr bildirib ki, bu klublar tələbələrin iştirakı ilə ictimai-sosial, vətənpərvərlik, fərdi inkişaf, idman və bir sıra digər istiqamətlərdə müxtəlif təşəbbüslərin həyata keçirilməsində, çoxşaxəli layihələrin reallaşdırılmasında aktiv rol oynayacaq.

Daha sonra "YENİ Klub"un rəhbəri Adəm Babayev, koordinatorlar – Cavad Məmmədli, Rəvan Hacıyev, Aişə Məhərrəmova təqdimatlarla çıxış ediblər. Təqdimatlarda "YENİ Klub"un fəaliyyəti, məqsədləri, istiqamətləri, həyata keçiriləcək layihələr (yarışlar, müsabiqələr, təlimlər, xarici dillərdə tədbirlər) və s. haqqında ətraflı məlumat diqqətə çatdırılıb, digər ali təhsil müəssisələrinin nəzdindəki klublarla birgə fəaliyyətin əsas istiqamətlərinə toxunulub.



# Peşəkar zabit kadrlarının komando hazırlığı

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə aprelin 7-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Komando Dağ Təlim Mərkəzini ziyarət edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazir mərkəzdə Heydər Əliyev adına Hərbi İnstitutun 4-cü kurs kursantlarının iştirak etdiyi "Komando başlanğıc kursu"nun gedişatı ilə tanış olub.

Məruzə edilib ki, çöl çıxışında kursa cəlb olunan heyətə yaşayış məntəqələrindəki döyüş şəhərciyində müasir döyüş üsulları, dağçılıq və digər fəaliyyətlər real döyüş şəraitinə uyğun məşq etdirilir. Keçirilən məşğələlərdə əsas diqqət hərbi qulluqçuların fərdi bacarıqlarının daha da yüksəldilməsi, döyüş vərdişlərinin təkmilləşdirilməsi, eləcə də liderlik keyfiyyətlərinin artırılmasına yönəldilir.

Məşğələləri izlədikdən sonra general-polkovnik Z.Həsənov şəxsi heyətlə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Müdafiə naziri qeyd edib ki, Ali Baş Komandanın göstərişinə uyğun olaraq Azərbaycan Ordusunda bütün sahələrdə olduğu kimi hərbi təhsil sahəsində də həyata keçirilən islahatlar davam etdirilir. Peşəkar zabit kadrlarının hazırlanmasında Türkiyə modelindən istifadə olunur və bu prosesin həyata keçirilməsində komando hazırlığı mütləqdir.

Hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə təlimlərdə müasir döyüş üsulları məşq etdirilir, ordumuzun arsenalına yeni tələblərə cavab verən silah, hərbi texnika daxil edilir və hərbi qulluqçulara onların effektiv tətbiqi qaydaları öyrədilir.

General-polkovnik Z.Həsənov qeyd edib ki, Aprel döyüşləri, Günnüt əməliyyatı, Vətən müharibəsi və sonrakı əməliyyatlarda Azərbaycan Ordusu öz qüdrətini bütün dünyaya sübut etdi. Ordumuzun daha da qüdrətlənməsi və inkişaf etməsi istiqamətində görülən işlər hazırda da davam etdirilir. Nazir xüsusi vurğulayıb ki, bu gün bütün hərbi qulluqçularla yanaşı, hərbi məktəblərdə təhsil alan gələcəyin zabitləri də öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir.

Məşğələləri izlədikdən sonra mərkəzdə yeni istifadəyə verilən tibb məntəqəsinə gələn müdafiə nazirinə məruzə edilib ki, müasir tələblərə cavab verən məntəqədə hərbi qulluqçuların sağlamlıqlarının təmin olunması, onlara ilkin yardımın göstərilərək ehtiyac olduğu təqdirdə hospitala təxliyə edilməsi üçün lazımi şərait yaradılıb. Tibb məntəqəsində qəbul-diaqnostika otağı, palatalar, eləcə də inzibati otaqlar mövcuddur.

Daha sonra general-polkovnik Z.Həsənov çöl çıxışında olan kursantların səhra düşərgəsinə baxış keçirib. Düşərgədə şəxsi heyətin qalması, qidalanması və asudə vaxtının səmərəli təşkili üçün yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri kursa cəlb olunan heyətə keçirilən dərslərin daha dərindən öyrənilməsi və onların gələcəkdə əsl hərbi mütəxəssis kimi yetişməsi üçün öz tövsiyələrini verib.

Sonda general-polkovnik Z.Həsənov şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədilə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

**Qəzənfər QASIMOV, "Xalq qəzeti"**

# Xəstə Hayastana çarə Bakıdadır

**Cənubi Qafqazda əməkdaşlıq münasibətlərinin normallaşmasında ən maraqlı tərəf Azərbaycandırsa, bu prosesi hər vəchlə tormozlamağa çalışan isə Hayastandır.**

Biznesdə ortaqlar gəlir və mənfəəti güddükləri kimi, siyasət səhnəsindəki müttəfiq və tərəfdaşların öz maraqları ilə üst-üstə düşən variantlara üstünlük vermələri çox təbiidir. Bəli, böyük siyasətdə qarşılıqlı maraq doğuran layihələr üzrə əməkdaşlıq həmişə prioritet sayılıb. Bu diplomatik yanaşmanı hazırda Cənubi Qafqaz bölgəsində aşkar, yaxud gizlin öz rolunu oynayan aktorlara şamil etsək, siyasi mənzərə daha aydın cizgilərlə qarşımızda sərgilənər.

## Haylar nə istəyirlər?

Rusiya XİN şefinin bölgədə əməkdaşlıqla bağlı Ankaradan səsləndirdiyi mesajın əsas ağırlığı İrəvanın üzərinə yönəlməlidir. Çünki əməkdaşlığın bütün müstəvilərdə baş tutmaması üçün əlindən gələni edən, kövrək təmasların etimadlı sülhə və dayanıqlı münasibətlərə çevrilməsinə mane olan tərəf varsa, o da İrəvandır. Üzdə Moskvaya vasitəçilik üçün müraciət edən, arxada Aİ-nin ilə Azərbaycan çeşidli sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlıq edir.

Bəli, Cənubi Qafqaz tarixən böyük maraqların toqquşduğu bölgə olub. Amma bu gün Bakı bu toqquşmaların fəsadlarından yan keçməklə, öz maraqlarını qorumağa və onları təmin etməyə çalışır. Göründüyü kimi, balanslaşdırılmış, ədalətli və müdrik siyasət yürüdən Azərbaycan bu təlatümdən də üzüağ və uduşlu vəziyyətdə çıxacaq.

Yuxarıda ölkəmizin Cənubi Qafqazda hamı ilə əməkdaşlığa hazır olduğunuzu yazdıq. Hətta hələ də revanş xülyası ilə özünü aldadan, aqibəti ilə barışmağa cürəti çatmayan Hayastanla belə birgə layihələr üzərində işləməyə hazırıq.



## Bölgədə əməkdaşlığa ən maraqlı tərəf Bakıdır

Rəsmi Bakı bunu dəfələrlə, həm də ən yüksək tribunadan bəyan edib. Azərbaycan Ermənistan daxil olmaqla, qonşuları, regionun bütün ölkələri ilə siyasi, iqtisadi, ticari, mədəni sahələrdə əməkdaşlığa hər zaman açıq və hazır olduğunu bildirib. Hətta torpağımızı 30 il işğal altında saxlayan erməniyə enerji daşıyıcıları, kommunikasiya, yükdaşıma sahələrində əməkdaşlığı özü təklif edib. Elə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatının müharibədən sonrakı dövr üçün nəzərdə tutulan layihələri Azərbaycanın bu istiqamətdə birgə işləməyə meyilli olduğunu göstərir. Bunları ona görə yada salır və sadalayırıq ki, bir neçə gün əvvəl Türkiyədə rəsmi səfərdə olan Rusiyanın Xarici işlər naziri Sergey Lavrov həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransında region ölkələrini əməkdaşlığa dəvət edib. Kremlin baş diplomatı, həmçinin, Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın şərtlərinin yerinə yetirilməsinin vacibliyindən danışıb.

Bakının ötən iki il beş ayda sözügedən bəyanatın hansısa bəndinə riayət etmədiyi, yaxud şərtlərindən hansını isə yerinə yetirmədiyi müzakirə mövzusu ola bilməz. Yəni, belə bir hal mövcud deyil. Fəqət, İrəvan bəyanatın şərtlərini yerinə yetirmir, Azərbaycanın Zəngəzur dəhlizi kimi qiymətləndirdiyi Naxçıvana gedən quru yolunun açılmasını təmin etməkdən boyun qaçırır, dünən dediyini bu gün təkzib edir.

mülki missiyasını ölkəsinə dəvət edən Hayastan rəhbərliyi deyilmi? Üçtərəfli görüşlərdə sülh müqaviləsinin mətnini özləri üçün məqbul sayan Paşinyanın az sonra Bakının bununla bağlı real təkliflərinə qəmbərqulu çıxarmaqla kimin dəyirmanına su tökməyə və bununla nəyə nail olmağa çalışdığını hamı görür. Bu əsnada Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun rusiyalı həmkarı Sergey Lavrovla birgə keçirdiyi mətbuat konfransında söylədiklərinə diqqət yetirək: "Türkiyənin arzusu Azərbaycanla Ermənistan arasında ən qısa müddətdə sülh müqaviləsinin imzalanmasıdır. Biz istəyirik ki, regionda sülh olsun". Bəs, bunu istəməyən tərəf kimdir? İrəvan! Sadəcə gündəliyə salmağa çalışdığı bütün bu taktiki üsulların çoxdan istismara yararsız hala düşdüyünü, sülhə gəlməkdən savayı başqa yolunun qalmadığını İrəvana anladan lazımdır. Amma belə görünür ki, onun həm Şərqdəki, həm də Qərbdəki təəssübkeşləri bu xeyirxah missiyanı öhdələrinə götürməyə tələsmirlər. Belə olan təqdirdə, sözlə başa düşməyəni alternativ üsullarla anlatmaq vəzifəsi Azərbaycanın boynuna düşür.

## Sonda udan tərəf Azərbaycan olacaq

"Ümid edirəm ki, regionda olmayan ölkələr bizim əməkdaşlığımıza müdaxilə etməzlər". Bu sözlər də S.Lavrova məxsusdur. Bu açıqlamanı verərkən, Lavrovun konkret ölkələri nəzərdə tutduğu və Kremlə hərbi-siyasi rəqib saydığı gücləri nişan verdiyi məlumdur. Fəqət bu gün Rusiyanın "regionda olmayan" və hətta özünə düşmən gördüyü ölkələrin bir çoxu

### Ekspert rəyi



**Rasim MUSABƏYOV, politoloq:**

– Sergey Lavrov regionda əməkdaşlığa maraqlı olmayan kənar qüvvələrdən danışanda, təbii ki, Avropa İttifaqını, Amerikanı və Böyük Britaniyanı nəzərdə tutur. Ona görə ki, hazırda Moskvanın həm bu iki dövlət, eləcə də Avropanın digər ölkələri ilə əlaqələri qırılıb və Rusiya onları özünə düşmən hesab edir. Nə Azərbaycan, nə Gürcüstan, nə də ki, hətta Rusiyanın müttəfiqi sayılan Ermənistan belə Avropa İttifaqını özünə heç də düşmən qismində görmür. Məhz bu baxımdan rəsmi Bakının bu məsələyə münasibətdə Kremllə baxışları heç də üst-üstə düşmür.

Cənubi Qafqazda regional əməkdaşlığa maneçilik törədən elə həmin Rusiya, İran və onların müttəfiqi Ermənistandır. Həm Qarabağda, həm də bütün bölgədə gərginliyi yaradan da məhz bu qüvvələrdir. Nə Gürcüstanın, nə də Azərbaycanın heç bir ölkəyə qarşı hansısa iddiası yoxdur. Təəssüflər olsun ki, belə iddiaların sahibləri indi durub kimlərəsə barmaq silkələməyə çalışırlar.

Amma bir şərtlə: gərək tərəfdaşımız tam sağlam olsun, həkimə ehtiyac duymasın.

Bütün əlamətlərinə görə, başını itirmiş, siyasi qızdırma içində çapalayan Hayastanın Türkiyənin çarə bildiyi müalicə üsulunu qəbul etməkdən qeyri şansı qalmayıb. Əslində, söhbət hazırda xəstənin normal müalicə almasından deyil, təcili xilas edilməsindən gedir.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# ABŞ-ın "Orta dəhliz"i dəstəkləməsi Ermənistanı əndişələndirir

**Ermənilər yenə narazıdırlar. Amerika Birləşmiş Ştatlarının Ticarət nazirinin köməkçisi Arun Venkatamaranın Bakıda dedikləri hayları heyrətləndirib. Bəs amerikalı qonaq Azərbaycanda olduğu zaman nə deyib ki, Ermənistanda narazılıq yaradıb? Sən demə, cənab Venkatamaranın "Orta dəhliz" barədə dediyi sözlər hayların xətrinə dəyib. Erməniləri narahat edən budur ki, "Orta dəhliz"yolunun bir hissəsi də Zəngəzur dəhlizidir və Ermənistanın mane olmağa çaılışdığı layihə barədə ABŞ rəsmisinin dediyi müsbət fikirlər hayları əndişələndirir.**



Erməni mətbuatı yazır ki, ABŞ Ticarət nazirinin köməkçisi Bakıdan İrəvana gedib. Məlumat verilir ki, Arun Venkataraman Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcək və "Ermənistan–Amerika Strateji Dialoqunun sessiyasında ABŞ-ın İrəvanla müxtəlif sahələrdə, o cümlədən, enerji sektorunda kommersiya, əməkdaşlığının inkişafında, əlaqələrin dərinləşməsində maraqlı olduğunu vurğulayacaq". Bu qısa xəbərin ardınca erməni mətbuatı yazır ki, amerikalı rəsmi Bakıda olub və orada son dərəcə diqqətçəkən açıqlamalar verib. Ermənistan mətbuatı əlavə edir ki, A.Venkataraman ABŞ-ın "Orta dəhliz"ə dəstəyini açıqlayıb. Haylar xatırladırlar ki, Azərbaycan və Türkiyə artıq "Orta dəhliz" layihəsinin "Bakının Ermənistanın suveren ərazisi hesabına açılmasına can atdığı "Zəngəzur dəhlizi" ilə birbaşa əlaqəsini elan ediblər".

Xatırladaq ki, ABŞ-ın Ticarət nazirinin qlobal bazarlar üzrə köməkçisi ABŞ və xarici Ticarət Xidmətləri üzrə baş direktoru Arun Venkataraman media üçün brifinqdə "Orta dəhliz"in əhəmiyyəti barədə önəmli fikirlər açıqlamışdı. Bildirmişdi ki, "ABŞ "Orta dəhliz"in inkişafını dəstəkləyir. Bu təşəbbüsün inkişafı, dəhlizin tam işlək vəziyyətə gətirilməsi ticarət imkanlarını, dövriyyəni artıracaq". ABŞ-ın, həqiqətən də, "Orta dəhliz"in inkişafını ciddi şəkildə dəstəklədiklərini vurğulayan cənab Venkataraman əlavə etmişdi ki, Birləşmiş Ştatlar yalnız Azərbaycan hökumətinin deyil, bütün regiondakı ölkələrin və tərəfdaşlarının "Orta dəhlizi" aktiv fəaliyyət göstərən bir layihəyə çevirmək üçün göstərdikləri səyləri ciddi şəkildə dəstəkləyir: "Biz anlayırıq ki, "Orta dəhliz"in dayanıqlı və effektiv olması region boyu ticarət axınını gücləndirəcək və "Orta dəhliz" boyu ölkələrin vətəndaşlarının xeyrinə olacaq. Biz Azərbaycanı və region boyu ölkələri müxtəlif layihələrdə və proqramlarda dəstəkləyirik, ancaq, eyni zamanda, ABŞ-ın özəl sektorunun logistika, nəqliyyat, rəqəmsallaşma sahəsində təcrübəsinin gətirilməsinin də "Orta dəhliz"in uğurlu olmasına imkan verəcəyinə inanırıq".

Göründüyü kimi, ABŞ rəsmisinin sözləri 44 günlük müharibədən sonra Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqları əks etdirir. Yəni, ABŞ da anlayır ki, 30 illik münaqişənin həll olunması regionda yeni iqtisadi əməkdaşlıq və inkişaf perspektivləri açır və belə bir imkanları dəyərləndirmək lazımdır. Ancaq erməni mətbuatı yazır ki, "Azərbaycan "Orta dəhliz"in həyata keçirilməsini birbaşa "Zəngəzur" dəhlizi ilə əlaqələndirir və ABŞ-ın Bakıda ifadə olunan "Orta dəhliz"ə dəstəyi qəribə səslənir". Yəni, erməniləri narazı salan məqam budur ki, Birləşmiş Ştatlar Ermənistanın "ərazi suverenliyini təhlükə altına salan" layihəni dəstəkləyir. Halbuki, layihənin reallaşmasında iştirak edən heç bir ölkə belə bir niyyətdə olmadığını açıqlayıb. Azərbaycan da dəfələrlə vurğulayıb ki, "Orta dəhliz" layihəsi regional inkişafa güclü impuls verəcək.

Əslində, ABŞ da gözəl anlayır ki, iki qitənin–Avropa və Asiyanın qovşağında əlverişli coğrafi mövqeyi Azərbaycana "Orta dəhliz" kimi beynəlxalq nəqliyyat qovşağında mühüm rol oynamağa imkan verir. Bundan başqa, Azərbaycan son illər nəqliyyat infrastrukturuna böyük sərmayələr yatırıb. Məhz bunun sayəsində ölkəmizdə bütün zəruri infrastruktur obyektləri "Orta dəhliz" çərçivəsində böyük həcmdə yükləri qəbul etməyə hazırdır.

Aprelin 7-də Qəbələdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında Prezident İlham Əliyev bildirib ki, yeni yüklərin "Orta dəhliz" üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Strateji tərəşdaşı Avropanın təhlükəzilik tranzit marşrutlarının formalaşmasında maraqlı olan Birləşmiş Ştatlar layihənin geosiyasi və geoiqtisadi tərəflərini dəyərləndirərək, "Orta dəhliz"i Şərqlə Qərb arasında dayanıqlı logistikanın təşkilində mühüm qovşaq kimi qiymətləndirir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

**Məlum olduğu kimi, martın 24-də Hayastan konstitusiya məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutunda təsbit edilmiş öhdəliklərin əsas qanuna zidd olmadığı barədə qərar qəbul edib. İndi Ermənistan hökuməti Roma Statutunu ratifikasiya üçün parlamentə təqdim edə bilər. Əgər parlament statutu ratifikasiya etsə, o zaman sənədə uyğun olaraq Ermənistanın hüquq-mühafizə orqanları Rusiya Prezidenti Vladimir Putin bu ölkəyə səfər edəcəyi təqdirdə onu həbs etmək öhdəliyini yerinə yetirməli olacaq. Onu da bildirək ki, Putin və Rusiyanın uşaq hüquqları üzrə ombudsmanı Mariya Lvova-Belovanın saxlanılması BCM-in martın 17-də onların həbsinə dair verdiyi order əsasında həyata keçirilməlidir.**

# Qorxunun əcələ dəxli yoxdur!

## *Hayların indiki durumu qədim zərbi-məsəlin aktuallığını itirmədiyindən xəbər verir*

Hayastanın konstitusiya məhkəməsinin bu qərarı aydın səmada qəflətən çaxan ildırım effekti yaradıb. Haylar hələ də qərarın şokundan ayılmayıblar desək, səhv etmərik. Ölkənin rəsmi şəxsləri, deputatlar, ictimai-siyasi xadimlər, bir-birinin ardınca, çıxarılan qərarın hələ V.Putinin həbsi demək olmadığı haqda açıqlamalar verirlər. Çünki hakimiyyət başında olduqları 2018-ci ilin mayından bəri vaxtaşırı anti-Rusiya addımları ilə Kremli qıcıqlandıran Nikol Paşinyan iqtidarının mənsubları budəfəki davranışla daha uzağa getdiklərinin fərqinə varıblar. Onlar Moskvanın bu dəfə bərk qəzəblənməsinin əlamətlərini, yəqin ki, Rusiya Xarici İşlər Nazirliyinin Ermənistan parlamentinin Roma Statutunu ratifikasiya edəcəyi təqdirdə bunun ikitərəfli münasibətlərə son dərəcə mənfi təsir göstərəcəyi ilə bağlı İrəvana xəbərdarlıq etməsində görüblər. Odur ki, haylar hazırda Rusiya



rəhbərliyinin könlünü almaq üçün dəridən-qabıqdan çıxırlar.

Onların bu cəhdləri görkəmli yazıçı Mixail Bulqakovun "Qaçış" pyesindən bir epizodu yada salır. Əsərdə çapar Krapilin cəbhə komandanı, general-leytenant Roman Xludovu əzazilliyinə görə kəskin tənqid edir, onun ünvanına ağır sözlər işlədir. Lakin birdən diksinib ayılır, diz çökərək, yalvarır: "Zati-aliləri, Krapilinə rəhminiz gəlsin! Ağlım başımda deyil!" Lakin çaparın yalvarışları nəticə vermir, Xludov "Yox, əsgər! Sən yaxşı başlamışdın, ancaq pis qurtardın!" – deyərək Krapilinin öldürülməsini əmr edir. İndi haylar da çapar Krapilin kimi qorxuya düşüblər və Kremlin hirsini soyutmaq, əsəblərini cilovlamaq üçün canfəşanlıq edirlər.

***

Sonuncu dəfə bu istiqamətdə Hayastan parlamentinin sədr müavini Akop Arşakyan danışıb. O, "Armenpress" agentliyinə müsahibəsində deyib ki, Ermənistan V.Putini BCM-in orderi əsasında, hətta ölkə parlamenti Roma Statutunu ratifikasiya etdikdən sonra da həbs etmək fikrində deyil. Arşakyanın sözlərinə görə, Ermənistan Rusiya Federasiyasının narahatlığını dinləyib və Roma Statutu ilə bağlı gələcək prosesin təmin edilməsinin Ermənistan və Rusiya arasında strateji münasibətlərə xələl gətirməməsini təmin etmək iqtidarındadır.

***

Hayastanda kifayət qədər tanınan, ictimai fikrə təsir etmək imkanına malik jurnalist, "Mediamaks" şirkətinin direktoru Ara Tadevosyan rəhbərlik etdiyi "mediamax.am" saytında dərc etdirdiyi "Tamahkarlığın və korafəhmliyin ciddi siyasi nəticələri" sərlövhəli məqaləsində yazır: "Zənnimcə, Ermənistan hakimiyyəti konstitusiya məhkəməsinin martın 24-də qəbul etdiyi qərardan sonra yaranmış vəziyyətə düşməmək üçün bu gün çox şey verərdi. Nikol Paşinyan hökumətinin siyasi intihara qərar verməsi ilə bağlı fərziyyəni bir kənara qoysaq, aydın olar ki, BCM-in Putinə qarşı çıxardığı qərardan az sonra Konstitusiya Məhkəməsinin qərarının dərci qarşısının alınması mümkün olmayan təsadüfi cinayətdən başqa bir şey deyil. Məhkəmənin qərarının martın 24-də dərc olunması yəqin ki, müvafiq prosessual qrafiklə bağlıdır. Hökumətin tamahkarlıq və korafəhmlik problemi də elə buradan yaranır ki, bunun bədəlini biz baha qiymətə ödəyə bilərik. Nə konstitusiya məhkəməsində, nə xarici işlər nazirliyində, nə də Nikol Paşinyanın aparatında Putinlə bağlı baş verənlərin fonunda qərarın indi dərc edilməsinin nə ilə nəticələnəcəyini biləcək adam yox idi".

Erməni jurnalist qeyd edir ki, qərarın qəbulu təxirə salına və ya qəbul edilsə də sonradan müəyyən əsaslar tapılaraq ictimaiyyətə açıqlana bilərdi: "Yaxud, heç olmasa, onun dərci siyasi hakimiyyət nümayəndəsinin izahlı çıxışı ilə müşayiət olunmalı idi. Sizi əmin edirəm ki, həssas situasiyalar olanda bütün dövlətlər belə "fırıldaqlara" əl atırlar".

O, daha sonra yazır: "İndi yaş və quru bir-birinə qarışıb və başımıza göydən qar kimi problem ələnir. Amma bunu dərk edib həll yollarını axtarmaq əvəzinə, biz maymaqlığın yeni təzahürlərini görürük. Bəziləri təxminən bunu deyir: "Əgər ruslar 2020-ci ilin sentyabrında bizə kömək etsəydilər, BCM-in yurisdiksiyasının tanınması problemi yaranmazdı". Düşünürlər ki, bu yurisdiksiyanın tanınması bizim təhlükəsizlik problemlərimizi həll edəcək".

Ara Tadevosyan məqaləsini bu ikibaşlı sözlərlə bitirir: "Normal insan bilir ki, qəfəsdə yaralı pələng olanda içəri girmək və pələngin açıq yarasına daha bir zərbə vurmaq olmaz. Pələng sizi elə vuracaq ki, sağ qalsanız da, ölmək ondan fərzdir. Amma Ermənistan hakimiyyətinə, nədənsə, elə gəlir ki, bu da keçəcək".

***

44 günlük Vətən müharibəsi dövründə Rusiyadan təyyarələrlə təzavüzkar ölkəyə silah daşınmasını təşkil edən "Taşir" şirkətlər qrupunun prezidenti Samvel Karapetyan da Ermənistan konstitusiya məhkəməsinin qərarına etiraz edib. Moskvada yaşayan erməni milyarder qeyd edib ki, "Rusiya və Ermənistanın çoxəsrlik dostluq əlaqələrini, iki ölkə xalqlarının qədim tərəfdaşlığını" təhlükəyə atmaq qəbuledilməzdir. Şirkətin mətbuat xidmətinin yaydığı məlumata görə, S.Karapetyan Ermənistan hökumətinin son vaxtlar Rusiya liderlərinə qarşı sanksiyaların tətbiqində beynəlxalq təşkilatları dəstəkləmək üçün daha tez-tez çağırışlar etdiyini vurğulayıb: "Bu cür hərəkətlər birbaşa qarşılıqlı iqtisadi, siyasi, hərbi və mədəni əlaqələr baxımından Ermənistan–Rusiya münasibətlərini təhlükə altına qoyur". O, Ermənistan iş adamları assosiasiyası adından rəsmi İrəvanı bu cür bəyanatların bütün mümkün risklərini ayıq şəkildə qiymətləndirməyə və ölkələr arasında tərəfdaşlıq münasibətlərinə təhlükə yaratmamağa çağırıb.

***

Hayastandakı bu etirazların nəticə verdiyini söyləmək mümkündür. Ölkənin "Joxovurd" qəzeti dünənki sayında hökumətin Roma Statutunun ratifikasiyası ilə bağlı yekun qərarını vermədiyini yazıb. Nəşrin xəbərinə görə, hökumət sənədi hələ ki, ratifikasiya olunması üçün parlamentə göndərməyib. Qeyd olunur ki, hakimiyyət orqanlarının ratifikasiya üçün üç ay vaxtı var.

44 günlük Vətən müharibəsi dövründə Paşinyanın çağırışına cavab verməyən, aralarında azı 11 min fərari olan hayların qorxaq, aciz və miskin olduqlarını bilirdik. Onların Rusiyanın göz ağartmasından sonra geri addım atacaqlarını da gözləyirdik. Haylar indi qorxu içindədirlər. Ancaq unudurlar ki, qorxunun əcələ faydası yoxdur.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Zaur MƏMMƏDOV, politoloq:**



– Ermənistan bu addımı atmaqla Qərbə xoş gəlmək istəyirdi. Amma onlar başa düşmədilər ki, bu, çox təhlükəli oyundur. Rəsmi İrəvan indiki həssas dönəmdə qərarın qəbulunu təxirə sala bilərdi. Çünki Ermənistanın hansısa ölkəni Beynəlxalq Cinayət Məhkəməsinə verməyə hazırlaşmadığı indiki dövrdə onun Roma Statutu ilə bağlı qərar qəbul etməsinə ehtiyac yox idi. Dünya bu məsələdə Ermənistan hakimiyyətinin qeyri-peşəkar davrandığına şahidlik etdi.

Digər tərəfdən, Rusiya Prezidentinin Ermənistanda həbsindən söhbət gedə bilməz. Onu kim həbs edəcək? Ermənistan hüquq-mühafizə orqanlarında Rusiyanın təsiri çox güclüdür. Bu ölkədə polisdə və orduda Rusiyaya bağlı kifayət qədər zabit var. Ermənistan sərhədlərini isə rus hərbçilər qoruyurlar. Bu məsələnin müzakirəsi Rusiyada ciddi qıcıq doğurdu. Rusiyalı ekspertlər bu dəfə nəinki Paşinyan hökumətini, ümumiyyətlə Ermənistan dövlətçiliyinin mövcudluğunu sual altında qoyan bəyanatlar verdilər. Bəziləri isə hətta ilk dəfə etiraf etdilər ki, Ermənistanın bugünkü dövlətçiliyi Azərbaycanın İrəvan xanlığı üzərində qurulub.

# ABŞ Azərbaycanda bərpaolunan enerji potensialına böyük maraq göstərir

**Prezident İlham Əliyevin müxtəlif enerji mənbələrinin inkişafı üçün həyata keçirdiyi siyasət, uzaqgörən siyasi qərar və qətiyyətli addımların ardıcıllığı, bir-birini tamamlaması nəinki Azərbaycanın, eyni zamanda tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verir və "yaşıl enerji"yə problemsiz keçidə təminat yaradır.**



Respublikamızda bərpaolunan enerji potensialının reallaşdırılması istiqamətində icra olunan layihələr xüsusilə diqqət çəkir. Son dövrlərdə "Masdar", "ACWA Power" və "Fortescue Future Industries" şirkətləri ilə 25 QVt həcmində "yaşıl enerji" layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması bunun bariz ifadəsidir. 2040-cı ilədək mərhələli şəkildə istifadəyə verilməsi planlaşdırılan bu istehsal gücləri tələbatımızdan, potensialımız isə yaradılacaq güclərdən dəfələrlə çoxdur. 157 QVt külək enerji potensialı olan Xəzər dənizinin ölkəmizə aid sektoru, azad edilmiş ərazilər və Naxçıvan "yaşıl investisiya" üçün ən cəlbedici məkanlardır.

Naxçıvandan söz düşmüşkən, qeyd edək ki, Azərbaycanın ayrılmaz bir hissəsi olan bu coğrafi ərazinin zəngin günəş enerjisi potensialı, "yaşıl enerji" mərkəzinə çevrilməsi və burada 1500 MVt gücündə xarici investisiya layihələri ilə bağlı planlar hazırda diqqət mərkəzindədir. Ümumilikdə bu gün ölkə, o cümlədən Qarabağ və Şərqi Zəngəzur, həmçinin Naxçıvan üzrə reallaşdırılacaq "yaşıl enerji"nin əhəmiyyətli bir hissəsinin Türkiyə və Avropa istiqamətində ixrac edilə biləcəyi imkanları müzakirə olunur.

Bütün bunlar barədə aprelin 3-də Energetika Nazirliyi və AZPROMO-nun təşkilatçılığı ilə keçirilən Azərbaycan–ABŞ "Yaşıl enerji" forumunda ətraflı danışılıb. Toplantıda iştirak edən ABŞ ticarət nazirinin köməkçisi Arun Venkataraman çıxışında ABŞ-ın Azərbaycanda "yaşıl enerji"ə böyük maraq göstərdiyini, respublikamıza bərpaolunan enerji sahəsində müəyyənləşdirilən məqsədlərin əldə edilməsinə dəstək verməyə hazır olduğunu bildirib.

A.Venkataraman, həmçinin ölkəsinə məxsus "Eksimbank"ın respublikamızda həyata keçirilən "yaşıl enerji" layihələrinə dəstək göstərməyə hazır olduğunu da qeyd edib.

ABŞ-nin emissiya səviyyəsi yüksək olan sektorlarda karbon tullantılarının aşağı salınmasına dair öhdəliyinə sadiq olması barədə danışan ticarət katibinin köməkçisi daha sonra deyib: "Prezident Bayden iqlim dəyişikliyinin qarşısının alınması məqsədilə Birləşmiş Ştatlarda ətraf mühitə atılan tullantıların səviyyəsini 2050-ci il üçün sıfıra çatdırmaq öhdəliyini götürüb. Administrasiya isə iqlim dəyişikliyi problemi ilə mübarizə üçün bütün hökumət qurumları arasında əlaqələndirilmiş yanaşmanın tətbiqini diqqətdə saxlayıb".

ABŞ ticarət nazirinin köməkçisi Arun Venkataraman çıxışında qeyd edib ki, Azərbaycanın bərpaolunan enerji potensialı ilə bağlı keçirilən görüşlər Amerika şirkətlərinə ölkəmizin "yaşıl enerji" istehsalı sahəsində təcrübəsi ilə yaxından tanış olmaq imkanı verib. "Düşünürəm ki, biz bu potensialdan konkret tərəfdaş mənasıbətlərinin yaradılması üçün istifadə edə bilərik",-deyə o vurğulayıb.

Burada mühüm bir məqamı da diqqətə çatdırmaq istərdik. Ölkəmizin zəngin "yaşıl enerji" potensialının reallaşdırılması və onun Avropaya ixrac edilməsi məsələsinə dövlətimizin başçısı hər zaman xüsusi önəm verir. Bu, Azərbaycanın xarici tərəfdaşları tərəfindən yüksək dəyərləndirilir. Arun Venkataraman Bakıda keçirilən forumda bununla bağlı Prezident İlham Əliyevin Avropa İttifaqı ilə energetika sahəsində strateji tərəfdaşlığa dair qarşılıqlı anlaşma Memorandumunun imzalanmasının əhəmiyyətini vurğulayaraq, belə bir qərarı tarixi addım adlandırıb. O daha sonra deyib: "Biz irəli sürülən təşəbbüsə görə Azərbaycan rəhbərliyinə minnətdarıq. ABŞ bu sazişi dəstəkləyir və enerji təhlükəsizliyini, həmçinin təkcə Avropa İttifaqında deyil, həm də bütün regionda öz tərəfdaşlarının müstəqilliyini təmin etmək niyyətindədir".

Xatırladaq ki, sözügedən forumda ABŞ təmsilçisi Azərbaycanın bərpaolunan enerji layihələrini dəstəkləməklə bərabər, ölkəmizin beynəlxalq nəqliyyat əlaqələrinin inkişafını təmin edən dəhliz infrastrukturlarının qurulmasındakı rolunu da yüksək qiymətləndirib. O, ölkəsinin Azərbaycan daxil olmaqla, regiondakı tərəfdaşlarımızı bu məsələdə müxtəlif proqramlarla dəstəkləmək imkanı olduğunu, Orta Dəhlizin bölgədə ticarətin inkişafında uğurlu fəaliyyəti üçün ciddi səylər göstərəcəyini də qeyd edib.

A.Venkataramanın sözlərinə görə, Şərq–Qərb nəqliyyat dəhlizinin Azərbaycan ərazisindən keçməsi də ABŞ-nin nəqliyyat sahəsində fəaliyyət göstərən şirkətlərinin ölkəmizə marağını artırır.

Birləşmiş Ştatların respublikamıza marağı bütün bunlarla məhdudlaşmır. ABŞ ölkəmizlə iqtisadi-ticari əlaqələrin şaxələndirilməsini, xüsusilə kənd təsərrüfatı, logistika, nou-hau və s. sahələrin böyük potensialının gerçəkləşdirilməsini diqqətdə saxlayır.

Sonda xatırladaq ki, ABŞ Azərbaycan iqtisadiyyatına indiyədək 18 milyard dollardan çox investisiya yatırıb. ABŞ–Azərbaycan Ticarət Palatası indiyədək sərmayə qoyuluşu, investisiya əməkdaşlığının inkişafı, ikitərəfli işgüzar əlaqələrin qurulması üçün səmərəli mexanizm rolunu oynayıb.

*Vaqif BAYRAMOV, "Xalq qəzeti"*

### Ekspert rəyi



**Hüseynqulu QULİYEV,**
**Azərbaycan Texniki Universitetinin energetika və avtomatika fakültəsinin dekanı:**

– Prezident Bayden iqlim dəyişikliyinin qarşısının alınması məqsədilə Birləşmiş Ştatlarda ətraf mühitə tullantıların səviyyəsini sıfıra çatdırmaq öhdəliyini öz üzərinə götürüb. Bununla bağlı Bayden administrasiyası iqlim dəyişikliyi probleminin həlli istiqamətində zəruri tədbirlər həyata keçirmək üçün hökumət qurumları qarşısında genişmiqyaslı layihələr gerçəkləşdirməyi təxirəsalınmaz vəzifə kimi qoyub.

Bu da danılmaz faktdır ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində vacib rol oynayır. Enerji sahəsi hər zaman ABŞ-ın ölkəmizlə iqtisadi əməkdaşlığının vacib hissəsidir və bu ölkə respublikamızın enerji sahəsində etibarlı təchizatçı rolunu dəstəkləyir. Buna görə də Birləşmiş Ştatlar Azərbaycanın "yaşıl enerji" potensialının tam mənimsəməsi üçün texniki və tənzimləyici innovasiyaların həyata keçirilməsinə yardım etməyi planlaşdırır.

ABŞ Ticarət Departamentinin Avrasiya məsələləri üzrə baş müşaviri Hizer Bürns deyib ki, təmsil olunduğu ölkənin texniki təchizatçıları tərəfindən Azərbaycan investorlarına "yaşıl enerji" potensialının mənimsənilməsində böyük dəstək göstəriləcək.

Burada bir məsələni də qeyd etməyi zəruri bilirəm. ABŞ şirkətləri dekarbonizasiya texnologiyalarını Azərbaycanla bölüşmək təşəbbüsü ilə çıxış edir və bu, ilk növbədə, karbonsuzlaşdırmanın sürətlə aparılmasını şərtləndirir. Başqa sözlə, "yaşıl enerji"yə keçid təkcə bərpaolunan enerji sektorunun böyüməsi deyil, həm də karbonsuzlaşdırma üçün təmiz texnologiyaların tətbiqi deməkdir. Onu da unutmayaq ki, dekarbonizasiya bir çox cəhətdən tətbiq olunur. Bu, daha çox karbohidrogenlər kontekstində gerçəkləşdirilir.

Amerikalı mütəxəssislərin də vurğuladığı kimi, neft kəşfiyyatı və hasilatı prosesində bu prosesləri "daha təmiz" etmək üçün karbonsuzlaşdırma alətlərinə ehtiyac var. Bu, qeyri-enerji sektorları kontekstinə də aiddir. Azərbaycanda gəmiçilik, polad istehsalı kimi sənaye sahələri var. Bunlar enerji tutumluluğu ilə seçilir. Daha təmiz istehsalı təmin etmək üçün dekarbonizasiya üzərində işləmək mühüm vəzifədir. Burada şübhəsiz ki, özəl sektorun innovasiyaları vacibdir.

Sonda demək istərdim ki, istər ABŞ-ın, istərsə də Avropa İttifaqının (Aİ) Azərbaycanın "yaşıl enerji" mənbələrinin mənimsənilməsinə böyük maraqları təsadüfi deyil. Çünki ölkəmiz təkcə Aİ ilə 2027-ci ilədək qaz tədarükünü ikiqat artırmaq barədə saziş imzalamaqla möhkəm əməkdaşlıq modeli formalaşdırıb. Təbii ki, bu, Azərbaycanın zəngin bərpaolunan enetji resurslarına malik olmasından və uzun illər ərzində Avropanın enerji təhlükəsizliyində fəal iştirakından irəli gəlib. Birləşmiş Ştatların bu məsələdə fəal mövqe tutması isə onun həm böyük texnoloji imkanları ilə Azərbaycana dəstək olmasından, həm də ABŞ şirkətlərinin respublikamızda öz bizneslərini inkişaf etdirmək istəyindən qaynaqlanıb.

# Yeni sənaye zonaları iqtisadiyyatı müasirləşdirir

**Son illər Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası") və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir.**

Azərbaycanda sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən həyata keçirilir. Agentliyin idarə heyətinin sədri Elşad Nuriyevin bildirdiyinə görə, sahibkarlar tərəfindən sənaye zonalarına 6,46 milyard manatdan çox investisiya yatırılıb. Bunun da hesabına ölkədə 10 min 400-dən artıq daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 460 milyon manata yaxın investisiyanın yatırılması və 4200-dən artıq yeni iş yerinin yaradılması nəzərdə tutulur. 2022-ci ildə sənaye zonalarının rezidentləri tərəfindən, ümumilikdə, 2,9 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 1 milyard manatı ixracın payına düşür. Ötən il sənaye parklarının rezidentləri tərəfindən satış 20,6 faiz, ixrac isə 10,8 faiz artıb.

Azərbaycanın sənaye parklarında yaradılmış əlverişli biznes mühiti və geniş logistik imkanlar, eləcə də bir sıra stimullaşdırıcı tədbirlər xarici şirkətlərin də marağına səbəb olub. Məhz bunun nəticəsidir ki, ölkəmizin sənaye zonalarında xarici kapitallı rezidentlərin sayı getdikcə artır. Hazırda Sumqayıt Kimya Sənaye Parkında İsveçrə şirkəti olan "Sika" MMC, Çin kapitallı "Azərbaycan Vanhong Ceramics Co." MMC, Birləşmiş Ərəb Əmirliklərinin "SENSEMI DMCC" şirkəti, Pirallahı Sənaye Parkında Rusiya-Azərbaycan birgə müəssisəsi olan "R-Pharm" MMC, Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan Birləşmiş Ərəb Əmirlikləri kapitallı "Expert Services FZE" Məhdud Məsuliyyətli azad zona müəssisəsi, Neftçala Sənaye Məhəlləsində İran–Azərbaycan birgə avtomobil müəssisəsi, Hacıqabul Sənaye Məhəlləsində qeydiyyata alınan "Penoplex Prikavkazye" MMC fəaliyyət göstərir. Bundan əlavə, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yaradılması nəzərdə tutulan Rusiya–Azərbaycan birgə servis mərkəzi olan "Avto Lizinq Azərbaycan" MMC-nin də yaxın zamanlarda fəaliyyətə başlayacağı gözlənilir.

Bir neçə gün öncə isə ölkəmizdə səfərdə olan bir sıra tanınmış Çin şirkətlərinin nümayəndələri ilə Sumqayıt Kimya Sənaye Parkında görüş keçirilib. Görüş zamanı Çin şirkətlərinin ölkəmizin sənaye parklarına investisiya yatırması imkanları nəzərdən keçirilib. Qonaqlara ölkəmizdə fəaliyyət göstərən sənaye zonaları və investisiya imkanları barədə məlumat verilib. Görüşdə, həmçinin Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən rezidentlərlə əməkdaşlıq əlaqələrinin qurulması, parkın ərazisində "Ka Shui International Holdings Ltd." şirkəti tərəfindən maqnezium istehsalı layihəsinin həyata keçirilməsi imkanları müzakirə edilib.

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları yaradılıb. Həmin parklarda, ümumilikdə, 18 rezident və 6 qeyri-rezident qeydiyyata alınıb. Adıçəkilən sənaye parklarında qeydiyyata alınmış 24 layihə üzrə 138 milyon manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur ki, bunun da hesabına 1300-ə yaxın iş yerinin yaradılması planlaşdırılır. Ağdam Sənaye Parkında tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılması, "Araz Vadisi İqtisadi Zonası"nda isə, əsasən, logistika mərkəzinin yaradılması, gömrük terminalının qurulması, avadanlıq və texnikaların təmiri mərkəzi, topdansatış və pərakəndə anbarlarının tikilməsi və satışı həyata keçiriləcək.



Yeri gəlmişkən, ötən ay Almaniyada səfərdə olan Prezident İlham Əliyev bu ölkənin iş adamları ilə görüşü zamanı "Claas Global Sales GmbH" şirkətinin regional direktorunun nümayəndəsi Klima Martinin maraqlandığı məsələlərə aydınlıq gətirərək deyib: "Hesab edirəm ki, sizin üçün yaxşı imkan Qarabağda servis mərkəzinin yaradılması ola bilər. Bizim Qarabağda iki sənaye zonamız var – Ağdam və Cəbrayılda. Orada artıq müəyyən avadanlığın istehsalı ilə bağlı tikinti işləri gedir. Zənnimcə, bu, hər baxımdan əlverişlidir, çünki "Claas" şirkətinin traktor və kombaynları Azərbaycanda çox populyardır. Burada potensial böyükdür, çünki həmin bölgələrdə geniş kənd təsərrüfatı fəaliyyəti olacaq".

Göründüyü kimi, əlverişli investisiya mühiti və logistika imkanları sənaye zonalarının cəlbediciliyini getdikcə artırır. Ən müasir texnologiyalar əsasında yaradılan hər bir sənaye parkı isə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, ölkəmizin ixrac imkanlarının artmasına və məşğulluğun təminatına mühüm töhfələr verir.

*Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"*

### Ekspert rəyi



**Mahir ZEYNALOV,**
**Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, fəlsəfə doktoru, dosent:**

– Sənaye parklarının yaradılmasında əsas məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli yerli istehsalın inkişafına, sənaye sektoruna yerli və xarici investisiyaların cəlb olunmasına, iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft ixracının artırılmasına, eləcə də yeni iş yerlərinin açılmasına nail olmaqdır. Bu məqsədlə sənaye parklarında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktur formalaşdırılır, habelə vergi güzəştləri kimi təşviq mexanizmləri nəzərdə tutulur. Bu, həm də ölkədə istehsal sektorunda biznesin dəstəklənməsi və inkişafı üçün əlverişli bir iqtisadi platformadır. Belə ki, burada sahibkarlar rezident kimi qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Belə əlverişli şərtlər sənaye parklarını sahibkarlar üçün cəlbedici edir.

Təsadüfi deyil ki, hər il sənaye zonalarında sahibkarların sayı artır. Artıq bu sahədə həyata keçirilən layihələrin müsbət iqtisadi nəticələri də var. Belə ki, İqtisadi Zonaların İnkişafı Agentliyi fəaliyyətə başlayandan bugünədək idarəçiliyində olan sənaye zonalarında investisiya həcmi 246 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Burada sahibkarlar tərəfindən həyata keçiriləcək layihələr üzrə 2800-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Sənaye zonaları üzrə indiyədək ümumilikdə 8,8 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 2,9 milyard manatlıq və ya 33 faizə yaxın hissəsi ixrac olunub. Sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 16,7 faiz, ixracında isə 29,5 faizdir. İstehsal olunan məhsullar daxili bazarla yanaşı, "Made in Azerbaijan" brendi ilə dünyanın bir sıra ölkələrinə (ABŞ, Kanada, BƏƏ, Çin, Rusiya, Çexiya, İngiltərə, İsrail, İspaniya, Avstriya və s.) ixrac olunur.

Ümumilikdə isə, indiyədək sənaye zonaları üzrə layihələrin ümumi investisiya həcmi 7 milyard manata yaxın olan 116 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 65-i istehsal fəaliyyətinə başlayıb. Bütövlükdə isə, sənaye parklarının qeyri-neft sektorunun inkişafında rolu getdikcə artır ki, bu da ölkəmizdə reallaşdırılan uğurlu sənayeləşmə siyasətinin perspektivlərindən xəbər verir.

# Bakı–Təl-Əviv: dostluğun yeni üfüqləri

## Bunu xalqlarımızın iradəsi formalaşdırır

**Diplomatik münasibətlərimizin 31 illiyi münasibətilə qələmə aldığımız yazının sərlövhəsində ölkəmizdə yəhudi dilli qəzetlərin nəşr olunduğunu xatırlatmağımız təsadüfi deyil. Çünki bizim İsraillə dostluq, tərəfdaşlıq etməyimizi, orada səfirlik açmağımızı qısqanclıqla qəbul edən, hətta bu faktdan qəzəblənən İran İslam Respublikasında yaşayan 40 milyonadək olan soydaşımıza ana dili, demək olar ki, yasaq edilib. Azərbaycanda isə rus, yəhudi, ləzgi, talış, kürd dillərində mətbuat vasitələri fəaliyyət göstərir. Ona görə də Azərbaycanın dost və tərəfdaşları çoxaldıqca, Ermənistan və İran meydanda təklənir.**



***Yəhudilərlə azərbaycanlılar arasında əlaqələr hər zaman, tariximizin bütün dövrlərində çox yaxşı olub və yəhudilər əsrlərdir ki, Azərbaycanda yaşayırlar. Bu, onların evidir, onlar burada özlərini evlərindəki kimi hiss edirlər və ölkəmizi gücləndirmək üçün çox işlər görürlər. Bu, Azərbaycan Rusiya imperiyasının tərkib hissəsi olanda da, Sovet İttifaqı dövründə də belə olub, indi də – müstəqillik dövründə də belədir. Azərbaycanda yaşayan bütün xalqlar arasındakı əlaqələr multikulturalizmin, qarşılıqlı hörmətin, bir-birinin ənənələrinə və dininə hörmətin bariz nümunəsidir.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Yeri gəlmişkən, bizim yəhudi xalqına və İsrail dövlətinə olan hörmət və ehtiramımız qarşı tərəfdən də ən ali səviyyədə qiymətləndirilir və anoloji addımlar atılır. Rəsmi Təl-Əviv Azərbaycanın dövlət müstəqilliyini bu müstəqillik elan ediləndən təxminən iki ay sonra tanımışdır. Sonrakı il aprelin 7-də isə ölkələrimiz arasında diplomatik münasibətlər yaranmışdır. Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı il yanvarın 21-də İsveçrədə keçirilən Davos İqtisadi Forumu çərçivəsində İsrail Dövlətinin baş Naziri Benyamin Netanyahu ilə görüşmüş və onu ölkəmizə dəvət etmişdi. Həmin ilin sonunda cənab Netanyahu Azərbaycanda işgüzar səfərdə olmuşdur. Beləliklə, qarşılıqlı səfərlər və müntəzəm xarakter alan təmaslar ölkələrimiz arasındakı siyasi-diplomatik münasibətlərin bugünkü səviyyəsini formalaşdırmışdır.

İsrail mətbuatı yazır ki, bu gün Azərbaycanda yəhudilərin iyirmiyə yaxın ictimai-mədəni və xeyriyyə təşkilatı fəaliyyət göstərir. Buna "Yəhudi evi", "Azərbaycan –İsrail" Cəmiyyəti, Azərbaycan Yəhudi Qadınlar Assosiasiyası, "Yəhudi Mədəniyyət Mərkəzi", "Soxnut" Beynəlxalq Yəhudi Təşkilatının Azərbaycan bölməsi və digərlərini misal göstərmək olar. Dövlət başçımız dəfələrlə xatırlatmışdır ki, öz dininə və ənənələrinə hörmət, qonşunun, dostunun, vətəndaşının dininə və ənənələrinə olan hörmətdən başlayır.

Təkcə Azərbaycan – İsrail münasibətlərində deyil, ümumiyyətlə, ölkələrarası ikitərəfli münasibətlərin inkişaf etdirilməsində diaspor təşkilatlarının böyük rolu vardır. Etiraf edək ki, bu baxımdan İsrail dövlətinin bəxti gətirmişdir. Çünki bizim ölkəmizdəki yəhudi icması Azərbaycanda ən fəal icmalardan biridir. Azərbaycanda 3 Yəhudi İcması mövcuddur: əsasən Quba (Qırmızı Qəsəbə) və Bakıda yaşayan dağ yəhudiləri, əsasən, Bakı və Sumqayıtda yaşayan yəhudi aşkenazlar, Gürcüstanla sərhəddə yaşayan Gürcüstan yəhudiləri.

Ölkəmizin Təl-Əvivdə səfirliyi açıldığı günlərdə Azərbaycan – İsrail əməkdaşlığının müasir səviyyəsini özündə əks etdirən qəzet materialı hazırladığıma görə, bu sətirləri qələmə alarkən ölkələrimiz və xalqlarımız arasındakı mədəni əlaqələr barədə nə isə söyləmək istədim. Bu məqsədlə bəzi mənbələrə və əvvəlki illərin mətbuat vasitələrində verilmiş yazılara da diqqət etdim. Öyrəndim ki, Azərbaycanda "Soxnut" yəhudi agentliyi, "Coynt" və "Vaad-L-Xetzola" komitələri yəhudi adət-ənənələrinin qorunması və saxlanılması ilə məşğul olurlar. Həmçinin yəhudi icmasının mədəni mərkəzi, "Yeva" Qadın Cəmiyyəti, "Hesed-Qerşon" Xeyriyyə Cəmiyyəti, "Alef", "Kilel" gənclər klubu, "Mişpaxa" videoklubu, yəhudi dini məktəbləri – ieşivlər, "Xabad Or-Avner" orta məktəbi fəaliyyət göstərir.

Ekspertlər yazırlar ki, Bakıda 2003-cü ildə açılmış sinaqoq Avropada ən böyük sinaqoqlardan biri sayılır. Quba rayonunun Qırmızı Qəsəbə kəndində sinaqoq və dini ayinləri icra etmək üçün mikva mövcuddur. Bundan başqa, yazının əvvəlində də qeyd etdiyimiz kimi, ölkəmizdə "Az-İz", "Qüllə" və "Amişav" kimi yəhudi dilində qəzetlər nəşr olunur.

O ki qaldı, dost ölkədə səfirliyimizin açılması məsələsinə, mütəxəssislərin fikrincə, bu fakt ikitərəfli münasibətlərin inkişafına xüsusi töhfə verəcək. Çünki həm İsrail dövləti, həm də Azərbaycan bu əməkdaşlıqda səmimidir. Səmimiyyət, inam və etimad faktları bizim üçün olduqca böyük önəm kəsb edir. Çünki uzun illər inanıb etibar etdiyimiz bəzi ölkələrdən, sözün həqiqi mənasında, qeyri-səmimi münasibətlər görməyimiz bizi kifayət qədər mütəəssir etmişdir. İsrail kimi sədaqətli dost və tərəfdaşdan gördüyümüz səmimiyyətdən isə həmişə məmnun olmuşuq.

Sonda bir daha xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən il dekabrın 29-da Benyamin Netanyahuya İsral Dövlətinin Baş naziri kimi fəaliyyətə başlaması münasibətilə göndərdiyi təbrik məktubunda deyilirdi ki, biz tarixən dostluq və qarşılıqlı anlaşma şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan–İsrail münasibətlərinə xüsusi əhəmiyyət veririk: "Bu ilin noyabrında Azərbaycanın İsraildə Səfirliyinin təsis edilməsi barədə qərar qəbul edilmişdir. Ümidvaram ki, səfirliyimizin açılması Azərbaycan–İsrail münasibətlərinin inkişafına töhfə verəcəkdir. Əminəm ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik".

O ki qaldı, bizim İsrail dövləti ilə münasibətlərimizin gündən-günə yeni zirvələr fəth etməsindən təlaş keçirənlərə, həmin ünvanlara xatırlatmalı amillər çoxdur. Bu kiçik yazıda onların hamısını xatırlada bilməsək də, bir neçəsini yada salırıq: **Birinci.** Azərbaycanın öz tarixi ərazilərini bərpa etmək üçün apardığı otuz illik mübarizə dövründə cənub qonşumuzdan gördüyümüz münasibətlər həmişə saxta, riyakar, ikiüzlü və qeyri-səmimi olub. İsrailin bizə münasibəti isə həmişə səmimi, açıq, inanılmış və etibar ediləcək səviyyədədir.

**İkinci.** İran İslam Respublikası onlarca məscidimizi dağıdıb, qalan iki məsciddə isə donuz saxlayan İslam düşmənlərinə silah-sursat, yanacaq verəndə, İsrail Azərbaycanın haqq işini dəstəkləyirdi.

**Üçüncü.** İşğal altında olan ərazilərimizin varidatı talan edilərək İrana daşınanda, İsrail Azərbaycana maddi-texniki yardım göstərirdi.

Bütün bunlar sübut edir ki, Azərbaycan öz dost və tərəfdaşlarını seçəndə daim obyektivlik, ədalət, halallıq prinsiplərini əsas götürür. Ona görə də halallığı yaxına buraxmayanlar bizdən dostluq ummasınlar.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**

# İrəvanda "Qarabağ Azərbaycandır!" həyəcanı

**Hadrutlu erməninin İrəvanda yeni açdığı "Meqamol" ticarət mərkəzindəki restoranın Wi-Fi şifrəsi sındırılaraq, "Qarabağ Azərbaycandır! – FenixBaku" kodu ilə əvəzlənib.**

Ermənistanın yazılı və elektron mediası indi bu olayı gen-bol tirajlamaqdadır. Bununla bağlı yerli "media-ekspertləri" müxtəlif versiyalar üzərində baş sındırırlar. Onların bir qismi sual edir ki, həmin ərazidə başqa Wi-Fi şəbəkələri olsa da, niyə məhz hadrutlu erməninin restoranının şifrəsi sındırılıb, adı, parolu dəyişdirilib?

Bu hadisə sosial şəbəkələrdə əməlli-başlı ajiotaja səbəb olduğu kimi, İrəvanın həmin ərazisində yaşayan sakinlər arasında da ciddi təşviş yaradıb. Onların artıq müvafiq orqanlara müraciət etdikləri deyilir.

Ermənistan "media-ekspertlərinin" digər qismi Azərbaycanın təhlükəsizlik



orqanlarının əməkdaşlarının artıq İrəvanda xidməti fəaliyyət göstərməsi versiyasını irəli sürüblər. Hayların bu sahədə daha irəli gedən, müasir texnoilogiyaların xüsusiyyətlərinə dərindən bələd olan media mütəxəssisləri isə Wi-Fi şifrəsinin, yaxud kodunun məsafədən dəyişməyin mümkün olub-olmadığı versiyası üzərində çalışırlar.

Yeri gəlmişkən, oxuculara 44 günlük Vətən savaşında Zəfərimizdən az sonra irəvanlı ermənin sosial şəbəkədə paylaşdığı iki cümləni xatırlatmaq istərdik. Həmin erməni yazırdı: "Biz müharibəni həm də ona görə uduzmuşuq ki, Azərbaycan kosmosa peyklərini göndərəndə biz Hayastanda mal-mülk davası edirdik. Onlar göydən nəinki bizim tanklarımızı, hətta kombaynlarımızı izləyə bilirlər".

Bu, eyni zamanda növbəti versiya üzərində çalışmalarından ötrü İrəvandakı "media-ekspertlərinə" bizim ismarıcımız olsun!

**Hazırladı: İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

# İran xüsusi xidmət orqanlarının narkotik qaçaqmalçılığı

## *Sərhəd naryadlarına silahlı müqavimət göstərən, qanuni tələbə tabe olmayan narkotik qaçaqmalçılarını yerindəcə məhv etmək əmri verilib*

**Dövlət Sərhəd Xidməti rəisinin əməliyyat-axtarış işi üzrə müavini, general-leytenant Firuz Şirinzadənin APA-ya müsahibəsi**

***– Əldə etdiyimiz məlumata görə, ötən gecə İranla dövlət sərhədində atışma olub. Bu məlumat nə qədər doğrudur?***

– Demək olar ki, hər gün bu cür hallarla qarşılaşırıq. Bəli, dünən növbəti dəfə narkotik qaçaqmalçıları dövlət sərhədini pozmağa cəhd ediblər. Gecə saatlarında Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının "Horadiz" Sərhəd Dəstəsinin xidməti ərazisində narkotik vasitələrin ölkəyə gətirilməsinin qarşısını alınıb. Bir neçə nəfər sərhəd pozucusu ölkə ərazisinə keçmək istəyib, onlar sərhəd naryadının qanuni tələbinə tabe olmayıblar və sərhəd naryadına odlu silahdan atəş açıblar. Onlara qarşı silah tətbiq edilib, ərazinin mürəkkəb relyefli və havanın qaranlıq olmasından istifadə edən sərhəd pozucuları geri qaçıblar. Hadisə yerində isə onlara məxsus 63,5 kq narkotik vasitə aşkar olunub. Hazırda əməliyyat-axtarış tədbirləri davam etməkdədir.

***– Ümumiyyətlə, İrandan Azərbaycana qarşı narkotik terrorunun son zamanlar artması müşahidə olunur...***

– Əvvəla onu deyim ki, Azərbaycana narkotik vasitələr gətirməyə cəhd edən cinayətkarlara qarşı ən sərt tədbirlər həyata keçirilir. Sərhəd naryadlarına hər hansı silahlı müqavimət, yaxud qanuni tələbə tabe olmama halında narkotik qaçaqmalçılarını yerindəcə məhv etmək əmri verilib. Bu tədbirlər bundan sonra da tam qətiyyətlə davam edəcək.

O ki qaldı sizin də ifadə etdiyiniz kimi, İrandan narkotik terrorunun artmasına, bəli, statistika bu faktı təsdiqləyir. Son 5 ildə İran İslam Respublikasından Azərbaycana gətirilən narkotik vasitələrin həcmi 9 dəfə artıb. Belə ki, 2018-ci ildə 144,8 kq, 2022-ci ildə isə 1 ton 302 kq narkotik vasitə İİR ilə dövlət sərhədindən qanunsuz yolla gətirilərkən tərəfimizdən aşkarlanıb. Son 5 ildə narkotik qaçaqmalçılığına görə 55 İran vətəndaşı saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunub.

***– Statistikaya nəzər yetirəndə maraqlı fakt ortaya çıxır. Məhz 2022-ci ildə İrandan Azərbaycana narkotik qaçaqmalçılığı cəhdlərinin həddən çox artdığını göstərir. Sizcə, bunun səbəbi nədir?***

– Ümumiyyətlə, 2021-2022-ci illərdə Azərbaycan–İran dövlət sərhədində (yaşıl sərhəddə) tutulmuş qaçaqmalın ümumi kütləsi 2 ton 113,3 kq olub. 2018–2020-ci illərdə - yəni əvvəlki 3 il ərzində dövlət sərhədində cəmi 1 ton 222 kq narkotik vasitənin tutulduğunu nəzərə alsaq, rəqəmlərdə kəskin artımın olduğunu görə bilərik. Bu isə onu göstərir ki, Vətən müharibəsindən əvvəlki dövrdə narkotik qaçaqmalçılığının böyük hissəsi Azərbaycan–İran dövlət sərhədinin 132 km-lik işğal altında olan hissəsinin payına düşüb. Vətən müharibəsində əldə etdiyimiz böyük zəfərədək işğal altında olan sərhəd ərazilərimizdən kütləvi narkotrafik məqsədilə istifadə edilib. İrandan gətirilən narkotik vasitələr həmin ərazilərdən keçirilməklə Ermənistana daşınıb. Ermənistan ilə birgə həyata keçirilmiş bu fəaliyyətdən həm Ermənistan, həm də İİR böyük həcmdə cinayətkar gəlir əldə ediblər. Bu barədə ölkəmizin hüquq-mühafizə orqanları çoxsaylı faktlar müəyyən ediblər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan sərhədçilərinin böyük rəşadətlə, döyüşərək azad etdiyi İİR ilə dövlət sərhəd xətti üzərində nəzarətimizin bərpa edilməsi böyük bir regional narkotrafikin də qarşısının alınmasına da öz töhfəsini vermişdir.

Xatırlatmaq yerinə düşər ki, ABŞ Dövlət Departamentinin narkotiklər üzərində beynəlxalq nəzarət strategiyası haqqında hesabatlarında da bu məqam dəfələrlə əks olunub. "Qara dəlik" kimi xarakterizə olunan bu narkotrafikdən əldə olunan böyük həcmli maliyyə vəsaitləri separatçı rejimin və Ermənistanın cinayətkar rəhbərliyinin şəxsi məqsədləri üçün sərf olunmaqla yanaşı, işğal altında olan ərazilərin azad olunmasını əngəl-



ləmək məqsədilə silah-sursat alınması üçün də geniş istifadə olunub.

***– Mütəmadi olaraq narkotik qaçaqmalçılarının Azərbaycan sərhədçilərinə silahlı müqavimət göstərməsi barədə xəbərlər oxuyuruq...***

– Azərbaycan sərhədçiləri narkotik qaçaqmalçılarına qarşı ciddi və sərt tədbirlər görür. İrandan narkotik vasitələrin gətirilməsi ən müasir silahlar və xüsusi texniki avadanlıqlara (gecə görmə cihazları və s.) malik silahlı dəstələr tərəfindən müşayiət olunur. Təkcə son 5 ildə sərhədçilərə qarşı 27 dəfə silahlı müqavimət göstərilib. Bu hallarda sərhəd naryadlarının cavab atəşi ilə 15 qaçaqmalçı zərərsizləşdiriib, 5-i yaralanıb. Zərərsizləşdirilmiş şəxslərdən 13 nəfəri İran, 2 nəfəri Azərbaycan vətəndaşı olub. Bu əməliyyatlar zamanı bizim də itkilərimiz olub. Belə ki, 3 hərbi qulluqçumuz şəhid olub, 5 nəfər yaralanıb.

Bir daha vurğulayıram ki, sərhəd naryadlarına silahlı müqavimət göstərən, qanuni tələbə tabe olmayan sərhəd pozucularına qarşı ən sərt tədbirlərin görülməsi əmri verilib.

***– Ölkəmizə narkotik vasitələrin gətirilməsi cəhdlərinin arxasında başqa məqsədlərin də olması barədə fikirlər mövcuddur. Bu barədə nə deyə bilərsiniz?***

– Bu artıq təkzibolunmaz faktdır ki, İran İslam Respublikasının xüsusi xidmət orqanları Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş fəaliyyətində narkotik qaçaqmalçılığından da istifadə edir. Bu cinayətkar fəaliyyətə cəlb olunan şəxslərin sonradan müxtəlif yollarla xüsusi xidmət orqanlarının tapşırıqlarının yerinə yetirilməsinə məcbur edilməsi faktları da mövcuddur.

Buradakı digər mühüm məsələ isə faktiki olaraq Azərbaycan gənclərinə qarşı əvvəl də qeyd etdiyimiz kimi narkotik terrorun həyata keçirilməsidir. Bu bir faktdır ki, İran hazırda Azərbaycana qarşı həm də narkotik terroru həyata keçirir. Azərbaycan gənclərinin narkotiklərə aludə edilməsi xalqımızın gələcəyinə qarşı yönəlmiş təxribat xarakterli addımdır. Sxem çox aydındır, qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə narkotik vasitələr daşımaq, burda bu narkotik vasitələri satıb Azərbaycan gəncliyini zəhərləmək, əldə olunan vəsaitdən isə Azərbaycan dövlətçiliyinə qarşı təxribat xarakterli əməllərdə istifadə etmək. Lakin Dövlət Sərhəd Xidməti, həmçinin, ölkəmizin hüquq-mühafizə orqanları bu məkrli planları ifşa edərək, qarşısını alırlar.

***– Yeri gəlmişkən, Dövlət Sərhəd Xidməti digər hüquq-mühafizə orqanları ilə bu istiqamətdə əməkdaşlığı necə qurub?***

– Narkotik qaçaqmalçılığına qarşı mübarizə tədbirləri çərçivəsində Dövlət Sərhəd Xidməti tərəfindən baş prokurorluq, dövlət təhlükəsizliyi, daxili işlər və gömrük orqanları ilə ən yüksək səviyyədə qarşılıqlı faydalı əməkdaşlıq və effektiv məlumat mübadiləsi sistemi formalaşdırılıb.

Bu əməkdaşlığın effektivliyi isə narkotik vasitələrin saxlanılma hallarının aşkarlanması, dərindən araşdırılması və istintaqı nəticəsində cinayətkar fəaliyyətin digər iştirakçılarının müəyyən edilməsində, cinayətkar şəbəkələrin ifşa olunmasında özünü göstərməkdədir.

# TÜRKSOY-da UNESCO üzrə sədrlik Azərbaycana keçdi

## *TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının Bakı və Şuşada 9-cu İclası keçirilir*

**Aprelin 7-də Azərbaycan Respublikası Prezidenti yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti və Universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu İclasının açılış mərasimi keçirilir.**

AZƏRTAC xəbər verir ki, ADA Universitetində baş tutan tədbirdə Azərbaycan Respublikasının xarici işlər naziri, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının sədri Ceyhun Bayramovun videomüraciəti təqdim edilib. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsini icra edən Adil Kərimli, TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı və UNESCO üzrə Türkiyə Milli Komissiyasının prezidenti Öcal Oğuz açılış mərasimində çıxış ediblər. Açılış zamanı TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu dövr sədrliyi Türkiyə Respublikasının UNESCO üzrə Milli Komissiyasından Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasına ötürülüb.

ADA Universitetinin Dövlət, xarici və tələbə işləri üzrə prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən açılış mərəsimində UNESCO Baş direktorun Prioritet Afrika və Xarici Əlaqələr üzrə müavini Firmin Eduard Matokonun ünvanladığı videomüraciət tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Çıxışçılar sırasında yer alan Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının ilk sədri Həsən Həsənov, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə ötən 30 il ərzində Azərbaycan və UNESCO arasında əməkdaşlığın inkişafından bəhs edərək mədəni irsimizin dünyada daha geniş miqyasda tanıdılmasına fayda verəcək təkliflərlə çıxış ediblər.

Açılış mərasimi başa çatdıqdan sonra panel müzakirələr və seminarlar öz fəaliyyətinə başlayıb.

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyanın baş katibi Seymur Fətəliyevin moderatorluğu ilə keçirilən ilk paneldə ölkəmizin UNESCO-nun icra etdiyi proqram və layihələrə dəstəyi və əməkdaşlıq imkanları müzakirə edilib, həmçinin panel iştirakçılarının bu istiqamətdə təklif və tövsiyələri dinlənilib.

ADA Universitetinin dövlət, xarici və tələbə işləri üzrə prorektorunun müşaviri, İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini



Aygün Hacıyevanın moderatorluğu ilə keçirilən növbəti panel mədəni irsin qorunması, elm, təhsil sahəsi üzrə UNESCO çərçivəsində əlaqələrin daha da genişləndirilməsi və birgə beynəlxalq tədbirlərin keçirilməsi mövzularını əhatə edib.

Maddi və qeyri-maddi mədəni irs, təbii irsin qorunması və təhsil məsələlərini əhatə edən seminarlardan və mütəxəssis rəyləri dinlənildikdən sonra TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının ölkəmizdə keçirilən 9-cu İclasının yekun bəyanatı işlənib hazırlanıb. 2023-cü il Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçiriləcək iclasın yekun bağlanış mərasimində sözügedən bəyanat qəbul ediləcək.

# Güneylilər Xudafərində mollakratiyanı vahiməyə saldılar

**Səudiyyə Ərəbistanı ilə sülhə nail olan molla rejimi Azərbaycan Respublikası ilə müharibə aparmaq istəyir. Rejim "Hüseyniyyə" qrupu vasitəsilə Azərbaycana təzyiq edir. Sual verilir ki, Azərbaycan Respublikası xalqına və siyasətçilərinə qarşı törədilən terror aktlarını pislədikdə niyə bəzi İran muxalifətçiləri susur?**





İran mediası və mərkəzçi siyasi təşkilatlar indiyə qədər Ermənistanın işğalını müdafiə ediblər. Onlar Azərbaycanın haqları ilə bağlı həmişə susublar və hətta yalan məlumatlar yaymağa cəhd ediblər. Baxmayaraq ki, uşaqları da qətlə yetirən molla rejimi erməni işğalı illərində və Qarabağın azad edilməsi əməliyyatı dövründə Ermənistanın yanında olub və bu gün də Azərbaycanı hədələməkdə davam edir.

İranda xarici və daxili müxalifətin bilərəkdən susması onların Tehranın cinayətkar hakimiyyətinə rəğbətinin göstəricisidir. Burada türklərə qarşı düşmənçiliyi, saxta fars kimliyini yaradan amilləri əsas kimi göstərmək olar. Buna görə də mollalarla fars təmayüllü müxalifət arasında ortaqlıq var. Beləliklə, bütün kök fərqlilikləri ilə vahid məxrəcdə əldə olunan anlaşma, yəni, türk ölkələrinə qarşı tarixi alçaqlıqlardan qaynaqlanan düşmənçilik və inadkarlıq vəhdət təşkil edir.

Aprelin 2-də–Aprel döyüşlərinin ildönümü günündə Güney Azərbaycan xalqının bir hissəsi Qarabağ qələbəsinin zirvəsində Prezident İlham Əliyevin "Dostluq körpüsü" adlandırdığı Xudafərin körpüsünün cənub ətəyinə toplaşdı. Böyüyən toplantı ənənəvi 13-cü Bədr adlı təlimə hazırlaşan İran ordusu və molla rejiminin repressiya qüvvələrinin diqqətini çəkdi. Onlar yerin geniş olmaması bəhanəsi ilə daha çox insanın toplaşmasına mane oldular.

Lakin zəncirli şəxsi avtomobillər yolun kənarında dayanaraq rejim məmurlarının əmr və qadağalarına məhəl qoymayıblar. Ora toplaşanlar, təbii ki, bir neçə gün rejimin Təbrizdə Azərbaycan Konsulluğunun qarşısında aparılan təxribata cavab almaq istəyirdirlər. Onlardan biri videopaylaşımında deyir: "Salam əziz muxatəblər, bu videonu istərəm diqqətlə baxasınız. Orada gördüyünüz kimi, Güney azərbaycanlıların bir böyük toplum hissəsi Araz çayının Xudafərin körpüsünün ətrafına toplaşmaq istəyirlər. Ancaq körpünün yaxınlığında olan tuneldən başlayaraq, molla rejimi körpüyə yaxınlaşmağın qarşısını alır. Rejim bəhanə gətirir ki, parkinqlərdə yer yoxdur, hal bu ki, orada olan parkinqlər tam boşdur. Bizi qoymadılar körpüyə gələk. Bayramın 13-dür. Bizi o boğazda saxladılar ki, orada yer yoxdur.

Şəkildə gördüyünüz kimi, trafik haradan başlayıbdır və nə qədər güneyli Xudafərin körpüsünə həsrətlə yanaşmaq istəyir. Yolu bağlayıblar ki, biz vüsal və qardaşlıq körpüsünə tərəf gedə bilməyək".

Əminik ki, molla rejimi güneyli və quzeyli qardaşlarımızın birliyinin qarşısını ala bilməyəcək.

**Abdulla Əmir Haşimi CAVANŞIR,**
**güneyli publisist,**

**İsveç**



# Etirazçılar həbs edilir, işgəncəyə məruz qalır və öldürülürlər

**İranda hakim rejimə qarşı etiraz aksiyaları davam edir. Aprelin 6-da Güney Azərbaycanın Urmiya və Həmədan şəhərlərində müəllimlər aksiyalar keçiriblər. Bu barədə İran Təhsil İşçiləri Həmkarlar İttifaqı Təşkilatlarının Koordinasiya Şurası məlumat yayıb. Xəbəri GunazTV verib.**

Məlumata görə, təhsil idarələrinin binaları qarşısına toplaşan müəllimlər əmək haqlarının verilməməsinə etiraz edib, aprelin 5-də həbs edilən İran Müəllimlər Birliyinin sözçüsü Məhəmməd Həbibinin azad edilməsini tələb ediblər. İctimai fəal və müəllim Məhəmməd Həbibi aprelin 5-də həbs edilib. Həyat yoldaşı Xədicə Pakzəmirin sözlərinə görə, təhlükəsizlik qüvvələri məktəbə hücum edərək Məhəmmədi qandallayıb və Tehranın Evin həbsxanasına aparıblar.

Aprelin 6-də Kirmanşah, Kərəc, Məlayer və başqa bir neçə şəhərdə də oxşar aksiyalar baş tutub. Aprelin 5-dən 6-na keçən gecə Tehranın Şəhri-Ziba bölgəsində də hökumətə qarşı etiraz aksiyaları keçirilib. Aksiyalar 2022-ci ilin sentyabr ayında hökumət məmurları tərəfindən öldürülmüş Həmid Rza Ruhi adlı gəncin doğum günü münasibətilə keçirilib.

Nümayişçilər "Xameneyi, bu qiyam sona çatmayacaq" , "Bu il sistemin son ilidir", "Zalım Xameneyi, səni torpağa basdıracağıq" kimi şüarlar səsləndiriblər. Aksiyalar zamanı bölgəyə çoxlu polis və xüsusi təyinatlı qüvvələrin cəlb olunduğu, aksiyaçılara qarşı zor tətbiq edildiyi bildirilir.

Qeyd edək ki, son aylarda müəllimlər və təhsil işçilərinin etiraz aksiyalarının genişlənməsi fonunda hökumətin təzyiqləri də çoxalıb. Təhlükəsizlik qurumları etirazların qarşısını almaq və müəllimləri susdurmaq üçün çoxlu insana qarşı qondarma ittihamlar irəli sürərək, həbsa atırlar.

Güney Azərbaycanın Qəzvin mahalından olan və etiraz aksiyalarında hökumət məmurları tərəfindən öldürülən Cavad Heydərinin atası, anası və daha bir qardaşı da həbs edilib. Bu barədə ailənin qızı Fatimə Heydəri məlumat verib: "Bir neçə dəqiqə öncə atam, anam və qardaşımı qandallayaraq apardılar. Ailəmizdən bir nəfəri öldürüb, 3 nəfəri isə həbs ediblər. Ailəmə təzyiq göstərərək öldürülən qardaşımın məzar daşının dəyişdirilməsini tələb edirlər".

Fatimə Heydəri bildirib ki, Cavad Heydəri sentyabrın 22-də Qəzvin şəhərində hökumət məmurlarının açdığı atəş nəticəsində həyatını itirib. Onun Məhəmməd, Höccət və Mustafa adlı 3 qardaşı da həbs edilib. 40 gün sonra onlar müvəqqəti olaraq girov qarşılığında sərbəst buraxılmışdılar. Ötən gün dördüncü qardaşı Ruhullah Heydəri həbs edilib. Bu gün valideynləri ilə birgə həbs edilən isə bir müddət öncə müvəqqəti azadlığa buraxılmış Məhəmməd Heydəridir.

İranın ali dini lideri Əli Xameneyi isə bu günlərdə qadın şairlərlə görüşündə deyib: "Ölkədə məcburi hicab qaydalarına qarşı qadınların etirazları düşmən hiyləsidir. 1979-cu ildə İranda baş verən inqilabda qadınlar xüsusi rol oynadığı üçün Qərb ölkələri tərəfindən sevilmirlər. Qərb ölkələri İran qadınlarından acıqlıdır".

Xatırladaq ki, 2022-ci ilin sentyabr ayından başlayan etiraz aksiyalarında 36 qadın hökumət məmurları tərəfindən öldürülüb. İnsan haqları təşkilatlarının hesabatlarına görə, məcburi hicab qaydalarına etiraz etdiklərinə görə yüzlərlə qadın həbs edilib və onlardan bəziləri məcburi etiraf almaq üçün zorakılığa məruz qalıblar.

İranın Mərkəz əyalətinin Ərak şəhərində isə məcburi hicab və orucluq ayı qaydalarına riayət etmədiklərinə görə 41 iş yerinin lisenziyası ləğv edilib. Bu barədə Mərkəz əyaləti polis idarəsinin nümayəndəsi Mehdi Təqəviniya məlumat verib. Qeyd edək ki, son iki həftədə İranda məcburi hicab qaydalarına riayət edilməyən, orucluq ayında müştərilərə xidmət göstərən, musiqi səsləndirilən və digər səbəblərə görə 1000-dən çox iş yerinin fəaliyyəti qadağan edilib.

Güney Azərbaycanın Marağa və Əcəbşer şəhərlərinin qızlar oxuyan iki orta məktəbində 95 şagird zəhərlənərək xəstəxanalara yerləşdirilib. Bu barədə Şərqi Azərbaycan Təcili Yardım Mərkəzinin rəhbəri Əsgər Cəfəri mediaya açıqlamasında bildirib. İranda qız məktəblərində şagirdlərin zəhərlənməsi ilk dəfə 2022-ci il noyabrın 9-da Qum şəhərində qeydə alınıb. Bu günədək 26 əyalətin 233 məktəbində 5 mindən çox qız şagird zəhərlənib.

Ölkədə edamlar da davam etdirilir. İranın Şiraz və İsfahan şəhərlərinin həbsxanalarında ən müxtəlif ittihamlarla beş məhkum edam edilib. Bu barədə məlumat verən İran İnsan Haqları Təşkilatından bildirilib ki, onlardan biri qadındır.

Ümumiyyətlə, bu ilin iki ay yarımı ərzində İran həbsxanalarında 138 məhkum edam edilib ki, bu son 8 ilin ən yüksək göstəricisidir.

Ziyalılar ölkədə baş verən haqsızlıqlara dözə bilmirlər. Dünən yayılmış məlumata görə, Gilan əyalətinin Ənzəli şəhərindən olan 74 yaşlı tanınmış rejissor Kiyumərs Purəhməd intihar edib. Bu barədə onun yaxınları məlumat yayıblar. İranın SEPAH-a yaxın və hakimiyyət mediası rejissorun ürək çatışmazlığından dünyasını dəyişdiyini desələr də, mərhumun yaxınları bunu təkzib ediblər.

Onlar rejissorun ölkədə baş verən hadisələrdən və hakim rejimin xalq üçün yaratdığı durumdan sarsıldığını deyiblər. Sənət adamının depressiya keçirdiyi və məktub yazdıqdan sonra özünə qəsd etdiyi bildirilir.

**P.ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

# Əksər xalqlar və təbəqələr fars rejiminə qarşıdır

**Tehranın molla rejiminin öz vətəndaşına qarşı tətbiq etdiyi despotik idarəetmə üsulunun sonda öz başında çatlayacağı qaçılmazdır.**



Ötən ilin sentyabrında Tehranda əxlaq polisinin gənc qızı döyərək öldürməsi, onsuz da fars-molla rejimindən narazı kütlənin səbir kasasını daşdırdı. Küçələrə axışan xalqın antidemokratik üsuli-idarəni dəyişmək, ifrat şəriət qanunlarını aradan qaldırmaq tələbinin qarşısına hakimiyyət top-tüfənglə çıxdı. Bundan daha da qeyzlənən etirazçılar radikal addımlar atmağa, siyasi şüarlar səsləndirməyə başladılar. Kütləvi etirazlara zor tətbiqi ilə son qoymağa ümidli olan hökumət geniş həbslərə və edamlara qərar verdi.

İranın daxilində son 8 ayda cərəyan edən ictimai-siyasi hadisələrin qısa xronikası həm də onu göstərir ki, mövcud rejimə qarşı etiraz aksiyasına əhalinin ən müxtəlif təbəqələri qoşulmaqdadır. Son günlər Urmiyada orta məktəb müəllimləri sosial durumları, maaş azlığı ilə bağlı mitinqlər keçirirlər. Onların rejimə qarşı çıxışlarının görüntüləri sosial şəbəkələrdə də yayımlanıb.

Başqa bir xəbərdə deyilir ki, Təbrizdə müəllimlər Təhsil Nazirliyinin yerli idarəsinin qarşısına toplaşaraq əmək haqlarının artırılmasını, qanunla nəzərdə tutulan imtiyaz və hüquqlarının yerinə yetirilməsini tələb ediblər. Onlar binanın qarşısına "Bu bina müəllimlərin əmək haqqını ödəmək üçün satılır" bannerini asıblar.

İranın bütün əyalət və şəhərlərini bürümüş etiraz aksiyalarına əhalinin, demək olar ki, bütün təbəqələri qoşulub. Fars-molla rejimi isə xalqın səsinə qulaq asmaq, problemləri aradan qaldırmaq əvəzinə, insanlara divan tutmağın miqyasını genişləndirir. Dəqiqləşdirilməmiş məlumata görə, aksiyalar dövründə 200-dən çox etirazçı edam olunub, 500-dən çoxu isə zindanlara atılıb.

Əslində, son etirazlar İran hakimiyyətinin əsl simasını bir daha göstərdi. Molla rejimi 44 il əvvəl olduğu kimi, yenə insanları məhkəməsiz cəzalandırır, heç bir məsuliyyət daşımadan dar ağacından asır. Bu ölkədə vətəndaşın hakimiyyət üçün heç bir dəyəri yoxdur. Bütün səviyyələrdə məmurlar dinc insanlarla quldurcasına davranırlar. İlkin məlumata görə, hərbi polis qüvvələri aksiyalar zamanı 68 yeniyetməni küçələrdə və zindanlarda öldürüb.

Bütün bunlar onu deməyə əsas verir ki, molla rejimi idarəetmə üsulunda müəyyən islahat apararaq azad, demokratik mühit yaratmaq barədə qətiyyən düşünmür. Ölkənin hakim rejiminin yürütdüyü zorakı siyasət, nəhayət, ölkədəki bütün xalqların, cəmiyyətin əksər təbəqələrinin ciddi narazılığı, özbaşınalıqlara davamlı müqaviməti ilə üzləşib. Bu, tarixdən hamıya bəlli olan aşkar inqilabi vəziyyət deməkdir.

Əgər belə davam edərsə, vəziyyətin getdikcə daha da gərginləşəcəyi və vətəndaş etirazlarının ümumölkə itaətsizliyi həddinə çatması gözləniləndir.

**İ.HƏSƏNQALA, "Xalq qəzeti"**

# Təbrizdə Füzulinin heykəlinə hücum çəkənlər kimlərdir?

**Azərbaycanın ustad söz adamlarının əsərləri qiymətli mənəvi sərvətimiz, şöhrətləri milli öyünc mənbəyimizdir. Xalqın adını tarixdə və dünyada ucaldan belə insanların yadigarları hər birimizə doğma, xatirələri isə olduqca əzizdir.**

Bu sevgini görüntüləşdirmək üçün küçələrə, meydanlara, şəhərlərə, rayonlara, kəndlərə, müxtəlif qurumlara və obyektlərə onların adlarını veririk. Dahilərimizə sahib çıxıb məşhurlaşdırmaq, xatirələrinə böyük ehtiramımızı əbədiləşdirmək üçün heykəlləri ucaldırıq. Düşmənlərimiz üstümüzə yeriyəndə, torpaqlarımızı işğal edəndə isə yurdumuza və keçmişimizə sahibliyimizin izlərini itirmək üçün bütün bunlara da qənim kəsilir, insanlarla yanaşı tarixi abidələri də məhv edir, heykəlləri də güllələyirlər.

Qarabağ müharibəsi zamanı kükrəyən erməni vandalizmi milli nifrətdən qaynaqlanmışdı. Qəbuledilməz olsa da başa düşülən idi. Onlar maddi-mənəvi sərvətlərimizi yağmalayıb talan etməklə, abidələrimizi məhv etməklə düşmənçiliklərini və özlərinin kim olduqlarını ortaya qoyurdular. Qarabağ erməni tapdağından azad olunanda Füzuli şəhərində Məhəmməd Füzuli kimi dahinin abidəsi dağıdılmış vəziyyətdə tapıldı. Heykəlin yerləşdiyi parkın ərazisi isə cəngəlliyə çevrilmişdi.

Buradan belə qənaət hasil olur ki, abidələrimizi dağıdıb təhqir edənin qəsdi səni bir xalq olaraq yox etməkdir. Söz yox ki, zaman-zaman bütün yaralar sağalacaq, Füzuli şəhəri də əvvəlkindən daha yaraşıqlı görünəcək. Deyirlər ki, dost dostu çətin gündə, sınaqlarda tanıdığından yaddaşımız bu dəfə daha möhkəm olacaq.

Niyə Füzulinin abidəsini yada saldıq? Məsələ burasındadır ki, Güney Azərbaycanın baş şəhəri, milyonlarla soydaşlarımızın yaşadığı, milli ruhumuzun qədim və müqədəs məkanı Təbrizdə də Füzulinin heykəli təcavüzə məruz qalıb. Ermənilər Təbrizidəmi işğal ediblər? Hər halda burada bir düşmən qəsdi, yağı nifrəti, milli heysiyyatı aşağılamaq əlaməti aşkardır. Bu abidə Təbriz Bələdiyyəsinin Mənzəriyyə xiyabanında qoyulmuşdu və güneylilərin keçmişimizə ehtiramlarının



öyünclü nişanəsi kimi qiymətli idi.

2020-ci ilin ortalarında abidə götürüləndə şəhər bələdiyyəsinin rabitə və beynəlxalq işlər üzrə baş direktoru Səid Hacızadə bildirib: "Mənzəriyyə meydanında Molla Məhəmməd Füzulinin heykəlinin sökülməsi bəzi təmir işləri ilə əlaqədar idi. Təmirdən sonra böyük şairin heykəli yenidən yerinə qoyulacaq". Xatırladaq ki, bir həftə əvvəl abidə gözlənilmədən "itkin düşüb" və bununla bağlı heç bir rəsmi açıqlama verilməyib. Elə bu anda ictimai rəy köməyə gəlib. Qorxuya düşən bələdiyyə rəhbərliyi tezliklə heykəli yerinə qaytarmağa məcbur olub.

Bugünlərdə isə Təbriz şəhərində Füzulinin heykəli üzərinə təhqiramiz sözlər yazıldığı barədə xəbər otaylı-butaylı Azərbaycanda hamını həyəcana gətirdi. Təbii ki, həmin nalayiq sözlərin "müəllifləri" xalqın reaksiyasını yoxlamaq istəyiblər: yəni kim yatmış, kim oyaq? Gördülər ki, 50 milyonluq xalqımız oyaqdır. Cızmaqaraçıların kimliklərinin bu günədək tapılıb açıqlanmaması isə onların gizlədilməsi və sifarişçilərin xalq qəzəbindən qorxması ilə bağlıdır.

Azərbaycanlılar Məhəmməd Füzulini sevir və adını əbədi hörmətlə saxlamaq üçün heç bir təhlükədən çəkinmirlər. Şübhəsiz. Hakim molla rejiminin nökərləri budur. Belələrini Qarabağda Natəvanın, Üzeyirin, Bülbülün, Füzulinin abidələrini güllələyib dağıdanların aqibəti gözləyir.

**Rəhman GƏNCƏLİ**

# Mətbuat Şurası və Mediasiya Şurası Anlaşma Memorandumu imzaladılar



**Azərbaycan Mətbuat Şurası ilə Mediasiya Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Bu barədə "Xalq qəzeti"nə məlumat Mətbuat Şurasından daxil olub.**

Məlumatda bildirilib ki, imzalanmış sənədlə bağlı keçirilmiş toplantını giriş sözü ilə MŞ sədri Rəşad Məcid açıb. Deyib ki, rəhbərlik etdiyi qurumla Mediasiya Şurasını birləşdirən, müəyyən mənada, ortaq fəaliyyəti təsdiqləyən bir neçə məqam var. Bunlardan birincisi odur ki, hər iki qurum cəmiyyətyönümlüdür, barışdırıcı missiya daşıyır. Mətbuat Şurası media ilə ictimaiyyətin müxtəlif təbəqələrinə məxsus şəxslər arasında kompromis variantların axtarışını, Mediasiya Şurası isə ümumən, vətəndaşlar arasında mübahisəli məsələlərin aradan qaldırılmasını hədəf seçib. İkinci məqam hər iki qurumun məhkəmələrin yükünün azaldılmasına xidmət edən fəaliyyəti ilə bağlıdır.

Mətbuat Şurası ilə Mediasiya Şurası arasında Anlaşma Memorandumu mətninin hazırlanmasında iştirak etmiş MŞ İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib ki, ümumən, mediasiya anlayışının cəmiyyətdə təbliğinə ehtiyac var. O, sənədin bu baxımdan faydalı olacağına inandığını deyib.

Mediasiya Şurası İdarə Heyətinin üzvü Nadir Adilov rəhbərlik etdiyi qurumun fəaliyyətindən söz açıb. Bildirib ki, qısa müddətdə əldə edilmiş bütün uğurlarda media orqanlarının apardıqları təbliğatın payı böyükdür. Bu təbliğat Mediasiya Şurasına inam və etimad formalaşdırmaq zəminində idi və xeyli müsbət nəticələr əldə etməyə imkan verdi.

N.Adilov vurğulayıb ki, Mediasiya Şurasının ötən il müxtəlif vətəndaşlar arasında barışıq yaratma göstəricisi 39 faiz olub. Bu isə əvvəlki hesabat ili ilə müqayisədə dəfələrlə çoxdur. Şuranın əsasən əmək, kommersiya, ailə-məişət məsələləri ilə əlaqədar mübahisələrin aradan qaldırılması istiqamətində çalışdığını diqqətə çatdıran Nadir Adilov çıxışında, həmçinin media təmsilçilərinin mediator fəaliyyəti göstərməsinin daha uğurlu nəticələr verdiyini diqqətə çatdırıb.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, cəmiyyətdə mediasiya ilə əlaqədar maarifləndirmə işlərinin aparılması üçün media orqanlarının mövcud istiqamətdəki fəaliyyətinin müəyyən qədər stimullaşdırılmasına ehtiyac duyulur ki, bu baxımdan hər iki qurumun atacağı ilk birgə addım jurnalistlər arasında yazı müsabiqələrinin təşkili ola bilər.

*R.AMİN*

# Balaca ixtiraçıların yaradıcılıq dünyası

**Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə "STEAM Azerbaijan" layihəsi 2019-2020-ci tədris ilindən start götürüb və dörd ildir ki, bir sıra məktəblərdə pilot layihə kimi tətbiq olunur. Bu, texnologiyanın yeni imkanlarıdır. Müəyyən uğurlar da qazanılıb.**

A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseyə getməkdən məqsədimiz orada STEAM dərslərinin tədrisi ilə tanış olmaqdır. Bizi təhsil ocağının direktoru Esmira Ağayeva qarşılayır. Orada yaradılmış şərait, təcrübəli müəllim heyəti, yaradıcı şagirdlər ilk andan xoş təəssürat yaradır.

Direktor bildirir ki, 2019-cu ildən tətbiqinə başlanan STEAM layihəsinin əsas məqsədi təhsilalanlarda tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və s. kimi XXI əsrin bacarıqlarını formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir. STEAM təhsil metodu şagirdlərimizə elm, texnologiya, mühəndislik, riyaziyyat olmaqla, beş sahənin birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulub. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEAM təhsili praktik məşğələlər vasitəsilə biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərir.

Layihə müasir təhsil çağırışları əsasında inkişaf etmiş ölkələrdə tətbiq edilən yeniliklərin ölkəmizdə tətbiqi imkanlarının öyrənilməsi və tədrisinə xidmət edir və 6-cı siniflərdən başlayaraq tədris olunur.

STEAM dərsləri "3D çap", "Micro-bitlə proqramlaşdırma", "Elektrik mühəndisliyi", "Biotexnologiya", "Nano-texnologiya", "Robototexnika", "Gen mühəndisliyi", "CNC lazer kəsiciləri", "Pilotsuz uçuş aparatları (tədris dronları)" üçün hazırlanmış kurikulum üzrə təşkil olunur. Məktəb-liseyin Azərbaycan və rus bölmələrindən 1589 şagird STEAM təhsili alır.

Məktəb-liseydə müasir avadanlıqla təchiz edilmiş siniflərlə tanış oluruq, şagirdlərin əl işlərinə baxırıq. Çinarə Kazımova STEAM, rəqəmsal bacarıqlar, ARTİ layihələri üzrə təlimçi, müəllimdir. Elm və Təhsil Nazirliyinin VI qrant müsabiqəsinin qalibi olub. O bildirir ki, süni intellekt şagirdlərin təhsilləri ilə qarşılıqlı əlaqədə inkişaf etmək potensialına malikdir. Bu layihə ilə işləyən sistemlər qiymətləndirmə və planlama kimi inzibati tapşırıqları sadələşdirməyə, müəllimlərin tədrisə və tələbə dəstəyinə diqqət ayırmaq üçün vaxtını azad etməyə kömək edə bilər. Ümumilikdə, süni intellekt öyrənmə nəticələrini yaxşılaşdırmaq və ümumi təhsil təcrübəsini artırmaqla təhsili dəyişdirir.

Məktəb-liseydə STEAM dərslərini keçən müəllimlər bu bacarıqlara "STEAM Azərbaycan Mərkəzi"ndə kurs keçməklə yiyələniblər. Təlimlərə texnologiya, riyaziyyat, informatika, fizika, kimya kimi fənləri tədris edən müəllimlər qatılıblar. Mərkəzin monitorinq bölməsinin əməkdaşları dərslərin gedişatını izləyib rəy verirlər.

Son 1-2 il ərzində məktəbin yetərincə uğurları da olub. Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq "STEAM Azərbaycan Festivalı 2022"də "Vex V5" kateqoriyası üzrə iştirak edən X-RAY komandası "Create Award kuboku"nu alıb. "Robotiks" kateqoriya üzrə iştirak edən 3 və 4-cü sinif şagirdləri isə 3-cü yerə çıxaraq "Attractive Team-2022" nominasiyasına layiq görülüblər. Nazirliyin bu il yanvarın 27-də "Gələcəyin mühəndisi" IV Respublika müsabiqəsində də liseydən qaliblər olub. Belə ki, 15-17 yaş kateqoriyası üzrə 2-ci yerə kollektiv şəklində "BioSpace" komandasının üzvləri Nihad Qənbərov, Həsən Hüseynov, Fatimə Əbilova, Elturan Cəbrayılov layiq görülüblər. Bunlardan başqa, Nihad Qənbərov, Həsən Hüseynov "Vex V 5" yarışmasında fərqləniblər. Komanda yarışmada "Robot Skills " üzrə də çempion olub".

10-cu sinif şagirdləri Nihad Qənbərov və Həsən Hüseynovla həmsöhbət oluruq. Onların deyirlər ki, hər yarışa sevgi ilə hazırlaşırlar. Daha çox komanda şəklində çıxış edirlər. Çünki qiymətləndirən mütəxəssislər komandanın birliyinə, dostluq-əməkdaşlığa da nəzər yetirirlər.

Məktəb-liseyin təmsilçiləri "TEKONOFEST-Azərbaycan" yarışmasına ağıllı zibil qutuları layihəsi ilə qatılmışdılar. Layihə əlil, görmə zəifliyi olan insanlar üçün nəzərdə tutulub. Zibil qutularının üzərinə sensor quraşdırılıb, onlara yaxınlaşan zaman sensor gələnin insan olduğunu müəyyən edərək, qutularının qapaqlarını açır. Zibil atıb uzaqlaşanda isə qapaqlar avtomatik bağlanır. Bu layihə də çox bəyənilmişdi.

Nihad Qənbərov onu da bildirdi ki, ABŞ-ın Texas ştatının Dallas şəhərində keçirilən yarış sayəsində ölkəmizə "Energy Team" kubokunu gətiriblər. Həmin "Vex V5" yarışması iştirakçı sayına görə rekordlar kitabına düşüb. Qaliblər qayıdanda məktəbdə möhtəşəm şəkildə qarşılanıblar…









Dərs əsnasında məktəbin rəqəmsal bacarıqlar üzrə müəllimi Aysel Fətəliyeva, STEAM müəllimləri Üzülfət Umayeva, Mehriban Əliyeva və psixoloq Aqil Mübarizlə də görüşüb tanış olur, dərs prosesini izləyərək zəngin təəssürat əldə edirik. Görürük ki, biliyin tətbiqi, dərsə münasibətdə yeni yanaşma tamam fərqli bacarıqlar ortaya qoyur. Bu, həm də şagirdlərin özünə inamını artırır, müstəqil fikir yürütmələrinə imkan yaradır.

STEAM texnologiyanın daha mükəmməl formasıdır. Bu metodla şagirdlərin özlərinin də bilmədiyi bacarıqları üzə çıxır. Onların məntiqi, tənqidi, yaradıcı təfəkkürü və düşünmə qabiliyyəti inkişaf edir.

*Əli NƏCƏFXANLI,*
*Rizvan FİKRƏTOĞLU,*
*"Xalq qəzeti"*

Səhiyyə

**Səhiyyə Nazirliyində Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Nuno Keyrosla görüş keçirilib. Nazir Teymur Musayev Azərbaycanın BMT-nin müxtəlif qurumları ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayıb. Bildirib ki, "2021–2025-ci illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi" ikitərəfli əməkdaşlığın strateji istiqamətlərini müəyyən edir. Nazir sayca beşinci olan çərçivə sənədinin icrası nəticəsində BMT ilə Azərbaycan arasında əlaqələrin tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.**

# BMT ilə əməkdaşlıq genişlənir



Azərbaycanla BMT-nin İnkişaf Proqramı (BMT İP) arasında səhiyyə sahəsində səmərəli əməkdaşlığın olduğunu diqqətə çatdıran T.Musayev bildirib ki, ölkəmizdə universal tibbi təminatın təşkili və milli səhiyyə sisteminin pandemiya və kəskin xəstəliklərə qarşı dayanıqlığının artırılması əməkdaşlığımızın əsas istiqamətlərindən biridir. Azərbaycanın BMT-nin İnkişaf Proqramı ilə uğurlu tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihələr Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün mühüm əhəmiyyət kəsb edir.

Nuno Keyros gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu deyib. Bildirib ki, son illər Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi məqsədilə islahatların aparılması və tibbi xidmətlərə hərtərəfli əhatəsinə nail olunması istiqamətində mühüm işlər görülüb. O, həmçinin Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə tibb müəssisələrinin yaradılmasında BMT İP-nin köməyini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə yeni birgə layihələrin həyata keçirilməsi (səhiyyə informasiya sistemlərinin təkmilləşdirilməsi; ilkin səhiyyə xidmətlərinin gücləndirilməsinə dəstək; yoluxucu xəstəliklərlə mübarizə sahəsində əməkdaşlıq) və maraq doğuran digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

### "Elektron xəstəlik vərəqəsi"nə keçid

Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən "Elektron xəstəlik vərəqəsi" (e-bülleten) informasiya sistemi hazırlanıb. Layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ilə birgə əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında vərəqələrə dair məlumatların vahid elektron reyestrdə birləşdirilməsi, kağız daşıyıcıların saxlanması və əmali ilə bağlı böyük işdən uzaqlaşması, o cümlədən sığortaçıların xərclərinin azaldılması və dövlət büdcəsinin yükünə qənaət edilməsi məqsədilə həyata keçirilir.

Bu təşəbbüsə əsasən, tibb müəssisəsi tərəfindən yazılan və müvafiq tibb işçisinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilmiş elektron xəstəlik vərəqəsi müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə müavinətlərin təyini və ödənilməsi üçün əsas olacaq. İşəgötürənlər üçün e-bülletenin ƏƏSMN-in informasiya sistemində, tibb işçiləri üçün isə "e-səhiyyə" portalı və mobil tətbiqində əlçatanlığı təmin ediləcək.

Xəstəlik vərəqəsinin elektron sənəd şəklində formalaşdırılması müvafiq tibb müəssisələri, ƏƏSMN və işəgötürənlər arasında məlumat mübadiləsi üçün avtomatlaşdırılmış məlumat mübadiləsi sistemindən istifadə etməklə həyata keçiriləcək. Proses iştirakçılar arasında qarşılıqlı informasiya mübadiləsi qaydaları bütün iştirakçılar üçün eyni olacaq və qanunvericiliyə uyğun şəkildə hüquqi sənəd formasında təsdiq ediləcək.

"Elektron xəstəlik vərəqəsi" sisteminə keçid sığorta dələduzluğu hallarının minimuma endirilməsi, analitik hesabatların və tibbi məlumatların etibarlılığının artırılması, bu növ müavinətlər üzrə ödənişlər üçün dövlətin maliyyə xərcləri ilə bağlı proqnozların keyfiyyətinin yüksəldilməsi, həmçinin xəstəlik vərəqəsinin statusu barədə məlumatların onlayn formatda vətəndaşlar və işəgötürənlər üçün əlçatanlığını təmin edəcək.

Qeyd edək ki, elektron xəstəlik vərəqəsinin formalaşdırılması şərtləri və qaydaları səhiyyə sahəsində dövlət siyasətinin və hüquqi tənzimlənməsinin işlənib hazırlanması və həyata keçirilməsi funksiyalarını təmin edən Səhiyyə Nazirliyi tərəfindən hazırlanıb və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılıb.

*Zərifə HÜSEYNOVA,*
*"Xalq qəzeti"*

*Ekoaksiyanın gündəliyi*

# Ekoloji terrorun qarşısı kəsilib

*Laçın–Şuşa yolundan isə dünən 100-dən çox humanitar maşın keçib*

**Laçın–Xankəndi yolunda ekoaksiya keçirən könüllülərimiz ərazilərimizdə erməni barbarlarının törətdikləri ekoloji terrorla bağlı dünya ictimaiyyətinə çağırışlarını davam etdirirlər. İşğal olunmuş ərazilərimizdə müdhiş təhlükəyə çevrilən ekoloji problemlərə etiraz edənlər humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə həmişəki kimi, yenə də manea törətməyiblər. Belə ki, Rusiya sülhməramlı kontingentinə məxsus avtomobillər aksiyanın təşkil olunduğu ərazidən sərbəst keçirlər. Nəqliyyat vasitələrinin arasında evakuasiya, mətbuat, tibbi yardım maşınlarının, eləcə də təminat-təchizat və minik avtomobillərinin olması yolun humanitar məqsədlər üçün açıqlığını göstərir.**




Artıq 118 gündür yüksək ruhla davam edən aksiya bir daha göstərir ki, doğma Qarabağımızın milyon illərin tarixindən süzülüb gələn sirli təbiətinə qənim kəsilən düşmənin məkrli planlarına qarşı xalqımızın mübarizəsi getdikcə dönməz xarakter alır. Ermənistanın törətdiyi ekoloji cinayətlərə dözməyən, onun dayandırılmasını tələb edən ölkəmizin QHT təşkilatlarının nümayəndələrinin, ayrı-ayrı qruplar şəklində tələbə gənclərimizin, könüllülərimizin 3 aydan çoxdur davam edən aksiyasının mərami aydındır. Bunu yüksək səslə beynəlxalq auditoriyalarda, nüfuzlu tədbirlərdə alınaçıq, üzüağ səsləndirməyimiz erməni tərəfində böyük təlaş yaradır. Erməni lobbisinin böyük canfəşanlıqla Ermənistan mətbuatında yayılan və etirazçıların guya, Xankəndi–Laçın yolunu bağladıqları, təminat avtomobillərini buraxmadıqları ilə bağlı dünyada dezinformasiyalar yaymaşı da tədbirin geniş xarakter aldığını sübut edir. Elə bu günlərdə erməni mətbuatının "Kipr parlamenti qəbul etdiyi qətnamədə Bakını dərhal Laçın dəhlizini açmağa çağırıb" sərlövhəli xəbəri bəh-bəhlə tirajlamaları aksiyanı dayandırmaq üçün beynəlxalq səviyyədə müntəzəm iş apardıqlarını göstərir. Amma dayandırılması tələb edən haqlı etirazlar, eləcə də aksiyanın getdikcə mütəşəkkil hal alması onu deməyə əsas verir ki, heç bir kənar təzyiq ümumbəşəri təhlükə olan ekoloji böhrana haqq qazandıra bilməz. Ekofəallarımız terrora məruz qalan ana təbiətin harayına tələsirlər.

Xarici media, həmçinin beynəlxalq təşkilatların nümayəndələrinin yaxından maraqlandıqları ekoaksiyada iştirak etmək və onu işıqlandırmaq üçün Qarabağa gəlmələri tədbirin qlobal əhəmiyyət daşıması ilə yanaşı, haqq səsimizin eşidildiyini göstərir. Aksiyanın dayandırılmasını tələb edən düşmən, həm də istəmir ki, xarici təşkilat nümayəndələri ötən on illər ərzində qədim şəhər və kəndlərimizin, meşələrimizin necə vəhşilklə yerlə-yeksan edilməsini, ərazilərimizdə boş səhra yarandığını görsünlər.

Ümumbəşəri təhlükə olan ekoloji böhranın səbəblərinin aradan qaldırılması üçün xalqımızın gücü, potensialı ilə yanaşı, nüfuzu da kifayət qədərdir. Azərbaycan kimi demokratik ənənələrin bərqərar olduğu və dünyaya açıq ölkələr öz ərazilərində ekoloji tarazlığın pozulması ilə heç vəchlə barışa bilməzlər.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

# “Əzilənlərin gur səsidir o...”

## Ən doğru qərarı türk xalqı verəcək



**Bu günlərdə qardaş Türkiyə öz siyasi tarixinin gərgin bir dönəmini yaşayır. Belə ki, bu il mayın 14-də ölkə vətəndaşları “sandıq başında” dövlət başçısını və parlamentin növbəti tərkibini seçəcəklər. Proqnoz verənlər də, ehtimal və gözləntilər də çoxdur.**

Dünyanın siyasi elitasının, politoloq və şərhçilərin diqqəti Türkiyəyə yönəlib. Hamını ən çox belə bir məchulun cavabı düşündürür: Türkiyənin növbəti prezidenti kim olacaq? İyirmi ildən çox ölkəni idarə edən xarizmatik siyasətçi Rəcəb Tayyib Ərdoğan seçkiləri bu dəfə də uda biləcəkmi?

Türkiyənin yaxın-uzaq ölkələrdəki dostları hazırkı dövlət başçısının hakimiyyətdə qalmasını arzulayır. Onlar hesab edirlər ki, dünyanın bu gərgin dönəmində R.T.Ərdoğan kimi prinsipial, qətiyyətli siyasətçinin Türkiyənin idarəçiliyi sükanının arxasında qalması qardaş ölkəni daha da güclü və qüdrətli edəcək.

Türkiyənin rəqibləri isə bunun əksini arzulayırlar. Onlar ölkəni 1990-cı illərin sonlarında olduğu kimi, yenə də başı daxili çəkişmələrə qarışan zəif, sözəbaxan bir dövlət kimi görmək istəyirlər. Axı, Yaxın Şərqdə, Balkanlarda, Afrikanın şimalında, Cənubi Qafqazda və Orta Asiyada haqqın və ədalətin tərəfində duran Türkiyə çoxlarına sərf etmir.

Əlbəttə, son və həlledici sözü müdrik türk xalqı deyəcək. Biz çox arzulayardıq ki, türk qardaşlarımız ən düzgün və ədalətli seçim etsinlər. Çünki onların budəfəki seçimi təkcə bu ölkənin deyil, bütün türkdilli, eləcə də müsəlman dövlətlərinin və onların xalqlarının taleyinə təsir edəcək.

Bu gün “R.T.Ərdoğan Türkiyə üçün nə edib?” sualını verməyə çox adamın dili gəlməz. Onun iqtidarı dönəmində ölkədə ümumi daxili məhsulun həcmi üç dəfədən çox artıb. Bu, çağdaş tarixdə çox az sayda dövlətlərin rəhbərlərinə nəsib olub. Hazırkı dövlət başçısının lehinə çox sayda başqa uğurları yada salmaq olar. Amma bütün bunları sadalamağa bəlkə də ehtiyac yoxdur.

Dünya bilir ki, R.T.Ərdoğanın liderliyi ilə Türkiyə siyasi, iqtisadi, hərbi, texnoloji cəhətdən çox güclənib. Ölkə, həqiqətən, regionda və dünyada söz və qüdrət sahibinə çevrilib. Heç kəs inkar etmir ki, Türkiyənin daxilində müəyyən problemlər də mövcuddur. Xüsusilə, artan makroiqtisadi problemlər, lirənin dollar qarşısında dəyər itirməsi, bahalaşma və s. göz qabağındadır.

O biri tərəfdən uzun illər iqtidara can atan Türkiyə müxalifəti mövcud çətinliklərdən faydalanıb arzusuna çatmaq istəyir. Müxalifətçiləri qınamaq olmaz. Türkiyə sivil, demokratik dövlətdir, xalqın etimadını qazanan partiyanın iqtidara yolu açıqdır.

Dünya təcrübəsi göstərir ki, bəzən seçicilər seçimlərində kritik səhvə yol verirlər. Xatırladaq ki, İkinci Dünya müharibəsində Böyük Britaniyanın faşizm üzərində parlaq qələbəsində böyük xidmətləri olan baş nazir Uinston Çörçil 1945-ci il seçkilərini uduzub. Düzdür, bir neçə ildən sonra Britaniya vətəndaşları Çörçilə yenidən etimad göstəriblər.

Fransanın siyasi həyatından da buna bənzər nümunə çəkmək olar. Belə ki, Prezident Şarl de Qoll 1969-cu ildə onun təşəbbüsü ilə keçirilən referendumda istəyinə nail ola bilməyib. Fransızlar xeyli sonra dərk etdilər ki, de Qolla münasibətdə haqsızlıq ediblər.

Bir qədər əvvəl qeyd etdik ki, R.T.Ərdoğanın liderliyi ilə Türkiyə Cümhuriyyəti son iki onillik ərzində böyük inkişaf və tərəqqi yolu keçib. Onun Türkiyədə və bütün dünyada böyük nüfuzu var. Lakin R.T.Ərdoğanı Çörçil və de Qollun taleyi gözləyə bilərmi? Həyatda hər şey ola bilər, amma olmasa yaxşıdır! Bu, hər an ürəyimizdən qopan nidanın səsidir!

Yenə deyirik, bizim türk xalqının daxili işlərinə qarışmağa hüquqi və mənəvi haqqımız yoxdur. Sadəcə, arzu və istəklərimizi dilə gətiririk. Sözümüzün canı budur ki, bu gün dünyanın çox qarışıq dönəmidir. Yeni dünya düzəni formalaşır. Belə bir məqamda R.T.Ərdoğan kimi güclü liderə böyük ehtiyac var!

Son illər R.T.Ərdoğan haqqında bir neçə mahnını böyük sevgi və riqqətlə dinləmişik. Mahnılardan birini məşhur türk müğənnisi Uğur İşılak oxuyur:

***“Əzilənlərin gur səsidir o,***
***Susqun dünyanın hürr səsidir o.***
***Göründüyü kimi olan,***
***gücünü millətdən alan***
***Rəcəb Tayyib Ərdoğan.”***

***M.HACIXANLI,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Aydın İBRAHİMOV,**
**BDU-nun professoru, coğrafiya elmləri doktoru:**

– Türkiyə Cümhuriyyəti XXI əsrin ən gərgin seçki kampaniyasını yaşayır. İki blok yarışır: “Cümhur İttifaqı” (AKP, MHP və digər partiyalar) və “Millət İttifaqı” (CHP, “İyi Partiya” və yeni qurulmuş 3 partiya).

Maraqlı məqam ondan ibarətdir ki, yeni qurulmuş partiyalar arasında Prezident Rəcəb Tayyib Ərdoğana əvvəldən yaxın olan siyasətçilər var: Bunlar Əli Babacan və Əhməd Davudoğludur. Lakin onların seçilmək ehtimalı 3-4 faizi keçmir.

Həmçinin ölkənin kürd seçiciləri tərəfindən dəstəklənən HDP partiyasından (hazırda parlamentdə üçüncü sırada yerləşir-red) prezidentliyə namizədlər irəli sürülməyib. HPDP-çilərin mənəvi lideri Səlahəddin Dəmirtaş öz çıxışlarında seçkilərdə iştirak edəcək şəxsləri Kılıçdaroğluna səs verməyə çağırır.

Budəfəki seçkilərdə əsas səciyyəvi cəhət ondan ibarətdir ki, səs hüququ olan vətəndaşlar həm dövlət başçısını, həm də parlamentin üzvlərini seçməlidirlər. Belə ola bilər ki, AKP lideri, hazırkı dövlət başçısı prezidentliyi qazana, amma partiyası parlament seçkilərini uduza bilər.

Yaxud, əksinə olar. Şərhçilərin çoxu birinci ssenarinin tərəfdarıdır. Düşünürlər ki, həm prezidentliyi, həm də parlamenti qazanmaq çətin olacaq. Belə olan halda ölkədə siyasi böhran yaşana bilər.

İndiki durumda prezidentliyə rəqiblərin şansları, demək olar ki, bərabərdir. Müxtəlif rəy sorğuları fərqli proqnozlar verir. Görünən budur ki, prezidentliyə əsas iki namizəd var: Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıcdaroğlu.

Digər iki namizəd – Məmləkət Partiyasından Məhərrəm İncə və Türkiyə İttifaqı Partiyasından, Azərbaycan əsilli Sinan Oğan seçicilərin səslərini bölə bilərlər. Belə ki, Məhərrəm İncə “Millət İttifaqı”nın səslərinin bir qismini ala bilər, çünki onun mühafizəkar atatürkçülər arasında nüfuzu böyükdür.

Türkiyədə, ümumiyyətlə, seçki kampaniyası çox sərt keçir, lakin türk milləti sonda ən doğru qərarı verir. Arzu edirik ki, bu dəfə də belə olacaq!



## “NATO hərbi xərclərini artırmalıdır”

**Bir neçə ildir ki, ABŞ Şimali Atlantika Alyansının – NATO-nun öz hərbi xərclərini artırması üçün ciddi səylər göstərir. Rusiya–Ukrayna münaqişəsi başlanan vaxtdan bu məsələ xüsusilə aktuallaşıb.**

Yeri gəlmişkən, dünən ABŞ-ın dövlət katibi Entoni Blinken NATO ölkələrini hərbi xərcləri artırmağa və ümumi daxili məhsulun iki faizdən çoxunu müdafiəyə ayırmağa çağırıb. Blinken bu çağırışı “Funke” media qrupuna müsahibəsində səsləndirib. O, 2022-ci ildən NATO-nun müasir çağırışları əks etdirən yeni strategiya konsepsiyasının qüvvəyə mindiyini qeyd edib.

Dövlət katibi sözügedən müsahibədə deyibdir: “Biz müharibənin əvvəlindən Ukraynaya hərbi dəstək göstəririk. Bu, alyans ölkələrinin silah ehtiyatlarının azalmasına səbəb olub. Boşluqları doldurmaq lazımdır. Biz hərbi istehsalın və müdafiə xərclərinin dayanıqlı və daimi ritmini təmin etməliyik”.

***“Xalq qəzeti”***

## Fransanı etirazlar bürüyüb

**Fransada Prezident Emmanuel Makronun pensiya islahatlarına qarşı etiraz aksiyalarının 11-ci seriyası davam edib. Aprelin 6-da bütün ölkə boyu keçirilmiş aksiyada yarım milyondan artıq insan iştirak edib. Məlumatı “Euronews” verib.**



Ancaq Fransa həmkarlar təşkilatının çağırışı ilə baş tutmuş kütləvi aksiyada etirazçıların sayı ölkə polisinə istinadən yuxarıda göstərilmiş rəqəmdən dörd dəfə artıq olub. Təşkilatın liderləri bildiriblər ki, bir həftədən sonra – aprelin 14-də Konstitusiya Şurası hökumətin pensiya ilə bağlı irəli sürdüyü qanun layihəsinin taleyinə aydınlıq gətirəcək. Hələ ki, həmkarlar və hökumət arasında bununla bağlı danışıqlar dalana dirənib. Odur ki, həmkarlar aprelin 13-də, Konstitusiya Şurasının iclasından bir gün əvvəl növbəti ümummilli aksiya keçirməyə çağırıb.

Budəfəki nümayiş də polislə toqquşmasız ötüşməyib. Fransa DİN-in bildirdiyinə görə, 111 nəfər saxlanılıb, onların yarısı Paris sakinidir. Ümumilikdə, 150 nəfər toqquşmalar nəticəsində xəsarət alıb. Aksiyaçılar Makronun Parisdəki “La Rotonde” adlı kafesini yandırıblar. Polisə butulka və boya atılıb. İki bank binasının şüşələri sındırılıb.

Fransızlar artıq 3 aydır ki, pensiya islahatlarına qarşı etiraz aksiyaları keçirirlər. İslahatlar pensiya yaşının 62-dən 64-ə qaldırılmasını və bəzi xüsusi pensiya rejimlərinin ləğvini nəzərdə tutur.

Dünən “Sarı jiletlilər” hərəkatının başçısı Terri-Pol Valet bildirib ki, pensiya islahatlarının qəbulu yaxın həftələrdə ölkədə sosial partlayışa səbəb olacaq.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

**Qərb Rusiya–Ukrayna münaqişəsinə münasibətdə Çinin Rusiyanın yanında duracağından narahatdır. Xüsusilə, Rusiyanın Çin tərəfindən ölümcül silahlarla təchiz olunması müharibənin uzanmasına səbəb ola bilər. Hadisələrin bundan sonrakı gedişatı Pekinin mövqeyindən çox şey asılıdır.**

# Çin seçim qarşısında: kollektiv Qərb, yoxsa Rusiya?!



Bu arada Ukrayna Prezidenti Volodimir Zelenski Çin lideri Si Cinpinə Moskvaya təsir göstərməyə çağırıb. Rəsmi Pekin tərəfindən bu məsələ ilə bağlı hələlik açıqlama verilməyib. Xatırladaq ki, Çin bir müddət əvvəl münaqişənin həlli üçün 12 bəndlik plan təklif edib.

Qərbdə çoxları hesab edir ki, Pekin artıq seçimini edib, nəyin bahasına olursa-olsun, Rusiyanın ağır məğlubiyyətə uğramasını arzulamır və bunun qarşısını almağa çalışır. Lakin Çinin Rusiyaya birbaşa dəstək verməsi Qərblə bütün körpülərin yandırılması olacaq. Pekin, böyük ehtimalla, hadisələrin bu istiqamətdə də inkişafını arzulamır.

Vəziyyət o qədər kritikdir ki, Avropanın iki yetkilisi –Fransa Prezidenti Emmanuel Makron və Avropa İttifaqının prezidenti Ursula fon der Lyayen Çin rəhbərliyi ilə danışıqlar aparmaq üçün Pekinə səfər ediblər. Onların hər ikisinin burada gərgin səfər qrafiki var.

Əvvəlcə Fransa Prezidenti Emmanuel Makron Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşərək onunla bir çox problemləri müzakirə edib. Fransa Qərbin mövqeyindən çıxış edərək bildirib ki, rəsmi Pekin Ukraynada sülhün əldə olunması üçün beynəlxalq hüququn tərəfində durmalı, “ümumi məsuliyyəti” bölüşməlidir.

Fransa rəsmiləri qeyd edirdilər ki, E.Makron çinli həmkarını Rusiya Prezidenti Vladimir Putinə Ukraynaya hücumu dayandırmaq üçün təsir göstərməyə çağıracaq. Lakin bu niyyətin baş tutacağına heç kim böyük ümidlər bəsləmir.

Qeyd edək ki, bir müddət əvvəl Moskvada rəsmi səfərdə olan Si Cinpin Kremldə bəyan etdi ki, iki ölkə arasında dostluq əlaqələrinin limiti yoxdur. Görünən budur ki, Çin rəhbərliyi Rusiya–Ukrayna müharibəsi başlanan vaxtdan bu günə qədər Kremli kəskin tənqid etməkdən çəkinib, yaxud bunu istəməyib.

Çin bu məsələdə zahirən bitərəf qaldığını bəyan etsə də, vəziyyət heç də göründüyütək deyil. Yuxarıda qeyd etdiyimiz kimi, Pekin Rusiyanın müharibəni uduzmasını istəmir və buna görə də ona gizli yolla silahla kömək edə bilər. Bu, Qərbi ən çox qorxudan məqamdır. “Köhnə qitə” rəsmiləri Çini hər vasitə ilə bundan çəkindirməyə çalışırlar.

Çin hazırda Rusiya təbii qazı və neftinin ən böyük idxalçısıdır. Rusiya Qərbin tətbiq etdiyi sanksiyalara baxmayaraq, Çinə satdığı enerji ehtiyatları sayəsində xeyli gəlir əldə edir. Bu amil Moskva üçün Çinin “çəki”sini artırır. Çin lideri, təbii ki, rusiyalı həmkarına təsir və təzyiq göstərmək barədə düşünmür, bu halda Pekin həm Rusiyanı itirə, həm də oyundankənar vəziyyətə düşə bilər.

Makron, eləcə də xanım Lyayen Pekindən Rusiyanın Belarusun qərbində taktiki nüvə raketləri yerləşdirmək planlarını tənqid edirlər. Bu məsələdə Çin Qərbi dəstəkləyir. Qərb düşünür ki, Çinlə münasibətləri qurarkən bu və digər ortaq maraqlardan çıxış etmək mümkündür.

Bundan başqa, Fransa və Aİ rəhbərliyi Çinlə ticari və iqtisadi əlaqələri genişləndirməklə, onunla tərəfdaşlıq münasibətlərini gücləndirə biləcəklərini düşünürlər. Bu təklif, bütövlükdə, Çinin maraqlarına cavab verir. Amma Qərb əvəzində Çinə Rusiyanın yanında durmamağı tövsiyə edir. Burada isə Qərblə Çinin maraqları uyğun gəlmir.

Çinə münasibətdə Makron və Lyayendən fərqli olaraq, NATO rəhbərliyi kəskin mövqedən çıxış edərək daha sərt ritorikadan istifadə edir. Finlandiyanı da öz sıralarına qatmaqla artıq 31 üzvü olan Şimali Atlantika Alyansının Baş katibi Yens Stoltenberq deyib ki, Çin Rusiyaya silah və avadanlıq göndərərsə, bunun ağır nəticələri ola bilər.

Jurnalistlər NATO rəhbərindən “ağır nəticələr”in nədən ibarət olduğunu izah etməsini xahiş etsələr də, Stoltenberq susmağa üstünlük verib. Alyansın belə davranışı Çinin özündə Qərbə qarşı nifrəti körükləyir. Ölkə ictimaiyyəti Qərblə hərbi qarşıdurmanın qaçılmaz olduğunu düşünür.

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Fikrət SADIQOV,**
**siyasi icmalçı,**
**professor:**

– Fransa Avropa İttifaqı (Aİ) çərçivəsində həmişə özünəxas xarici siyasət, fərqli bir mövqe nümayiş etdirən dövlət kimi fərqlənib. Bu, həm geosiyasi məqamlarla bağlı olub, həm də digər dövlətlərlə münasibətlərin qurulması ilə əlaqədardır.

Düşünürəm ki, bu dəfə isə Fransa müəyyən mənada Aİ-nin mövqeyini icra edir. Fransa ilə Aİ-nin mövqeləri üst-üstə düşür və heç bir ziddiyyət yaranmır.

Fikrimcə, Fransanı, eləcə də rəsmi Brüsseli indi narahat edən əsas məqam Rusiya ilə Çinin bir-birinə yaxınlaşmasıdır. Yada salaq ki, Çinin rəhbəri bir müddət əvvəl rəsmi dövlət səfəri ilə Moskvada olub. Kremldə keçən geniş müzakirələrdən sonra Moskva və Pekin əksər məsələlərlə bağlı razılığa gəldilər, mühüm sənədlər imzaladılar.

Bu da hazırkı gərgin durumda Fransanı narahat etməyə bilməz. Görünür, Çinə səfər zamanı E.Makron burada bir sıra taleyüklü məsələləri aydınlaşdıracaq, Çinin bir çox münaqişələr, xüsusilə Rusiya–Ukrayna münaqişəsi ilə bağlı mövqeyi Fransa üçün maraqlıdır.

Ola bilər ki, Fransa ilə Çin arasında ticari, iqtisadi sahələrdə ikitərəfli sazişlər imzalansın. Çünki Fransa–Çin əlaqələri əvvəlki dönəmlərdə də normal idi. Belə ki, Çin və Fransa həmişə ümumi bir dil tapırdılar.

O ki qaldı Çinin Cənubi Qafqaz regionuna, xüsusilə, Ermənistanın bizə qarşı düşmən münasibətinə, qeyd etmək lazımdır ki, Çin həmişə bizim ərazi bütövlüyümüzü tanıyıb və dəstəkləyib. Rəsmi Pekin Ermənistan–Azərbaycan münaqişəsinin həllində vasitəçilik etməsə də, hər iki tərəflə müəyyən bir məsafə saxlayıb.

Çinin Ermənistanla heç vaxt yaxın münasibətləri olmayıb. Çünki Çini Böyük Asiya dövləti kimi ilk növbədə öz regionunun problemi maraqlandırıb. Böyük güclərlə – ABŞ, Rusiya, Avropa İttifaqı ilə münasibətləri Pekin üçün daha çox əhəmiyyət kəsb edib. Ona görə də biz Çindən hansısa təhlükə gözləməməliyik.

Amma Fransa açıq şəkildə ermənipərəsət mövqe nümayiş etdirir. Paşinyanın təşəbbüsü ilə Fransa Ermənistan–Azərbaycan sərhədində 200 nəfər müşahidəçi yerləşdirib, eyni zamanda Fransa Senatında Azərbaycan əleyhinə qətnamələr qəbul olunur. Rəsmi Paris, faktiki olaraq ölkəmizə qarşı açıq şəkildə qərəzli, subyektiv mövqedən çıxış edir.

Əminəm ki, Fransa–Çin danışıqları zamanı Azərbaycana qarşı yönələn hansısa bir təhlükə müzakirə predmeti ola bilməz. Biz Çin tərəfindən bunu gözləmirik. E.Makron bunu istəsə belə, Si Cinpin heç vaxt belə bir mövqedən çıxış etməyəcək və Fransanı dəstəkləməyəcək.

# “Suraxanı maşınqayırma zavodu” ASC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

Manatla

| Aktivlər | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **Uzunmüddətli aktivlər:** | | |
| Qeyri maddi aktivlər | 10472 | 10472 |
| Torpaq, tikili və avadanlıqlar | 4976964 | 2580736 |
| Sair uzunmüddətli aktivlər | | 0 |
| **Cəmi uzunmüddətli aktivlər** | 4987436 | 2591208 |
| **Qısamüddətli aktivlər:** | | |
| Eh iy tlar | 4489245 | 3156272 |
| Debitor borcları | 62700 | 175800 |
| Digər debitor borcları və avanslar | 225126 | 54670 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 49509 | 3923103 |
| **Cəmi qısa müddətli aktivlər** | 4826580 | 7309845 |
| **Cəmi aktivlər** | 9814016 | 9901053 |
| **Kapital və öhdəliklər** | | |
| **Kp ith** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 4744914 | 4744914 |
| Kapital ehtiyatları | 57095 | 57095 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 249567 | 194183 |
| Cəmi kapital | 5051576 | 4996192 |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Sair uzunmüddətli öhdəliklər | 4073000 | 4073000 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | 4073000 | 4073000 |
| **Qısamüddətli öhdəliklər:** | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 249000 | 199963 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 55603 | 199638 |
| Qısamüddətli kreditor borcları | 113790 | 260697 |
| Sair qısamüddətli öhdəliklər | 271047 | 171563 |
| **Cəmi qısamüddətli öhdəliklər** | 689440 | 831861 |
| **Cəmi öhdəliklər** | 4762440 | 4904861 |
| **Cəmi kapital və öhdəliklər** | 9814016 | 9901053 |

***Məcmu Gəlirlər Haqqında Hesabat***

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 7685093 | 5788775 |
| | - 5995727 | - 4397666 |
| Ümumi mənfəət | 1689366 | 1391109 |
| Digər əməliyyat gəliri / (zərəri)<br>Şübhəli borclar üzrə ehtiyatlar<br>Kommersiya xəcləri | 1907 | 3176 |
| | - 1124258 | - 964936 |
| Maliyyə xərcləri | - 65256<br>-31279 | - 52737<br>- 21511 |
| Vergiqoymadan əvvəl mənfəət | 470480 | 355101 |
| Mənfəət vergisi | - 94096 | - 71021 |
| **Hesabat dövründə xalis mənfəət** | 376384 | 284080 |

***Kapitalda dəyişikliklər haqqında hesabat***

| | Ödənilmiş nominal (nizamnamə) kapitalı əlavə kp ith | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kp ith |
|---|---|---|---|
| **2021-ci il yanvarın 1-nə** | 4744914 57095 | 225847 | 5027856 |
| Səhmdar kapitalında dəyişikliklər | | | 0 |
| Əlavə hesablanıb | | 284081 | 284081 |
| Hesabat dövründə mənfəət (zərər) | 0 | - 315745 | -315745 |
| Nizamnamə kapitalına daxil olan əsas vəsaitlərin silinməsi | | | 0 |
| **2021-ci il dekabrın 31-nə** | 4744914 57095 | 194183 | 4996192 |
| **2022-ci il yanvarın 1-nə** | 4744914 57095 | 194183 | 4996192 |
| **Səhmdar kapitalında dəyişikliklər** | | | |
| Əlavə hesablanıb | | 284081 | 284081 |
| **Hesabat dövründə mənfəət (zərər)** | | -315745 | -315745 |
| Nizamnamə kapitalına daxil olan əsas vəsaitlərin silinməsi | | | |
| **2022-ci il dekabrın 31-nə** | 4744914 57095 | 249567 | 5051576 |

***Pul vəsaitlərinin hərəkəti haqqında hesabat***

| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri: | | |
|---|---|---|
| Vergiqoymadan sonra mənfəət | 376384 | 284080 |
| **Düzəlişlər:** | | |
| Hesablanmış mənfəət vergisi | 94096 | 71021 |
| Torpaq, tikili və avadanlıqların amortizasiyası<br>Xarici valyuta məzənnəsinin dəyişməsi üzrə (gəlirlər) zərərlər<br>Sair (gəlir) və xərc | 50 000 | 100000<br>0<br>19802 |
| Maliyyə xərcləri | 31279 | 21511 |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən | 551759 | 496414 |
| əvvəl əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri | | |
| Ehtiyatların (artması) / azalması | -1332973 | 49474 |
| Debitor borclarının (artması) / azalması | 113100 | -73405 |
| Digər debitor borcları və avansların (artması) / azalması | - 170456 | 57068 |
| Kreditor borclarının (artması) / azalması | -146907 | 26886 |
| Ehtiyatların və hesablanmış xərclərin (artması) / azalması | -144035 | - 462315 |
| Digər kreditor borclarının (artması) / azalması | 99484 | 64348 |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri: | -1030028 | 158470 |
| Ödənilmiş mənfəət vergisi | -94096 | -90823 |
| Əməliyyat fəaliyyətindən yaranan xalis pul vəsaitləri: | -1124124 | 67647 |
| İnvestisiya fəaliyyətindən yaranan xalis pul vəsaitləri: | | |
| Torpaq, tikili və avadanlıqların alınması | - 2446260 | -8430 |
| Torpaq, tikili və avadanlıqların satışından gəlir (zərər) | 32 | 2318 |
| Torpaq, tikili və avadanlıqların silinməsindən gəlir (zərər) | | |
| İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri: | - 2446228 | -6112 |
| **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitləri:** | | |
| Banklara və maliyyə institutlarına borcların xalis artması / (azalması) | 49037 | 104634 |
| Xeyriyyə məqsədləri üçün fövqəladə xaricolmalar<br>Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərindən daxil olma<br>Maliyyələşdirmə üzrə fəaliyyətlə əlaqədar sair daxilolma | | 4073000 |
| Maliyyələşdirmə üzrə fəaliyyətlə əlaqədar sair xaricolma | -321000 | -315744 |
| Ödənilmiş maliyyə xərcləri | -31279 | -21511 |
| **Maliyyə fəaliyyətindən yaranan /(istifadə edilən) pul vəsaitləri:** | -303242 | 3840379 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım / (azalma)** | -3873594 | 3901914 |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə | 3923103 | 21189 |
| Məzənnə fərqinin təsiri | | |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna | 49509 | 3923103 |
| **Təqdim edilmiş:** | | |
| Kassa | 9 | 29 |
| Bank hesablarında | 8049 | 3826429 |
| Depozit hesabı | 41451 | 96645 |
| | 49509 | 3923103 |

**Müstəqil Auditorun Hesabatı**

**“Suraxanı maşınqayırma zavodu” ASC-nin təsisçilərinə**

Biz **“Suraxanı maşınqayırma zavodu” ASC**-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynalxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi audit standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmisik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının İFRS ( beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə,dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəalyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub - olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki,əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq stifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyətinə əlavə təsviri cəmiyyətin internet səhifəsində yerləşir. Bu təsvir auditor hesabatının tərkib hissəsidir.

**Direktor (auditor) - B*əhlul Həsənov*.**

# Azərbaycan Milli Konservatoriyası

*Fəlsəfə doktoru proqramı üzrə 2023-cü il üçün doktoranturaya*

## QƏBUL ELAN EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261 s nömrəli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planlarından çıxarış

| **Elm sahələri və ixtisaslar** | İxtisasın şifri | **Fəlsəfə doktoru proqramı üzrə doktorantura** | |
|---|---|---|---|
| Musiqi sənəti | 6213.01 | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla |
| | | | O cümlədən |
| | | | əyani \| qiyabi |
| | | 1 | 1 |
| Cəmi: | | 1 | 1 |

Qeyd: doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya sistemi (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi və sənəd qəbulu cari il aprelin 12-dən mayın 16-dək davam edəcəkdir.

# Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası

*2023-cü il üçün fəlsəfə doktoru üzrə doktorantura və dissertanturaya*

## QƏBUL ELAN EDİR

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | 
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla<br>o cümlədən<br>əyani | qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | 1 |
| | Cəmi: | 1 | | 1 | 1 |

Doktorantura və dissertantura şöbəsi, telefon – 012-493-22-01.
Ünvan – Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi 98.

# “Bakı Neft Mədən Avadanlıqları” ASC səhmdarlarının nəzərinə!

30 may 2023-cü il saat 10.30-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların iştirakı vacibdir.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, Bülbülə qəsəbəsi, Aşurbəyovlar küçəsi 112.

***İdarə heyəti***

# “Suraxanı Avtomotoservis” ASC səhmdarlarının nəzərinə!

12 iyun 2023-cü il saat 11.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların iştirakı vacibdir.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, E.Bəkirli küçəsi 4041.

***Rəhbərlik***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

*tabeliyindəki istehsalat xidmətləri idarəsinin “rabitə və elektroradionaviqasiya avadanlıqlarına texniki xidmət kamerası” sahəsinə tələb olunan mal-materialların satın alınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il aprelin 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177.

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# Texnologiya Universiteti istehsalatla əlaqələri gücləndirir

**Son vaxtlar Azərbaycan Texnologiya Universitetinin rektorluğu bu ali məktəbin istehsalatla əlaqələrini yaxşılaşdırmaq üçün ən müxtəlif imkanlardan istifadə etməyə çalışır, respublikamızın şəhər və rayonlarında fəaliyyət göstərən sənaye müəssisələri ilə sıx əməkdaşlıq yaradılmasına nail olur.**

Bu günlərdə növbəti səfər Qəbələ rayonunda yerləşən konserv zavoduna və “Aspi Winery” üzüm emalı zavoduna olmuşdur. Universitetin rektor vəzifəsini müvəqqəti icra edən dosent Yaşar Ömərov və qida mühəndisliyi fakültəsinin əməkdaşlarından ibarət heyəti bu müəssisələrin infrastrukturu, istehsalat prosesi, tətbiq olunan müasir texnologiyalar, avadanlıqların iş prinsipi, kadr tələbatı, eləcə də qarşıya çıxan problemlərlə yaxından tanış olublar.

Hər iki müəssisədə görüş zamanı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, müasir texnologiyaların elmi əsaslarla tətbiqinin gücləndirilməsi, elmi-praktik təcrübələrin birgə aparılması kimi məsələlər müzakirə edilib, təkliflər irəli sürülüb, digər əməkdaşlıq imkanları müzakirə olunub.

Müzakirələrdən sonra Yaşar Ömərov və “Aspi Winery” üzüm emalı zavodunun direktoru Əjdər Şəfizadə əməkdaşlıq memorandumu imzalayıblar.

Qəbələ konserv zavodu ilə də əməkdaşlıq memorandumunun imzalanacağına dair razılıq əldə edilib.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***



# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

*öz gəmiləri üçün konservləşdirilmiş qəza su və qəza qida rasionlarının satın alınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 13 aprel 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.

Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

# “Mingəçevir Ağac Emalı” ASC səhmdarlarının nəzərinə!

13 may 2023-cü il saat 11.00-da “Mingəçevir Ağac Emalı”ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** 2022-ci ilin illik hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

**2.** Cəmiyyətin ləğv edilməsi.

**3.** Ləğvetmə komissiyasının yaradılması.

**4.** Digər məsələlər.

Səhmdarların gündəlikdəki məsələlərə aid hər hansı bir sualı olarsa, iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanına müraciət edə bilərlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir!

Əlaqə telefonu- 050 – 311 – 86 – 06.

Ünvan- Mingəçevir şəhəri, Gəncə şossesi 8.

# Kibercinayətkarlığın “iqtisadiyyatı” böyüyür

**Müasir dünyada kibertəhlükələrin sayında sürətli artım müşahidə olunur. Müəssisələr və dövlət qurumları hücumlara tab gətirməyə çalışır, “hakerlər” adi vətəndaşların bank hesablarını boşaldırlar. Buna görə də, rəqəmsal dünyanın təhdidlərindən etibarlı müdafiənin təşkili əsas vəzifələrdən birinə çevrilir. Azərbaycanda da bu məsələ diqqət mərkəzindədir. Ona qarşı səmərəli fəaliyyət göstərmək üçün əməli tədbirlər həyata keçirilir. Amma, bu da bir faktdır ki, kibertəhlükələrə qarşı mübarizədə ən başlıca amil “gözə görünməz düşmənlər” haqqında müəyyən biliklərin olmasıdır.**

Kibertəhlükəsizlik internetə qoşulmuş sistemlərin (avadanlıq, proqram təminatı və məlumat) kibertəhlükələrdən qorunmasıdır. Bəs kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi arasında fərq nədən ibarətdir? Mütəxəssislər bildirirlər ki, “kibertəhlükəsizlik” və “informasiya təhlükəsizliyi” terminlərindən çox zaman sinonim kimi istifadə olunur. Ancaq bu terminlər fərqlidir və bir-birini əvəz edə bilməz. Kibertəhlükəsizlik kibərməkanda hücumlardan qorunması, informasiya təhlükəsizliyi isə məlumatların analoq və ya rəqəmsal təhdiddən istənilən formada mühafizəsi mənasını verir.

Müasir dünyada kibertəhlükəsizliyin əhəmiyyətini qiymətləndirmək çox çətindir. Ona görə ki, kibertəhlükəsizlik tədbirləri məxfi məlumatların, şəxsi sağlamlıq məlumatlarının, əqli mülkiyyətin, hökumətin və sənayenin informasiya sistemlərinin oğurlanmasının qarşısının alınmasını nəzərdə tutur. Hazırda kibercinayətkarların qurbanı olmaq riskləri kifayət qədər yüksəkdir. Ən adi internet istifadəçilərindən tutmuş iri şirkətlərə qədər hər kəs müxtəlif şəxsi məlumatların saxlanması üçün “bulud” xidmətlərindən istifadə edir. Hətta “Amazon Web Services” kimi böyük “bulud” xidmətləri də sındırılma riskindən qorunmur.

Kibercinayətkarlığın getdikcə daha təkmilləşən üsulları, veb sistemlərinin kifayət qədər yüksək səviyyədə təhlükəsizliyi və istifadəçilərin özləri tərəfindən təhlükəsizlik tədbirlərinə laqeyd yanaşması ilə birlikdə fırıldaqçıların növbəti qurbanı olmaq riskini əhəmiyyətli dərəcədə artırır. Bu, xüsusilə şirkətlərə və təşkilatlara daha çox aiddir – kibercinayətkarların əsas hədəfləri məhz onlardır.

Bəs kibertəhdidlərə qarşı necə səmərəli mübarizə aparmaq olar? Mütəxəssislərin fikrincə, özünüzü müdafiə etməyə başlamazdan əvvəl tam olaraq nədən müdafiəyə ehtiyacınız olduğunu başa düşməlisiniz. Bu gün adi internet istifadəçiləri üçün əsas təhlükə kiberfırıldaqçılardan gəlir. Məsələn, banklar və ya digər qanuni mənbələr adından göndərilən elektron məktublardakı keçidlərin düzgün yazılışı yoxlanılmalıdır. Həmin keçid linklərin üzərinə klikləsəniz, girişlər, parollar və xüsusən də bank kartı məlumatlarını kiberfırıldaqçılara ötürmüş olacaqsınız. Mütəxəssislər məsləhət görürlər ki, kompüterinizə yükləmək üçün təklif olunan hər hansı faylı saxlamaqdan imtina edin.



Dünya İqtisadi Forumu kiberhücumları qlobal iqtisadiyyata təsir baxımından ən çox ehtimal olunan qlobal risklər kimi qiymətləndirir. Belə ki, fırıldaqçıların vurduqları ziyan trilyonlarla dollara çatır. Kibertəhlükələrin sayı, eləcə də “haker” hücumlarından dəyən ziyan hər il artır. Ekspertlərin hesablamalarına görə, kibercinayətkarlıqdan itkilər 2025-ci ildə 10,5 trilyon dollara çatacaq. Əgər bu məbləğ ölkə iqtisadiyyatı ilə mütənasib olsaydı, 2023-cü ildə, ümumilikdə, 8 trilyon dollar ziyan vuracağı proqnozlaşdırılan kibercinayətkarlıq ABŞ və Çindən sonra dünyanın üçüncü ən böyük iqtisadiyyatı olardı. Bəzi mənbələr 2030-cu ildə kiberhücumlardan dəyəcək zərərin 90 trilyon dollar olacağını proqnozlaşdırırlar. Belə olacağı təqdirdə kibercinayətkarlıq aləminin “iqtisadiyyatı” dünyada liderliyi ələ keçirəcək.

Ümumiyyətlə, qlobal kibercinayətkarlığın metod və təcrübələri dünyanın aparıcı gücləri tərəfindən getdikcə ideoloji, hərbi-siyasi mübarizə və kibercinayətkarlıq vasitəsi kimi də istifadə olunur. Beynəlxalq statistikaya görə, xüsusi xidmət orqanlarının kiberqruplardan çox fəal istifadə etdiyi və “haker” dəstələrinin fəaliyyətinin “ideoloji” fonunu stimullaşdırdığı dövlətlər arasında İran liderdir. Rusiya, Çin, KXDR və Cənubi Amerikanın bir sıra dövlətləri bu baxımdan olduqca fəaldırlar. Mənfi tendensiya xüsusilə Rusiya–Ukrayna münaqişəsinin qaynar fazaya keçməsi ilə daha da güclənib. Ötən müddət ərzində Qərb ölkələrində ictimai xidmət internet portallarına, elektron media saytlarına və kritik infrastruktura çoxsaylı kiberhücumlarla üzləşiblər.

Bu səbəbdən geosiyasi vəziyyətin gərginləşməsi və bunun nəticəsində baş verən hücumlar biznesin və vətəndaşların itkisini ikiqat artırıb. Ona görə də, bu gün kibercinayətkarlıq hərəkətlərinə qarşı həm dövlət siyasəti səviyyəsində, həm də hər bir vətəndaş bacarıqları səviyyəsində mübarizə aparılması vacibdir. Doğrudur, Azərbaycan son geosiyasi qarşıdurmanın kəskinləşməsi ilə bağlı qlobal kibərməkanda müşahidə olunan gərginliyin hədəfinə çevrilməyib. Bununla belə, Cənubi Qafqazda və qonşu dövlətlərdə yaranmış təlatümlü hərbi-siyasi vəziyyət fonunda Azərbaycan hələ də kibertəhlükələrlə üzləşmək riski ilə qarşı-qarşıyadır. Müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələrinin sözlərinə görə, Azərbaycan beynəlxalq kibertəhlükələrə qarşı səmərəli fəaliyyət proqramına malikdir və kritik rəqəmsal infrastrukturun müdafiəsi tələblərə uyğun həyata keçirilir.

**S.ELAY, “Xalq qəzeti”**

## Son sutkada Azərbaycanda koronavirusa daha 95 nəfər yoluxub

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 95 yoluxma faktı qeydə alınıb, 61 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 830 min 230 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 819 min 533 nəfər müalicə olunaraq sağalıb, 10 min 196 nəfər vəfat edib. Aktiv xəstə sayı 501 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 795, bu günə qədər isə ümumilikdə 7 milyon 566 min 492 test icra olunub.

## BAKI SLAVYAN UNİVERSİTETİ

*2023-cü il üçün doktoranturaya və dissertanturaya fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul elan edir*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | | o cümlədən | | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 5706.01 | Azərbaycan dili | 2 | 1 | 1 | 1 | | | | |
| 5707.01 | Slavyan dilləri | 2 | | 2 | 1 | | | | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | 1 | | | | |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid | | | | 1 | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | 1 | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı (alman, ingilis) | 1 | | 1 | 1 | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | | | | 1 | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | | | | 1 | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | 1 | 1 | | 1 | |
| 5901.01 | Beynəlxalq münasibətlər | 1 | | 1 | 1 | | | | |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | 1 | | | | |
| | **Cəmi:** | 11 | 1 | 10 | 11 | 1 | | 1 | |

*Dissertant hazırlığı **üzrə** adambaşına maliyyələşmə nəzərdə tutulmadığı **üçün** dissertanturada hazırlıq ali təhsil müəssisələrinin **öz əməkdaşları üçün** həmin müəssisənin hesabına, digər **şəxslər üçün** isə **ödənişli** olacaqdır.

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Qeydiyyatdan keçən vətəndaşların sənədləri ali təhsil müəssisəsi üzrə təyin edilmiş məsul şəxs, yaxud doktorantura təhsili və tədqiqatların təşkili şöbəsinin əməkdaşı tərəfindən yoxlanılıb təsdiq edilməlidir.

Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi 2023-cü il aprelin 12-dən başlayacaq və mayın 16-dək davam edəcəkdir.

DİM-də xarici dil imtahanını müvəffəqiyyətlə verən şəxslər (fəlsəfə doktoru proqramı üzrə müraciət edən iddiaçılar) növbəti mərhələlərə buraxılacaqlar (fəlsəfə fənni üzrə imtahan 2023-cü il sentyabrın 4,5 və 6-da, ixtisas imtahanı isə sentyabrın 11, 12 və 13-də keçiriləcəkdir).

Əlaqə üçün-**Telefon: +994 (12) 5990870 (daxili: 213)**
Ünvan- **AZ 1014, Bakı, S.Rüstəm** küçəsi **33.**
**Elektron** ünvan**: doktorantura@bsu-uni.edu.az**

## “Azərenerji” ASC

*Elektrik stansiyalarında istifadə olunacaq müxtəlif energetik yağların satın alınması (elektrik stansiyalarının mühərriklərində mövcud olan energetik yağlara istehsalçının tələbinə və avadanlıqların istismar qaydalarına uyğun olaraq eyni markalı yağların əlavə edilməsi və yenilərinin tədarük olunması) üçün*

### AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs – Azad Məmmədov, telefon: 598-26-96, 490-09-27; e-mail: azad.mammadov@azerenerji.gov.az).

İştirak haqqı heç bir halda geri qaytarılmır.
H/h- AZ35AIIB33020019441024659102
VÖEN-9900000421
Bank- “Kapital Bank” ASC-nin Mərkəz filialı
Kod- 200026
VÖEN-9900003611
M/h- AZ37NABZ01350100000000001944
S.W.İ.F.T: AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;
- iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının ən azı 3 il energetik yağların satışı üzrə təcrübəyə malik olmasına aid təsdiqedici sənədlər. Eləcə də, energetik yağların satışı üzrə müqavilələrin ümumi dəyəri 800 000 (səkkiz yüz min manat) AZN-dən yuxarı olması barədə təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, akt, qaimə, forma 2 və forma 3) təqdim olunması;
- təklif olunan qaz-mühərrik yağları üçün material təhlükəsizliyi məlumat bazası (MSDS), texniki məlumat bazası (TDS) və uyğunluq sertifikatı tələb olunur. Bütün yağların uyğunluq sertifikatlarını təqdim etməyən iddiaçıların tender təklifləri qiymətləndirməyə alınmayacaq. Həmçinin iddiaçılar təqdim edilən bütün yağların uyğunluq sertifikatlarının mövcudluğu və orijinal olmaları barədə öhdəlik götürməli və öhdəlik sənədini imzalayıb möhürləyərək təqdim etməlidirlər;
- müvafiq sertifikatlar və lizensiyalar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 may 2023-cü il saat 15.00-a, bank təminatını və tender təklifini isə 24 may 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 nömrəli ünvana, “Azərenerji” ASC-nin ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 25 may 2023-cü il saat 15.00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**

## “Azərenerji” ASC

*6/10/35/110 kV-luq xətlərdə elektrik enerjisinin ötürülməsi, qəbul olunması, çevirilməsi və paylanılması üçün müxtəlif malların satın alınması üzrə*

### AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56; e-mail: araz.mammadzada@azerenerji.gov.az

Hesab: AZ35AIIB33020019441024659102
VÖEN : 9900000421
Bank: “Kapital Bank” ASC Mərkəz filialı
Kodu: 200026
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T: AIIBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- İddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;
- İddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;
- İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçının analoji satınalmalarda təcrübəsi haqqında məlumat;
- İddiaçının son 2 (iki) illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;
- Müvafiq sertifikatlar və lizensiyalar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 may 2023-cü il saat 15.00-a qədər, bank təminatını və tender təklifini isə 24 may 2023-cü il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına “Azərenerji” ASC-nin ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 25 may 2023-cü il saat 15.00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**

*İdman*

# Qış Parkında yaz əhvalı




**6 Aprel – İnkişaf və Sülh Naminə Beynəlxalq İdman Günü münasibətilə Gənclər və İdman Nazirliyinin Qış Parkında və Böyükşor Bulvarında quraşdırıldığı xüsusi zonalarda "Sağlam həyat" adlı idman tədbirləri sonrakı günlərdə də davam etdi. İştirakçılar 14 yaş qrupunda (6-8, 9-10, 11-12, 13-15, 16-17, 18-24, 25-29, 30-34, 35-39, 40-44, 45-49, 50-54, 55-59 və 60+ yaş), güclərini sınadılar.**

Biz də Qış Parkını ziyarət edib, əlamətdar idman tədbirində iştirak edənlərlə görüşdük. Onların arasında bir qrup məktəbli və müəllimələri diqqətimizi cəlb etdi. Öyrəndik ki, aksiyaya qoşulan yeniyetmə fidanlar arasında Bakı şəhəri Nəsimi rayonu Yusif Mirzəyev adına 44 nömrəli tam orta məktəbin şagird və müəllim heyəti də yer alır.

**İxtisaslaşdırılmış Bakı Gimnastika Məktəbinin məşqçi-müəllimi, akrobatika üzrə SSRİ idman ustası Rəna Manafova dedi:**

– Bu gün buraya gəlişimizin məqsədi cəmiyyətdə əhali arasında sağlam həyat tərzinin təbliği olan, Gənclər və İdman Nazirliyi tərəfindən təşkil edilən "Sağlam həyat" günləri adlı idman tədbirində iştirak etməkdir. Bizim təmsil etdiyimiz məktəbin 5, 7 və 8-ci sinif şagirdləri idman tədbirində həvəslə çıxış edirlər. Burada uşaqlar iki zonada yarışırlar. Həm atletika, həm də gimnastika hərəkətləri üçün quraşdırılmış qurğularda məktəblilər güclərini sınayırlar.

Həmsöhbətim əlavə etdi ki, ərazidə müxtəlif yaş qrupları üçün atletika və gimnastika hərəkətlərinin sərbəst icrası məqsədilə qurğular quraşdırılıb, xüsusi zolaqlar yaradılıb.

Qeyd edək ki, 30, 60, 100 və 500 metr məsafəyə qaçış, yerindən uzunluğa (məsafəyə) tullanma, tibbi topun (1 kq) məsafəyə atılması, tennis topunun hədəfə atılması, dayaqlı vəziyyətdən qolların bükülüb-açılması və qarın əzələlərinin möhkəmləndirilməsi üzrə müvafiq normativlərin yerinə yetirilməsi üçün turnik və döşəklərdə uşaqlar hərəkətləri uğurla yerinə yetirirdilər. Bütün idman hərəkətlərində uğurlu nəticə göstərən 44 nömrəli tam orta məktəbin şagirdlərinə sonda "qızıl" stikeri olan sertifikatlar təqdim olundu.

Əlavə edək ki, gimnastika hərəkətlərində "Sağlam həyat" günlərində ədaləti Atletika və Gimnastika federasiyalarının hakimləri –Kamal Əhmədov, Sevda Əlizadə, Sadıq Sadiqov, Heydər Yaqubov, Aysu İmanzadə , Teymur Zəkiyev, Alla Timofeyeva, Səbinə Xairova, Ruslan Quliyev qoruyurdular.

***Elçin AĞAMİRZƏ, "Xalq qəzeti"***

*Həyatın içindən*

**Bir neçə gün əvvəlin söhbətidir. Səhər saat doqquz radələri olardı. "Bülbül" prospekti 30-da – "Xalq qəzeti" redaksiyasının yerləşdiyi doğma ünvana çatmaq üzrəydim.**

# Hamımızın şəhəri...



Yaxınlıqdakı supermarketdən 35–38 yaşlarında bir nəfər çıxdı və əlindəki siqaretin nazik cığara örtüyünü çıxarıb atdı. İstədim onu götürüb bir neçə metr aralıdakı zibil qabına atım. Ərindim. Baxışlarım həmin şəxsə tərəf yönəlmişdi. Bir neçə addım atdıqdan sonra o, addımlarını bir qədər yavaşıtdı. Alışqanını çıxardı. Görünür, siqaret çəkməyə hazırlaşırdı. Bir neçə addım da irəli gedib, bu dəfə siqaretin qapağının altındakı kağız örtüyü çıxarıb hündürlüyü təqribən 80-90 santimetr olan artırmanın üstünə qoydu.

Mən onun arxasınca gəlirdim. Aramızda cəmi 3–4 metr məsafə vardı. O, sanki, mənim çox da kəskin olmayan, amma hər halda ağsaqqalcasına qınayıcı baxışlarımı kürəyində hiss edib geriyə boylandı. Bir anın içində baxışlarımız toqquşdu. Ayaq saxlayıb geri qayıtdı, bir neçə saniyə qabaq artırmanın üstünə qoyduğu əl içindən balaca kağızı götürüb yaxınlıqdakı zibil qutusuna atdı və ani olaraq mənə tərəf boylanıb gülümsündü.

Mən bunu üzr istəmək jesti kimi qəbul etdim və səhvini anladığı üçün ondan razı qaldım. Əlimi cibimdən çıxarıb sinəmin üstünə qoydum və başımı razılıq əlaməti olaraq azca aşağı endirdim. O da başını hörmət əlaməti olaraq yavaşca tərpətdi. Nə mən, nə də o, dinib-danışdıq. Zatən, buna artıq ehtiyac da yox idi.

O, bir neçə saniyədən sonra yeraltı keçidə düşüb sonra gözdən itdi. Mən isə iş yerimin qarşısındakı uca çinar ağacına baxıb fikrə daldım. Düşündüm ki, görəsən, bu qollu-budaqlı ağac dil açıb danışmalı olsaydı, nə deyərdi?

Bəlkə də belə deyərdi:

– Ey, doğma Bakımızın əziz sakinləri! Gəlin, şəhərimizi təmiz saxlayaq, onu dünyanın ən səliqəli şəhərlərindən birinə, lap elə birincisinə çevirək...

Bu zaman yeraltı keçiddən çıxıb redaksiyaya tərəf gedən iş yoldaşım, tanınmış jurnalist Zərifə Bəşirqızını gördüm. Yeni iş günü başlayırdı...

***M.HACIXANLI, "Xalq qəzeti"***

*Sosial şəbəkə qonağımızdır*

# Nəvainin Nizami sevgisi

**"Facebook" sosial şəbəkəsindəki maraqlı qruplardan biri də "Çağdaş Azərbaycan"dır. Bu qrupun üzvləri tez-tez maraqlı yazıları ilə diqqət çəkirlər. Əlişir Əhmədli adlı qrup üzvünün – gəncəli səyyahın dahi Nizami Gəncəvi haqqında kontenti də bu sıradandır.**

Onun kimliyi ilə maraqlanarkən öyrəndik ki, Əlişir Əhmədli özü də gəncəlidir və səyyah kimi tanınır. Hələ gənc yaşlarından iki dəfə dünya səyahətinə çıxıb, 2 il 22 gün ərzində keçmiş SSRİ, Şərqi Avropa və Yaxın Şərq ölkələrini qarış-qarış gəzib. Müasir dərviş səyahətlərdən əldə etdiyi xatirə əşyalarından və artefaktlardan ibarət ev muzeyi də yaradıb. Uzun illərdən bəri, boynundan asdığı və səyahətlər boyu ayrılmadığı şeyx Nizami Gəncəvinin şəklini isə göz bəbəyi kimi qoruyur. Onun "Nizami nurlu səyahət" adlı kitabı da var. Müəllifin yeni kontentini təqdim edirik.

"Özbəklərdə Şeyx Nizami Gəncəvi həzrətlərinə (1141-1209) olan hörmət və ehtiram, əsasən, Mir Əlişir Nəvai həzrətlərindən (1441-1501) qaynaqlanır. Çünki, Nizami Gəncəvini Əlişir Nəvai qədər sevib mədh eyləyən ikinci bir şair olmayıb. Əlişir Nəvainin "Xəmsə"-sinə daxil 5 poemanın hər birində "Allahın mədhi", "Peyğəmbərin mədhi"ilə yanaşı "Şeyx Nizaminin mədhi"də vardır. Aralarındakı yaş fərqi 300 il olmasına baxmayaraq, Əlişir Nəvai Nizami Gəncəvini özünün ustadı bilmiş və ömrünün sonuna qədər də bu bağlılığa sadiq qalmışdır. Allah hər iki dahimizə qəni-qəni rəhmət eləsin!"

Onu da qeyd edək ki, statusa yazı ilə bərabər bir şəkil də qoyulub və altında yazılıb: Solda mürşid Şeyx Nizami Gəncəvi, sağda mürid Mir Əlişir Nəvai (qədim miniatür).



**Əli NƏCƏFXANLI, "Xalq qəzeti"**

# Yerdənkənar həyat: müəmma və ehtimallar



**Yeni araşdırmada elm adamları yadplanetli həyatın mövcud ola biləcəyinə dair yeni bir ehtimalı araşdırıblar.**

Güman edilir ki, "qravitasiya kilidi" adlanan yeni fenomen bəlkə də həyatı dərk etmək üçün əlverişli şərait yarada bilər.

Məlum olduğu kimi, Yer və Ay bir-birinə bağlıdır və biz Yerdən baxanda həmişə Ayın eyni tərəfini görürük. Bu fenomen, əslində, kainatda çox yayğındır və indi alimlər belə sistemlərdə yadplanetli həyatı axtarırlar.

Yeni araşdırmada astronomlar ekzoplanetin işıqlı və qaranlıq sahələri arasında yerləşən "terminator zonalarında" yerdənkənar həyatın mövcud ola biləcəyini irəli sürürlər. Bu ərazilərdə daimi toranlıq hökm sürdüyündən temperaturun yüksək olduğu gözlənilmir.

Kaliforniya Universitetindəki tədqiqatın aparıcı müəllifi, astrofizik Ana Lobo verdiyi açıqlamada bildirib: "Planetlərin daimi gündüz və gecə tərəfi var. Gündüz tərəfində qızmar, yaşayış üçün əlverişli olmayan, gecə tərəfi isə buzlu və yaşayış üçün potensial yerdir".

Astrobioloqlar tez-tez okean dünyalarına diqqət yetirərək araşdırmalar aparırlar. Çünki su həyatın vacib olan tərkib hissəsidir. Lakin Lobo və komanda üzvləri həyat üçün su qədər əhəmiyyətli ola biləcək yeni kəşflər etmək istəyirlər: "Biz geniş okeanlara malik olmayan, lakin gölləri və ya digər kiçik maye su hövzələrinə malik ola biləcək planetlərə diqqəti cəlb etməyə çalışırıq. Bu iqlimlər, əslində, çox perspektivli ola bilər", – deyə o bildirib.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

# "James Webb" Uranın ən aydın fotosunu çəkib

**"James Webb" kosmik teleskopu Uran planetinin bütün təfərrüatları ilə və hər zamankindən daha aydın görməyə imkan verir.**



Günəşdən yeddinci sırada yerləşən Uran bu günə qədər yalnız "Voyager 2" kosmik gəmisi və "Keck" ilə müşahidə edilib. Donmuş mantiya, hidrogen və helium qazlarından ibarət olan planeti "James Webb" tərəfindən indi daha aydın fotosu çəkilib. Üstəlik, aparat daha əvvəl gördüyümüz şəkillərdə planetin gözə dəyməyən zəif halqalarını da açıq şəkildə ortaya çıxarıb. Planetdəki buludlar və ən parlaq peyklər də teleskopun obyektivinə tuş gəlib.

"James Webb" planetdə atmosferdəki buludlardan yaranan parlaq ləkələri də qeydə alıb. Ancaq bu təsvirin ən maraqlı hissəsi deyil, daha böyük şəkildə görünə bilən ağ sahəsidir. Bu sahə planetin tamamilə buzla örtülmüş hissəsidir. Teleskop sayəsində biz bu ərazini ilk dəfə bu qədər aydın görə bilirik. Maraqlıdır ki, bu ərazi birbaşa Günəş işığında görünsə də, planetin payız mövsümündə yox olur.

Uranın 13 halqasından biz yalnız 11-ni görə bilirik. Bunun səbəbi, digər iki halqanın güclü işıq əks etdirməsi nəticəsində bir-birinə qarışmış görünməsidir.

Bu fotoda Uranın 27 peykinin hamısı görünmür. Çünki bu peyklərin çoxu o qədər kiçikdir və işığı o qədər az əks etdirir ki, onları müşahidə etmək çətindir. Yuxarıda gördüyümüz 6 peyk Titania, Oberon, Miranda, Pak, Ariel və Ubrieldir.

NASA-nın açıqlamasına görə, bu foto cəmi 12 dəqiqəlik fokuslanmanın məhsuludur. Ümid edək ki, tezliklə Uran haqqında daha ətraflı təsvirlər və məlumatlar əldə etmək mümkün olacaq.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ *Aprelin 8-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Cənub-şərq küləyi əsəcək, günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 8-11°, gündüz 16-19° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 6-11°, gündüz 17-22° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 1-6°, gündüz 9-14° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 1-6°, gündüz 9-14° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 7-10° , gündüz 15-20° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 5-10°, gündüz 12-17° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. İntensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 6-11°, gündüz 17-22° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 6-9°, gündüz 14-18°, dağlarda gecə 5-7°, gündüz 9-14° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Bakının Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri Fazil Abbasa anası

**NƏNƏŞ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev və universitetin professor-müəllim heyəti görkəmli alim

**VİLAYƏT HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 820
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00